

Müstəqil Azərbaycanda biz hər bir insanın azadlığı üçün, o cümlədən dini mənsubiyyət azadlığı, vicdan azadlığı üçün hər cür şərait yaratmışıq. Hər kəs hansı dinə mənsubdursa, həmin dinə ibadət edir. Lakin bu, Azərbaycanda insanların mehriban, qarşılıqlı anlaşma şəraitində yaşamasına mane olmur, burada milli və dini mənsubiyyətlə əlaqədar heç bir ayrı-seçkilik yoxdur.

**Heydər Əliyev**

# DÖVLƏT VƏ DİN

İCTİMAİ FİKİR TOPLUSU

№ 01 (60) 2019



## REDAKSİYA HEYƏTİ:

| | |
|---|---|
| **Allahşükür Paşazadə** | Tarix elmləri doktoru, professor |
| **Bəxtiyar Əliyev** | Psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Etibar Nəcəfov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Əhmədov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Həsənov** | Tarix elmləri doktoru, professor |
| **Fazil Mustafa** | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| **Gövhər Baxşəliyeva** | Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Gülçöhrə Məmmədova** | Memarlıq doktoru, professor |
| **İlham Məmmədzadə** | Fəlsəfə elmləri doktoru, professor |
| **Mübariz Qurbanlı** | Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent |
| **Nizami Cəfərov** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Sabir Həsənli** | İlahiyyat üzrə fəlsəfə doktoru |
| **Sakit Hüseynov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Səlahəddin Xəlilov** | Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Teymur Kərimli** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Urxan Ələkbərov** | Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Vasim Məmmədəliyev** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Yaqub Mahmudov** | Tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |



**Redaktor: Sadiq Mirzəyev**
**İxtisas redaktoru:** Güney Namazova
**Texniki redaktor:** Raman Dadaşov
**Tərcüməçi redaktor:** Ayxan Həsənov



**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 16.
Telefon: (+99412) 505-78-19



Qeydiyyat № 1674 / Tiraj: 800 / www.scwra.gov.az

Toplunun "Rəsmi guşə"sində AzərTAc-ın materiallarından istifadə edilib.
Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
Jurnal "Azərbaycan" nəşriyyatında çap olunub.

**İSSN 2220-8542**

# BU SAYIMIZDA


**RƏSMİ GUŞƏ**

Azərbaycanın pravoslav xristian icmasına....................................................................5

Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki.................6

Birinci vitse-prezident Mehriban Əliyeva Gəncədə "İmamzadə"
dini kompleksini ziyarət edib.......................................................................................10

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransiskə
təbrik məktubu ünvanlayıb.........................................................................................12

**CƏMİYYƏT VƏ DİN**

*Fuad Nurullayev* – Qurani-Kərimə görə vəhdət və onun əhəmiyyəti......................................13

*Elvüsal Məmmədov* – Erkən dövr nəzəri müsəlman rasional fikrinin təşəkkülü......... .............18

*Əhliman Rüstəmov* – Qərb mediasında antiislami hərəkat.....................................................24

*Osman Hacıyev* – Orta əsrlər İslam Şərqində sosial-fəlsəfi ideyalar.......................................32

**ARAŞDIRMA**

*Əminə Əliyeva* – Şimali Afrika ölkələrində xəlvətilik..............................................................38

*Zaur Əliyev* – Ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi prosesi barədə ..........47

*Nailə Süleymanova* – Hüseyn bin Məsud əl-Bəğavinin "Məsabih əs-Sünnə"
əsərinin qədim nüsxələri.............................................................................................53

*Səbuhi İbrahimov* – Qədim və orta əsrlər əlyazmalarında Naxçıvan haqqında qeydlər...........57

**PORTRET**

*Aytək Məmmədova* – Tarixdə yaşayan dünya şöhrətli alim
*(Nəsirəddin Tusinin vəfatının 745 illiyi münasibəti ilə)............................................................64*

**BAXIŞ BUCAĞI**

*Məhsəti Cəfərova* – Elitar və kütləvi mədəniyyətlər: müqayisəli təhlil...................................71

*Elbrus Sadıqov, Nihad Aslanzadə* – Azərbaycanda multikulturalizm siyasəti ..........................77

*Qalib Sayılov* – Lətifələrdə İslam inancının kanonik proyeksiyaları.........................................82

**TARİXƏ PƏNCƏRƏ**

*Turan Nəsirova* – Azərbaycan Xalq Cümhuriyyətinin qadın siyasəti.........................................90

*Fəxrəddin Səfərli* – "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində
nümayiş etdirilən daş qoç heykəllərinin kitabələri.................................................................99

*Dilavər Məmmədov* – Ömər ibn Xəttabın Quran hökmlərinin tətbiqində
zaman-məkan faktorunu nəzərə alması və hökmlərin tarixiliyi problemi..................................106

*Toğrul* Xəlilov – Naxçıvan abidələrində yaşayan tariximiz ......................................................114



www.scwra.gov.az

e-mail: redaksiya@scwra.gov.az

# Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün pravoslav xristianlarını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Müasir dünyada multikulturalizmin ünvanlarından birinə çevrilən Azərbaycan Respublikası yüksək humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin demokratik birgəyaşayış norması kimi qəbul edildiyi nümunəvi cəmiyyətə malikdir.

Tarixən müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində vahid ailə kimi yaşadığı Azərbaycanda pravoslavlıq say etibarilə ən böyük xristian konfessiyasıdır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan pravoslav xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində fəal iştirak edir, dinlərarası əməkdaşlıq və etimad mühitinin inkişafına öz layiqli töhfələrini verir. İnanıram ki, pravoslav xristian icması bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da güclənməsi naminə əlindən gələni əsirgəməyəcəkdir.

Əziz həmvətənlər!

Hər il Azərbaycanda təntənə ilə qeyd edilən Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 3 yanvar 2019-cu il.*

# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki



- Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz bayramı xalqımızın sevimli bayramıdır. Əsrlər boyu Azərbaycan xalqı Novruz bayramını qeyd edir. Bu bayramı biz yaxşı nəticələrlə qarşılayırıq. Azərbaycan uğurla və hərtərəfli inkişaf edir. Qarşıda duran bütün vəzifələr icra edilir. Azərbaycan dövləti dərin milli-mənəvi köklər üzərində qurulubdur. Novruz bayramı bizim milli sərvətimizdir.

Keçən Novruz bayramından ötən dövr ərzində bir çox önəmli hadisələr baş vermişdir. Aprel ayında prezident seçkiləri keçirilmişdir və Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir, böyük dəstək göstərmişdir. Bu dəstəyə və inama görə doğma xalqıma minnətdaram. Mən bu dəstəyi son illər ərzində görülmüş işlərə verilən qiymət kimi qəbul edirəm, eyni zamanda, prezident seçkiləri ərəfəsində elan edilmiş islahatların yeni mərhələsinə göstərilən dəstək kimi qəbul edirəm. Prezident seçkilərindən sonra genişmiqyaslı islahatlar aparılmağa başlanmışdır. Bu islahatların nəticələrini Azərbaycan xalqı artıq görür və bundan sonra da görəcəkdir.

Novruz bayramından iki ay sonra ölkəmizin həyatında çox önəmli hadisə baş vermişdir. May ayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Bu, tarixi layihədir. Bu layihənin icrası ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcək, bizim siyasi və iqtisadi maraqlarımızı qoruyacaq. May ayında digər böyük layihə istifadəyə verildi, biz Ələt Beynəlxalq Dəniz Ticarət Limanının açılışını qeyd etdik. Bu limanın və 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun

fəaliyyətə başlaması Azərbaycanı Avrasiya məkanında önəmli beynəlxalq nəqliyyat mərkəzinə çevirib. Biz bu gün uğurla Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəaliyyətinə təkan veririk. Azərbaycan hər iki layihədə uğurla fəaliyyət göstərir. Deyə bilərəm ki, bu layihələrdə 10-dan çox ölkə iştirak edir, ancaq yalnız bir ölkə - Azərbaycan həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizlərində fəal iştirak edir və bir çox təşəbbüslərin müəllifi olmuşdur.

İyun ayında digər tarixi hadisə baş vermişdir – TANAP qaz kəmərinin açılışı mərasimi keçirilmişdir. Bu layihənin həyata keçirilməsi bütövlükdə Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması üçün əsas şərtdir. Biz bu tarixi hadisəni uğurla qeyd etdik və bu gün Azərbaycan qazının əlavə həcmi TANAP xətti ilə dünya bazarlarına nəql edilir.

Biz keçən il üçüncü peyki orbitə buraxdıq və bir daha göstərdik ki, texnoloji baxımdan Azərbaycan çox uğurla, sürətlə inkişaf edir. Kosmik sənayenin inkişafı bizim prioritetlərimizdən biridir.

Keçən il biz regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrasını təmin etdik. Proqram artıqlaması ilə icra edildi və üç proqramın icrası böyük dəyişikliklərə gətirib çıxardı. Biz demək olar ki, bütün infrastruktur layihələrimizi yenidən qurduq. Azərbaycan infrastruktur baxımından çox sürətlə inkişaf edir. Təkcə onu demək kifayətdir ki, biz üç proqram çərçivəsində elektrik enerjisini ixrac etməyə başlamışıq, ölkə daxilində təminat tam təşkil edilir. Baxmayaraq ki, əvvəlki illərdə biz idxaldan asılı idik. Biz qazlaşdırmanı 95 faizə çatdırmışıq və bu, dünya miqyasında ən böyük, ən yüksək göstəricilərdən biridir. Şəhərlərimizin əksəriyyətinə təmiz içməli su xətləri çəkildi və bu proses davam etdirilir. On beş min kilometr yeni yol çəkildi və Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə yol infrastrukturunun səviyyəsi, keyfiyyəti baxımından Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Sosial infrastruktur obyektləri inşa olundu, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikildi və ya yenidən quruldu. İki milyondan çox yeni iş yeri yaradılmışdır. Əhali isə 1,6 milyon artmışdır.

Bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Azərbaycan bu gün bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlər qurub. Bir çox hallarda Azərbaycan çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarıdır. Qonşu dövlətlərlə əlaqələrimiz yeni mərhələyə qədəm qoyub. Hər bir ölkə üçün qonşularla münasibətlərin inkişafı xüsusi əhəmiyyət daşıyır. Çox şadam ki, biz qonşu ölkələrlə səmərəli, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik. Müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir. İslam həmrəyliyinə verdiyimiz töhfə bütün müsəlman aləmində yüksək qiymətləndirilir.

Keçən ilin yay aylarında Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədi paraflandı. Bu, çox önəmli sənəddir. Xüsusilə nəzərə alsaq ki, orada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi paraqraflar var, xüsusi fikirlər əks olunub. Bu, əlbəttə ki, çox önəmli məsələdir, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bunun çox böyük əhəmiyyəti var.

Münaqişənin həllinə gəldikdə, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim tarixi diyarımızdır və münaqişənin tezliklə həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri

əsasında olmalıdır. Bilirsiniz ki, Ermənistan tərəfi danışıqlar formatının dəyişdirilməsi ilə bağlı məsələlər qaldırıb. Ancaq təbii ki, Azərbaycan bunu qəbul edə bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədr ölkələrinin səfirləri - Amerika, Fransa, Rusiyanın nümayəndələri ciddi bəyanat verərək bildirdilər ki, format dəyişməz olaraq qalmalıdır. Həmçinin Avropa İttifaqının yüksək vəzifəli şəxsləri oxşar bəyanatla çıxış etmişlər. Yəni, bu, Ermənistana birmənalı ciddi siqnaldır, eyni zamanda, onu göstərir ki, Azərbaycanın mövqeyi daha da böyük dəstək qazanır.

Münaqişənin həlli regionda sülhün, sabitliyin təmin olunmasına gətirib çıxaracaq. Əlbəttə, Azərbaycan çalışır və çalışacaq ki, bu məsələ tezliklə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın.

Biz bununla bərabər, əlbəttə ki, öz hərbi gücümüzü artırırıq. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya nümayiş etdirib. Bu il və bundan sonrakı illərdə biz ordu quruculuğu üçün nə lazımsa onu da edəcəyik. Bizim hərbi hissələrimizin demək olar ki, mütləq əksəriyyəti yenidən qurulub. Azərbaycan Ordusu ən müasir texnika ilə təchiz edilir və döyüş qabiliyyətimiz gündən-günə artır. Bu gün Novruz bayramını, o cümlədən Cocuq Mərcanlıda qeyd edirlər. Cocuq Mərcanlının qurulması, bərpası, yenidən oraya həyatın qayıtması bizim tarixi nailiyyətimizdir. Cocuq Mərcanlı bu gün Azərbaycan xalqının əyilməz ruhunun təzahürüdür.

Bildiyiniz kimi, bu gün Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub. İslahatlar hərtərəflidir. İqtisadi islahatlar bizə imkan verir ki, əlavə gəlirlər əldə edilsin və büdcə gəlirlərimiz artıb. Bu ilin yanvar-fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıbdır. Bu, bizə imkan verir ki, həmin vəsaiti sosial layihələrə yönəldək. Qeyd etdiyim kimi, ciddi islahatlar üzərində işlər keçən il prezident seçkilərindən sonra başlamışdır. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi vəziyyətini, maliyyə vəziyyətini yaxşılaşdırmış olur. Bildiyiniz kimi, minimum əməkhaqqı və minimum pensiya təxminin 40 faiz artmışdır. Sosial müavinətlər təqribən orta hesabla iki dəfə artmışdır. Köçkünlərə verilən müavinət 50 faiz artmışdır. Tələbələrin təqaüdləri, şəhid ailələrinə verilən müavinətlər, digər sosial ödənişlər artıb. Çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı müvafiq Fərman imzalanıb. Problemli kreditlərin həlli ilə bağlı çox ciddi Fərman imzalanıb. Onu deyə bilərəm ki, bu Fərmanın dünyada bənzəri yoxdur və bu Fərman 800 min insanı əhatə edir. Yəni, Azərbaycan dövləti bir daha göstərir ki, öz vətəndaşının yanındadır.

Bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapacaqdır. İqtisadi artım isə göz qabağındadır. Bu ilin iki ayında ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son illər ərzində ən yüksək göstəricidir. Sənaye istehsalı 4,6 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Ancaq ən böyük artım qeyri-neft sektorunda sənaye istehsalına aiddir. Burada artım 15,5 faizdir. Hesab edirəm ki, bu, dünya rekordudur və son illər ərzində aparılan düşünülmüş ciddi iqtisadi islahatlar siyasətinin nəticəsidir.

İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər

güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir.

Mən tam əminəm ki, bu ili biz uğurla başa vuracağıq. Bundan sonra Azərbaycan yalnız və yalnız inkişaf və tərəqqi yolu ilə gedəcək, vətəndaşların sosial vəziyyəti ildən-ilə yaxşılaşacaq.

Əziz həmvətənlər, sizi bu gözəl Bahar bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun.

# Birinci vitse-prezident Mehriban Əliyeva Gəncədə “İmamzadə” dini kompleksini ziyarət edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncə şəhərinə səfər ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ulu Öndər Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Birinci vitse-prezidentə son illərdə şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verib.

Mehriban Əliyeva Regional İnkişaf İctimai Birliyinin nümayəndələri ilə görüşüb.



* * *

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncəyə səfər çərçivəsində “İmamzadə” dini kompleksini ziyarət ediblər.

Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov VIII əsrə aid tarixi memarlıq abidəsi olan və xalq arasında “Göy günbəz”, “Göy məscid”, yaxud “Göy İmam” kimi tanınan “İmamzadə” dini-mədəniyyət kompleksinin yenidənqurma işlərindən sonra bütün müsəlman dünyasından ziyarətçiləri qəbul etdiyini bildirib. Qeyd edilib

ki, bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib.

Mehriban Əliyevaya və Leyla Əliyevaya "Qurani-Kərim" hədiyyə edilib.

"İmamzadə" əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.

Birinci vitse-prezident Mehriban Əliyeva burada ziyarətə gələnlərlə görüşüb.

Fevralın 14-də "İmamzadə" kompleksində Azərbaycanın Birinci vitse-prezidentinin adından ehsan süfrəsi verilib.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransiskə təbrik məktubu ünvanlayıb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransisk Həzrətlərinə Tacqoyma Gününün ildönümü münasibətilə təbrik məktubu göndərib.

Məktubda Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olması vurğulanıb, ikitərəfli əməkdaşlığın dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, ümumdünya mədəni irsinin qorunmasına gələcəkdə də böyük töhfələr verəcəyinə ümid ifadə edilib.

# QURANİ-KƏRİMƏ GÖRƏ VƏHDƏT VƏ ONUN ƏHƏMİYYƏTİ

***Fuad NURULLAYEV,***
*QMİ-nin sədr müavini,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *din, Quran, vəhdət, tolerantlıq, ayrı-seçkilik.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *религия, Коран, единство, толерантность, дискриминация.*
***KEY WORDS:*** *religion, the Quran, unity, tolerance, discrimination.*

Allah-Təala tərəfindən göndərilmiş səmavi dinlər insanları birliyə, vəhdətə doğru çağırır. Çünki cəmiyyətdə vəhdət olmasa, həmin cəmiyyətdə zorakılıq halları baş alıb gedər. Başqasına zor tətbiq etmək isə səmavi dinlərin əsas prinsiplərinə ziddir. Biz bunu Tövrat və İncildə, eləcə də Qurani-Kərimin ayələrində görməkdəyik. Bəlkə də, İslam dini digər dinlərə nisbətən bu məsələni daha qabarıq şəkildə ifadə etməkdədir. Belə ki, Uca Rəbbimiz bu cür bəyan edir: **"Dində məcburiyyət yoxdur"** [1, "əl-Bəqərə", 256]. Bu ayəyə əsasən deyə bilərik ki, müqəddəs dinimiz öz ayinlərini başqalarına məcburi şəkildə qəbul etdirməyə qətiyyən "yox" deyir, insanı əqidə baxımından tamamilə sərbəst buraxır.

Qurani-Kərimin ayələrinin tədqiqatı zamanı sübut olunmuşdur ki, İslam dini yuxarıda qeyd etdiyimiz iki din mənsublarının – Yəhudilik və Xristianlıq - ibadət mərkəzləri olan sinaqoq və kilsələrə qarşı mehriban münasibət qurmağı tövsiyə etmiş, bununla da, başər cəmiyyətinin vəhdət və birliyə ehtiyac duyduğunu önə çəkmişdir. Belə ki, Uca Allah buyurur: "...Əgər Allah insanların bir qismini digər qismi ilə (müşrikləri möminlərlə) dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər (yəhudi məbədləri) və məscidlər dağılıb gedərdi (darmadağın edilərdi)... [1, "əl-Həcc", 40].

Göründüyü kimi, İslamda vəhdət dinin əsas ünsürü kimi qəbul edilir. Qurani-Kərimin "Kafirun" surəsinin 6-cı ayəsində Uca Yaradan dinlərin insanlar arasında bir maneə olmadığını, insanların din amilindən çıxış edərək bir-birinə qarşı kin-küdurət bəsləməmələrini bildirmək üçün belə buyurmuşdur: **"Sizin öz dininiz var, mənim də öz dinim! (Elə isə sizin dininiz sizə, mənim dinim də mənə)!"**. Bu ayədən də insanların müxtəlif inancda və fikirdə ola biləcəyi, həmin insanlara qarşı münasibətin necə formalaşacağı və o cümlədən dinlərin vəhdətə maneə törətmədiyi aydın görünür.

Səmavi dinlərdən sonuncusu olan İslam insanları birliyə və ixtilaflardan uzaq olmağa çağırır. Qurani-Kərim gözəl və aşkar ibrətlərlə bəşəriyyəti tövhid ideyası ətrafında sıx birləşməyə dəvət edir. Eyni zamanda, insanlar arasında ədavət və ayrı-seçkiliyin İlahi yoldan azmağın əsas amili olduğunu təkidlə bəyan edir: "**Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi** (Allahın) **yolundan sapdıracaq yollara uymayın.** (Allah) **sizə bunları tövsiyə etdi ki, pis əməllərdən çəkinəsiniz!**" [1, "Ənam", 153].

Ayənin təhlili onu göstərir ki, yaradılışda hamı bərabər olduğu üçün heç kəs başqasından

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

rəng, cins, məkan, nəsil və başqa amillərə görə üstün deyil. Üstünlük yalnız təqvadadır. İslam baxımından bütün insanlar bərabərdirlər, təqvadan başqa, heç kəsin digəri üzərində üstünlüyü yoxdur.

İslam tarixini araşdırdıqda məlum olur ki, müəyyən qüvvələr hər dövrdə istər daxildən, istərsə də xaricdən dində parçalanma yaratmağa çalışmışlar. Bu cür şəxslərin və qurumların bir çoxu İslam dini ilə düşmənçiliklərini açıq şəkildə aparmadıqlarından onları tanımaq çətin olmuşdur. Müsəlmanları parçalamaq uğrunda aparılan düşmən hiylələrindən ən təhlükəlisi onların məzhəb adı ilə bir-birinin adına yalan söz söyləməklə düşmənçilik yaratmalarıdır. Onlar İslam ümmətinin birliyindən yaranacaq qüvvəni özləri üçün böyük təhlükə hiss edərək bundan qorxuya düşürlər.

Məhəmməd peyğəmbərin (s) vəfatından qısa müddət sonra müsəlmanlar arasında meydana gələn fikir müxtəlifliyi parçalanmaya, qiyamların meydana gəlməsinə və nahaq qanlar axıdılmasına səbəb oldu. Düşmənlər də bu fürsətdən istifadə edib, yalan fikirlər yayaraq İslamı bünövrədən yox etmək istədilər.

Təəssüf hissi ilə qeyd edilmədir ki, Rəsulullahın (s) pak sünnəsi müsəlman qiyafəsində peyda olan din düşmənləri, münafiqlər tərəfindən müxtəlif təhriflərə məruz qalmışdır. Peyğəmbərin (s) Əhli-beyti (ə) ilə yanaşı, onun sədaqətli səhabələri həmişə azğınlıqlara qarşı mübarizə aparmış, ümməti Quran və sünnədən ayrılmamağa dəvət etmiş, sünnənin doğru və ya səhv olduğunu yoxlamaq üçün Qurana müraciəti tövsiyə etmişlər. Buna xüsusi diqqəti yönəldən İmam Əli (ə) hədislərinin birində belə buyurur: “Ey insanlar! Fitnələrin başlanğıcı Allahın kitabı ilə müxalif olan bidət hökmlərdən ibarətdir ki, bununla bəzi insanlar bəziləri ilə dost olurlar. Əgər batil müəyyən olub özünün həqiqi simasında görünsəydi, heç bir şey ağıl sahiblərinə gizli qalmazdı. Əgər həqiqət müəyyən olub həqiqi simasında görünsəydi, ixtilaf olmazdı” [2, s. 195-196].

Müasir dövrdə bəzi xarici dairələr müsəlman dünyasında özlərinə əlaltılar tapıb, onları dəstəkləməklə müsəlmanlar arasında çox dərin bir parçalanmanın əsasını qoymağa çalışırlar. Onlar tövhidə çağırış şüarı ilə müsəlmanlar arasına ayrı-seçkilik salmağa can atırlar. İslamın birliyini istəməyənlər ona içəridən zərbə vuraraq, öz məqsədlərinə çatdığını hesab edirlər. Məhz buna görə də Uca Rəbbimiz biz müsəlmanları bir olmağa, ayrılığa düşməməyə dəvət edərək buyurmuşdur: **“Hamılıqla Allahın ipinə** (dininə, Qurana) **möhkəm sarılın və** (firqələrə bölünüb bir-birinizdən) **ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O, sizin qəlblərinizi** (İslam ilə) **birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O, sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!”** [1, “Ali-İmran”, 103].

Təfsir alimlərinə görə, **“Allahın ipi”** deyildikdə Quran və İslam nəzərdə tutulmuşdur. Həzrət Peyğəmbər (s) Qurani-Kərim haqqında danışarkən buyurmuşdur: “Quran Uca Allahın göydən yerə sallanmış ipidir” [3, c. II, s. 73]. Bu hədisi yuxarıdakı ayə ilə müqayisəli şəkildə təhlil etdikdə, aydın olur ki, bütün müsəlmanlar Allaha lazımi şəkildə etiqad etməli və Onun ipindən yapışaraq tövhid inancında birləşməli, ayrılıqdan uzaq olmalı və ömrünün sonunadək imanını qorumalıdır. İslam dini etiqad və əməldə birliyə böyük əhəmiyyət verir. Bunun

üçündür ki, inanc sahəsində Allahın birliyi prinsipini gətirdiyi kimi, ibadət məsələsində də həcc və namazlarda müsəlmanları bir yerə yığaraq birliyi təmin edəcək prinsiplər qoymuş, əməli tədbirlər həyata keçirmişdir. Deməli, fərd olaraq, yaxud bölünmüş qruplar halında yaşayanların dinlərini və milliyyətlərini qorumaları asan deyildir. Bunların sosial, maddi və mənəvi təzyiqlər qarşısında davam gətirmək gücü az olduğundan, daim din və milliyyətlərini itirmə təhlükəsi ilə qarşı-qarşıya olurlar. Belə təzyiqlər peyğəmbərləri də çətin vəziyyətlərdə qoymuş, bu səbəbdən Allahdan və insanlardan kömək istəməyə məcbur qalmışlar [4, c. I, s. 643-644].

Hər insanın öz biliyi onu səadətə çatdırmaq üçün kifayət etmir. Buna görə də ağıldan üstün olan, ağıla qüvvət verən bir yol göstərənə ehtiyac vardır. İnsan onu yaradan, nöqsanlarını görən, dərdlərini, ehtiyaclarını və bütün bunların çarəsini bilən Allah tərəfindən nazil olan yol göstəricisinə, yəni vəhyə möhtacdır. Peyğəmbərlər bu ehtiyacları ödəmək üçün göndərilmişlər. Bu haqda Allah-Təala belə buyurur: **"İnsanlar tək bir ümmət idi.** Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) **peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi. Halbuki özlərinə aşkar dəlillər gəldikdən sonra aralarındakı kin** (və həsəd) **üzündən** (dində) **ixtilafda bulunanlar kitab əhlindən başqası deyildir. Onların ixtilafda olduqları həqiqətə Onun izni** (idarəsi) **ilə iman gətirənləri isə Allah doğru yola yönəltdi. Allah istədiyini düz yola istiqamətləndirər**" [1, "əl-Bəqərə", 213].

Biz insanlar bir ata-ananın övladıyıq, heç bir əqidə, təriqət və ya məzhəb bizi ayıra bilməz. İslam dininin ana qaynağı olan Qurani-Kərim insanları birliyə çağırır, Cənnət və ya Cəhənnəmin bütün bəşərə aid olduğunu bildirir. Qurani-Kərim sözügedən məsələ barəsində belə buyurur: **"İman gətirənlərdən** (müsəlmanlardan)**, musavi** (yəhudi)**, isəvi** (xristian) **və sabiilərdən Allaha, axirət gününə** (sədaqətlə) **inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır.** (Qiyamət günü) **onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər"** [1, "əl-Bəqərə", 62]. Digər bir ayədə isə belə qeyd olunur: **"İman gətirənlərdən, yəhudi, xristian və sabiilərdən Allaha, Axirət gününə inanların və yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. Onların heç bir qorxusu yoxdur və onlar qəmgin olmazlar"** [1, "əl-Maidə", 69].

Məhəmməd peyğəmbərin (s) dövründə bəzi müsəlmanlar arasında belə bir sual meydana çıxmışdı: "Əgər İslam dini yeganə haqq yoludursa, bizim ata-babalarımızın vəziyyəti necə olacaq?" Onlara cavab olaraq sözügedən ayə enmiş və bildirilmişdir ki, öz zamanında etiqadı düzgün və saleh əməl sahibi olan hər bir insan Allah-Təala yanında nicat əhli sayılır. Əlbəttə, bir hədisdə bu sualın səhabə Salman tərəfindən ibadət əhli olan ata-babası barədə soruşduğu və ayənin də məhz ona cavab olaraq nazil edildiyi bildirlir.

Deməli, ayənin nüzul səbəbinə əsasən, İslam dinindən öncə dövrünün səmavi dininə etiqad bəsləmiş və düzgün əməl sahibi olan hər kəs nicat əhli sayılır, belələri ilahi ədalət əsasında Cənnətə daxil olacaqlar.

İctimai varlıq olan insan mövcud olduğu cəmiyyətə qaynayıb-qarışdıqda xoşbəxt ola bilər. Eyni zamanda, özü xoşbəxt olmayan cəmiyyətin fərdləri də xoşbəxt ola bilməz. Bu baxımdan həmrəylik insanın sosial təbiətindən irəli gəlir ki, o, bunun vasitəsilə cəmiyyətin digər üzvləri ilə dərdlərini bölüşür, çətinliklərini aradan qaldırır. Həmrəylik sayəsində insanlar qarşılıqlı xid-

mət mədəniyyətinə malik olur, birgəyaşayışa şərait yaradırlar. Unudulmamalıdır ki, həmrəyliyin nüvəsini azadlıq və ədalət təşkil edir. Əfsuslar olsun ki, müasir dövrdə dünyanın bir çox yerində insanlar yoxsulluq, ayrı-seçkilik, zülm və sosial bəlalardan əziyyət çəkirlər. Bu kimi əzab-əziyyətləri isə vəhdətə, həmrəyliyə, bərabərliyə əsaslanan münasibətlərin qurulması ilə aradan qaldırmaq mümkündür [5, s. 45].

Beləliklə, İslam dininin xüsusi önəm verdiyi insanlararası dostluq, birgəyaşayış və hər kəsin öz əqidəsini sərbəst yaşamaq hüququna xalqımız da tarix boyu sadiq qalmışdır. Tarixə nəzər saldıqda görürük ki, Azərbaycanda əsrlər boyu müxtəlif dinlərin nümayəndələri, fərqli etnik qruplar, xalqlar dostluq, qardaşlıq mühitində yaşamışlar və bu ənənə günümüzdə də davam edir. Hazırkı mürəkkəb geosiyasi dövrdə mədəniyyətlərarası dialoq hər şeydən daha önəmlidir. Mədəni müxtəlifliklərin qarşılıqlı şəkildə tanınması və qəbul edilməsi tərəqqiyə və çiçəklənməyə aparan əsas yoldur. Vəhdətin əsas ünsürlərindən olan multikulturalizm, tolerantlıq Azərbaycanın hər bir vətəndaşının həyat tərzinə çevrilmişdir. Üstəlik, tolerantlıq təkcə insanların mədəni inkişafında, milli azlıqların problemlərinin həllində deyil, eyni zamanda dövlətlərarası əlaqələrin inkişafında, şəffaflığın təmin olunmasında da mühüm rol oynayır.

Əminliklə deyə bilərik ki, ölkəmizin multikultural siyasəti islamofobiya və ekstremizmlə mübarizədə yaxşı vasitədir. Müxtəlif dinlər və azsaylı xalqlar arasında sülh şəraitində birgəyaşayışı özündə əks etdirən multikulturalizm siyasətinin dövlət səviyyəsində tətbiq edildiyi Azərbaycan bu baxımdan dünyanın bir çox ölkəsinə nümunədir.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim. Tərc: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı: Azərnəşr, 1991.
2. Fətullayeva Natella. Birlik və Vəhdət. (baku.icro.ir/pages saytına istinadən).
3. əd-Diməşqi İbn Kəsir. Təfsirül-Quranil-Əzim. 8 cilddə. II c. Darut-Tibə, 1420/1990.
4. Hayreddin Karaman ve b. Kur'an Yolu Tefsiri. I cilt. Sayfa: 643-644.
5. Heyət. Moizələr və Xütbələr kitabı (QMİ). Bakı: Nurlar, 2017.
6. Seyid Kamal Fəqih İmanı. Nurul-Quran (Maidə surəsinin təfsiri). Bakı; 2007.

Фуад Нуруллаев

## ЕДИНСТВО В КОРАНЕ И ЕГО ЗНАЧЕНИЕ

### РЕЗЮМЕ

В статье говорится о том, что исламская религия, а также все остальные небесные религии приглашают людей к единству и равенству. Отмечается, что в обществе, где отсутствует единство и солидарность, царит насилие. С этой точки зрения, применение насилия по отношению к другим противоречит основным принципам небесных религий. Автор с сожалением заявляет, что в современный период люди во многих частях мира страдают от бедности, дискриминации, угнетения и социальных бедствий. Он отмечает, что от таких страданий можно избавиться путем выстраивания отношений, основанных на единстве, солидарности и равенстве людей.

Fuad Nurullayev

## UNITY IN THE QURAN AND ITS IMPORTANCE

### SUMMARY

The article acknowledges that the Islamic religion, as well as all other monotheistic religions invite people to unity and equality. It is noted that violence reigns in a society where unity and solidarity are absent. From this point of view, the use of violence against others contradicts the basic principles of monotheistic religions. The author regrets that in modern times people in many parts of the world suffer from poverty, discrimination, oppression and social disasters. He notes that such sufferings can be eliminated by building relationships based on unity, solidarity and equality of people.

# ERKƏN DÖVR NƏZƏRİ MÜSƏLMAN RASİONAL FİKRİNİN TƏŞƏKKÜLÜ

**_Elvüsal MƏMMƏDOV,_**
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Azərbaycan İlahiyyat İnstitutunun müəllimi;*
*AMEA akad. Z. Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi*
*elvusal.mammedov@gmail.com*

***AÇAR SÖZLƏR:*** *ağıl, vəhy, rasional, mötəzililik.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *разум, откровение, рационалистический, мутазилиты.*
***KEY WORDS:*** *intellect, revelation, rational, mu`tazila.*

İslam fikri tarixində əql-vəhy “qarşıdurması”nın ilk təzahürlərinə VIII əsrin əvvəllərində rast gəlinir. Dini məsələlərin həllində Quran və Sünnəni əsas götürən “hədis tərəfdarları” arasından rasional “rəy” üsulunu qətiyyətlə rədd edənlər tapıldı. Digər tərəfdən, Quran və Sünnəyə istinad etməklə yanaşı, ictihad əməliyyatlarından istifadə edən “rəy tərəfdarları” arasında rasional üsullara ifrat dərəcədə üstünlük verənlər vardı. Nəticə etibarı ilə, “...tabein dövrü və ondan sonrakı mərhələdə ibtidai rasional idrak mürəkkəb forma alaraq, mütəşəkkil rasional təlimə – kəlama zəmin hazırlayacaqdı” [1, s.228]. Vəhyi biliyin yeganə mənbəyi hesab edənlərin “mövcud olanla kifayətlənmə”si, qarşı tərəfin isə həqiqəti kəsbdə ağıla geniş səlahiyyət verməsi müxtəlif rasional təlimlərin meydana çıxmasına səbəb oldu. Mövzu haqqında hərtərəfli təsəvvürün hasil olması üçün dövrün siyasi-ictimai mənzərəsinin təhlilinə ehtiyac vardır.

Bundan əvvəl qeyd etmişdik ki, müsəlmanlar Məhəmməd peyğəmbərin (s) vəfatından sonra xəlifənin kim olması ətrafında yaranmış fikir ayrılığını tezliklə aradan qaldıraraq, siyasi birliyə nail olmuşdular. Lakin problemlər bütövlükdə həll edilməmişdi. Buna səbəb Peyğəmbərin (s) əmisi oğlu Əli ibn əbu Talibin (601-661) tərəfdarlarının mövcud siyasi-dini iqtidardan narazı qalmaları idi. Əbubəkr (573-634) və Ömərin (584-644) xəlifəliyi illərində gizli qalan narazılıqlar üçüncü xəlifə Osmanın (577-656) qətlindən sonra (656) Əli ibn əbu Talibin hakimiyyəti (656-661) dövründə şaxələnmiş, əvvəlcə kortəbii, daha sonra mütəşəkkil ideoloji təlimlərin meydana çıxması ilə nəticələnmişdi. Bu dövrdə ən mürəkkəb problem “imamət” problemi idi. Mütəşəkkil dini-siyasi qrupların meydana gəlməsində mühüm rol oynamış bu problem ilk dörd xəlifənin hakimiyyəti illərində etiqad problemi hesab olunmasa da, sonralar “...hətta etiqad məsələlərinə sirayət edərək, qızğın mübahisələr doğuracaqdı” [2, s.16]. Yəni, imamət problemi birinci xəlifə Əbubəkrdən sonra siyasi səbəblərdən irəli gələn ictihad məsələsi idisə, Əməvilərin hakimiyyətə gəlməsindən etibarən dini-ideoloji səciyyə daşımağa başlamışdı.

İmamətlə əlaqəli digər problem iman ətrafında yaranmışdı. “İman nədir, nəyə

əsaslanmalıdır", "Mömin kimdir, səciyyəvi xüsusiyyətləri hansılardır", "Fasiq kimdir, təsviri nədən ibarətdir?" və digər suallara cavab tapmaq üçün həm dini mətnlərdən, həm də ictihad əməliyyatlarından istifadə etmək lazım gəlirdi. Şam valisi Müaviyə dördüncü xəlifə Osmanın qətlindən sonra iqtidarı ələ keçirmək fikrinə düşdükdə və xəlifə olduğu illərdə insanlar onun və tərəfdarlarının müsəlman olub-olmadığı, onlara itaət edib-etməmək, Əli ibn əbu Talibin və davamçılarının haqlı olub-olmadığı haqqında düşünməyə başladılar. Həmçinin hər kəsi belə bir sual düşündürürdü: bütün baş verənlər ilahi qədərin, yoxsa insan fəaliyyətinin nəticəsidir? Əgər burada Allah işə qarışmışdısa, onda insanın üzərinə hansı məsuliyyət düşür?

İmamət məsələsi İslam fikri tarixində "iman və möminin tərifi", "fərdin cəmiyyətdəki mövqeyi", "qədər-cəbr (iradə azadlığı)" problemlərinin yaranmasına səbəb olmuş, qızğın polemikalara zəmin hazırlamışdı. Bütün bu suallara cavab axtarışı İslam fikri tarixinin ilk dini-rasional təlimlərinin: xaricilik, mürciəlik və mötəzililiyin yaranmasına şərait yaratdı. Xaricilər imamət-xilafət məsələsində konsensusu dəstəkləyir, imanın əməllə təsdiqlənməsi ideyasını irəli sürürdülər. İlk baxışdan bitərəf görünən, əslində isə Əməvi iqtidarına dəstək verən, iman və günah probleminin həllini axirətdə "ilahi hökm"ə həvalə etməyi təklif edən təlim isə mürciəlik idi. Mötəzililər isə imamət probleminin doğurduğu "mömin-kafir" mübahisəsində kompromis təklif edir, "mənzilə beynəl-mənziləteyn" təlimi ilə bu problemə cavab tapdıqlarını iddia edirdilər [2, s.117].

Həmçinin bu dövrdə əməllərdə "ilahi qələm"in iştirakını iddia edən cəbəriliyin ibtidai təzahürləri meydana çıxmışdı. Qeyd edək ki, insan iradəsinin sərbəstliyi və ya ilahi taledən asılılığı – qədər-cəbr məsələsi iman-əməl problemi ilə müqayisədə spekulyativ xarakter daşıyırdı. Qədərilik təliminə görə isə "insan öz hərəkətlərinin yaradıcısı idi" [3, s.125; 10, s.76].

Daxili siyasi-ideoloji amillər, VIII əsrin əvvəllərindən etibarən xilafət ərazisinin genişlənməsi və əcnəbi mədəniyyətlərlə təmas nəticəsində yaranan rasional təlimlərin təsiri ilə Ərəbistandan kənarda, xüsusən İraq ərazisindəki nəzəri problemlərə maraq artdı. "İraq hələ İslamdan əvvəl müxtəlif təlim və nəzəriyyələrin toqquşduğu coğrafiya idi. Ellinizm, ellinist Xristianlıq, qnostisizm, zərdüşti dualizm... İslam dünyasında fəlsəfi, dini və etik fikrin yaranmasına təsir göstərmişdi" [4, s.108].

Əcnəbi mədəniyyətlərlə təmasın doğurduğu suallara çox vaxt dini mətnlərdə birbaşa cavab tapmaq mümkün olmurdu. Kənar dinlərin və mədəniyyətlərin mənsublarını çox vaxt ayə və hədislər qane etmir, bu səbəbdən İslam dinini qeyri-ənənəvi üsullarla – rasional üsullarla izah və müdafiə etmək zərurəti yaranırdı. Bu vəzifəni qədər-cəbr probleminin həllində rasional üsullardan istifadə etmiş mötəzililik öz öhdəsinə götürdü. Yarandığı ilk dövrdə mötəzililik təliminin başlıca vəzifəsi Allahın birliyi (tövhid) konsepsiyasına zidd fəlsəfi ideya və fikirləri tutarlı rasional arqumentlərlə puça çıxarmaq idi [5, s.19-22]. Bu səbəbdən XIII-XIV əsrlər müsəlman ilahiyyatçısı Zəhəbi (1274-1348) mötəzililərə nifrət bəsləməsinə baxmayaraq, "Əsil-nəcabətli adamların tərcümeyi-halı (Siyər aləm ən-nübəla)" kitabında mötəzili Cahizin (776-868) peyğəmbərliyə dair əsərinin adını çəkərkən ona Allahdan rəhmət diləmişdir [5, s.22].

Qeyd edək ki, xilafət ərazisinin genişlənməsi və VII əsrin sonlarından başlanan tərcümə

fəaliyyəti nəticəsində müsəlmanlar fərqli mədəniyyətlərlə, fəlsəfi təlimlərlə, antik dünyanın mədəni irsi ilə tanış oldular. Bununla yanaşı, İslam monoteizminin təhrifə uğraya bilməsi ehtimalı meydana çıxdı. Müsəlmanlar bu ehtimala münasibətdə iki mövqedən çıxış etməyə başladılar. Birinci mövqenin tərəfdarları mövcud təhlükə ilə sırf İslam nöqteyi-nəzərindən mübarizə aparmağa cəhd göstərən fiqh alimləri idilər. Məsələn, "..."Böyük fiqh (əl-fiqh əl-əkbər)" və "Orta fiqh (əl-fiqh əl-övsət)" əsərlərində Əbu Hənifə (vəfatı – 767) Allahın birliyi, yaradılış və bilik problemini İslam nöqteyi-nəzərindən izah etməyə çalışmışdı" [6, s.24]. İkinci mövqeni təmsil edən mötəzililik də yad mədəni-fəlsəfi təsirdən İslamı qorumaq vəzifəsini öz öhdəsinə götürmüşdü. Amma bu təlimin özü də sonralar yad mədəni-fəlsəfi təsirlərin altına düşəcək, İslama aid bəzi etiqad məsələlərinin ənənədən uzaq üsullarla izahına girişəcəkdi.

Ümumiyyətlə, Müsəlman dünyasında rasional təlimlərin yaranmasına səbəb olmuş amilləri daxili və xarici olmaqla iki yerə ayırmaq mümkündür. İslamın siyasi güc olaraq "... yunan mədəniyyəti və elminin çoxəsrlik təsirinin müşahidə olunduğu Misir, Suriya İraq və İran ərazisinə" [7, s.5] yayıldığı vaxt müsəlmanların müxtəlif fəlsəfi, fikri təlimlərlə, məktəblərlə tanışlığı, bu təlim və məktəblərdən dini ehkamları müdafiə məqsədilə onları mahiyyət baxımından öyrənməyin zəruriliyi, nəhayət, tərcümə fəaliyyətinin nəticəsində müsəlman dünyasında fəlsəfə və məntiq elminin meydana çıxması və s. xarici amillər hesab olunur.

Məhəmməd peyğəmbərin (s) vəfatından sonra meydana gələn daxili siyasi çəkişmələr: imamət məsələsi, IV xəlifə Osmanın qətli, Cəməl və Siffin döyüşləri, Əməvilərin hakimiyyəti ələ keçirməsi ilə yaranmış nəzəri-dini problemlər müsəlman rasional fikrinin təşəkkülündə rol oynamış daxili amilləri əmələ gətirir. Ayə və hədislərdə bu nəzəri-etiqad problemlərinə aid birbaşa cavabların olmamağı yeni həll yollarının axtarışını zəruri edirdi. Siyasi qruplar öz iddialarını əsaslandırmaq üçün Quran ayələrinə müraciət edirdilər; müvafiq dəlil tapılmadıqda ayələrin yozulması işi başlanırdı.

Qədər və cəbr məsələlərinin nəzəri aspektləri işlənib hazırlanmış, problem daha da mürəkkəbləşmişdi. İradə azadlığı məsələsini əsaslandırmaq üçün Quranda "ilahi" dəlillər axtarmaq problemi rasional baxımdan həll etmək işini çətinləşdirirdi. Qeyd edək ki, mütəxəssislər qədər-cəbr probleminin meydana gəlməsində daxili və xarici amillərin nə dərəcədə rol oynaması barədə fərqli düşünürlər. Məsələn, bir qrup mütəxəssis bildirir ki, qədər problemi hicri I və II əsrlərdə Quran ayələrinin fərqli variantlarda təfsir edilməsi nəticəsində meydana çıxıb. Amma digər nöqteyi-nəzərə görə, sərbəst iradə məsələsi xristian ilahiyyatına xas problemdir, sonralar İslam fikrinə də daxil olmuşdur. Tədqiqatçılardan Georg Anavati (1905-1994) və Əhməd Əmin (1888-1972) iddia edirlər ki, müsəlmanlar bu problemlə Suriyada yaşayan xristianlarla təmasdan sonra tanış olmuşlar. Onlar öz iddialarını isbatlamaq üçün xristian Dəməşqli İohannın (676-749) "Bir ərəb sənə belə desə, ona bu cür cavab ver" kitabına istinad edirlər [2, s.20]. Cəbr probleminin sırf siyasi səbəblərdən meydana çıxdığını bildirən, bu işdə Əməvilərin cavabdeh olduğunu göstərən tədqiqatçılar da vardır. Fikrimizcə, Müsəlman dünyasında qədər-cəbr mövzularının müzakirə obyekti seçilməsinə heç də xarici amillər səbəb olmayıb. Çünki iradə probleminə aid ibtidai təzahürlərin hələ Peyğəmbərin (s) vaxtında meydana çıxmasını

təsdiqləyən mənbələr mövcuddur (Şəhristaninin (1086-1158) "Dinlər və məzhəblər (əl-miləl vən-nihəl)" kitabı buna misaldır). Deməli, insan iradəsi və ilahi tale məsələlərinə daxili amillərin meydana çıxardığı problem kimi nəzər salmaq lazımdır. Bu problemi ərəb insanının soruşmaq və maraqlanmaq kimi intuitiv hisslərinin məhsulu hesab etmək mümkündür. Sonralar Əməvi hakimiyyəti bu problemin səbəbkarı kimi deyil, ondan istifadə edən tərəf kimi çıxış edəcəkdilər. Xarici amillərin təsirinə gəlincə, bəlkə də, yad mədəniyyətlərlə təmas qədər-iradə probleminin meydana çıxmasına deyil, onunla əlaqəli müzakirə və mübahisələrin, fikir ayrılıqlarının məzmununa, veriləcək cavabların üslubuna təsir göstərmişdir.

O da qeyd olunmalıdır ki, həmçinin mötəzili təliminin yaranmasına daxili və xarici amillərin təsir nisbəti ətrafında eyni mübahisə cərəyan etmişdir. Bəzi tədqiqatçılara (T. J. de Boer (1866-1942), A.fon Kremer (1828-1889), H.Bekker (1876-1933) və s) görə, mötəzililik xristian ilahiyyatına xas polemikaların meydana çıxardığı rasional təlimdir. Bu müəlliflər iddia edirlər ki, bir çox ərəb Suriyada xristianlardan təhsil aldığı üçün məntiq və rasional idrak əsasında formalaşmış xristian sxolastikasının polemika üsullarını mənimsəmişlər. Çünki müsəlmanlar erkən Xristianlıq tarixinin şahidi olduğu eyni problemlərlə üz-üzə gəlmişdilər [2, s.21-22]. Kənar təsiri danmaq mümkün deyil, amma mötəzili təliminin təşəkkül tapmasında xarici amillərin rolunu şişirtmək lazım deyildir; əsas diqqət daxili amillərə verilməlidir. Mövqeyimiz ondan ibarətdir ki, xarici amillər mötəzili kəlamçılarının istifadə etdiyi rasional üsullarda öz ifadəsini tapıb. İbn Xəldun (1332-1406) göstərir ki, mötəzili məktəbinin yaranması etiqad məsələləri – imanın tərifi, iradə azadlığı, antropomorfizmlə, bu isə öz növbəsində Quranın zahirən ziddiyyətli görünən ayələri ilə əlaqədardır [8, s.570]. Türkiyəli tədqiqatçı R.Altıntaş (1959) mötəzili təliminin yaranmasında Quranı təfsir işinin əhəmiyyətli rol oynadığını bildirir. Altıntaş iddia edir ki, müxtəlif siyasi qrupların bir sıra etiqad məsələlərini izah etmək üçün Qurandan gətirdikləri qeyri-dəqiq dəlillərin müzakirəsi mötəzililik təliminin yaranmasına zəmin hazırlamışdı [9, s.4]. Deməli, Quranın təvil edilməsi mötəzili təliminin yaranmasında müəyyən qədər rol oynamışdır. Ayələrin yozulmasını zəruri edən problemlər isə məhəlli səciyyə daşıyırdı. Daxili siyasi prosesləri dini mətnlərlə izah edərkən Quranın ifadə üslubundan, semantik xüsusiyyətlərindən irəli gələn fikir ayrılıqları təvil təmayülünün ilk mərhələsinin başlıca cizgisini əmələ gətirirdi. Qeyd edək ki, bəzi mütəxəssislər (fon Kremer, A. Volfson və s.) Quranın təvil olunmasını da xarici amillərlə – xristian ilahiyyatının təsiri ilə əlaqələndirirlər. "Kəlam epistemologiyasında ağılın yeri" adlı sanballı məqaləsində Türkiyəli tədqiqatçı Ramazan Altıntaş bu iddianın əsassızlığını tutarlı dəlillərlə isbatlamışdır. Müəllifə görə, məlum siyasi hadisələrin nəticələrinə fərqli münasibət bəsləyən siyasi qruplar öz mövqelərini, ideologiyalarını dini mətnlərlə əsaslandırmaq üçün Qurana müraciət edirdilər. Quranda "lazımi" ayəyə təsadüf edilmədikdə ayələri yozmaq zərurəti yaranırdı [9, s.4]. Müəllif bildirir ki, təvil fəaliyyətinə Qurandakı bir sıra morfoloji vahidin qeyri-dəqiq məzmunu, bəzi ifadələrin alleqorik-metaforik məna çalarlığı, ümumiyyətlə, Quranın metaforik üslubda nazil edilməsi səbəb olub və semantik çalarlıq təkcə Qurana deyil, digər səmavi kitablara da xasdır. Altıntaş ayələrin linqvistik xüsusiyyətlərindən irəli gələn bir sıra etiqad problemlərinin izahında rasional üsullardan istifadəni də Quranın üslub

xüsusiyyətləri ilə əlaqələndirir [9, s.4-8]. Müəllif iddiasını əsaslandırmaq üçün düşünməyə çağıran ayələrdən söz açır və bu qənaətə gəlir ki, müsəlman rasional fikri yerli siyasi hadisələrə Quran əsasında şərh vermək cəhdinin nəticəsində formalaşıb [9, s.8].

Deyilənlərdən bu qənaət hasil olur ki, müsəlman rasional fikrinin təşəkkülü daxili tələbatla, həmçinin İslam dininin özü ilə əlaqədar olmuşdur*.

# ƏDƏBİYYAT


**1.** Vatt Montogomeri. İslam düşüncesinin teşekkül devri / Ethem Ruhi Fığlalının tərcüməsi ilə. İstanbul: "Birleşik", 1998, 416 s.

**2.** Türker Mubahat. Üç tehafüt bakımından felsefe ve din münasebeti. Ankara: Türk Tarih Kurumu Basımevi, 1956, 419 s.

**3.** Ислам: Энциклопедический словарь /Отв. ред. С.М.Прозоров. М.: «Наука», 1991, 311с.

**4.** Fazlur Rahman. İslam / Mehmed Aydının tərcüməsi ilə. İstanbul: "Selçuk", 1981, 383 s.

**5.** Altıntaş Ramazan. İslam düşüncesinde işlevsel akıl. İstanbul: "Pınar", 2003, 463 s.

**6.** İbn Rüşd. Fəsl əl-Məqal / Bekir Karlığanın tərcüməsi ilə. İstanbul: İşaret yayınları, 1992, 129 s.

**7.** Leaman Oliver. Ortaçağ İslam felsefesine giriş / Turan Koçun tərcüməsi ilə. Kayseri: Rey Yayıncılık, 1992, 285 s.

**8.** عبد الرحمن بن خلدون. مقدمة ابن خلدون. تحقيق: حامد أحمد الطاهر. القاهرة: دار الفجر، 2004، ص. 792

**9.** Altıntaş Ramazan. Kelami epistemolojide aklın değeri // C.Ü.İlahiyat Fakültesi Dergisi, Sivas, 2001, №2, s. 97-129.

**10.** Григорян С.Н. Средневековая философия народов Ближнего и Среднего Востока. М.: Наука, 1966, с. 352.

**11**. سليمان دنيا. التفكير الفلسفي الاسلامي. المغرب: مطبعة السنة المحمدية، 1967، ص. 407

Elvusal Mammadov

# FORMATION OF THE MUSLIM THEORETICAL RATIONAL THOUGHT OF THE EARLY PERIOD

## SUMMARY

The article deals with the social and political conditions in which the Muslim theoretical rational thought of the early period was formed. It was shown that causes occurrence of the first religious and rational teachings, such as Harijism, Murjism, Mu'tazilism, along with political factors, were also a vigorous theoretical debates, taking place around topics such as imamat, iman and faithfully godliness in Islam (i.e. the issue of "Faithful Muslim" or Mū'min in Islam), position of the individual in society, free will, etc. The author notes that the factors that caused the emergence of rational teachings in the Muslim world can be divided into two parts – external and internal. The impact of external influences on the emergence of early Muslim rational thought cannot be denied, but their role should not be exaggerated. In a word, the formation of the Muslim rational thought occurred, including and due to internal needs within the development of the Islamic religion itself.

Эльвусал Маммадов

# ФОРМИРОВАНИЕ МУСУЛЬМАНСКОЙ ТЕОРЕТИЧЕСКОЙ РАЦИОНАЛЬНОЙ МЫСЛИ РАННЕГО ПЕРИОДА

## РЕЗЮМЕ

В статье рассматриваются общественно-политические условия, в которых формировалась мусульманская теоретическая рациональная мысль раннего периода. Было показано, что причинами появления первых религиозно-рациональных учений, таких как хариджизм, мурджиизм, мутазилизм, наряду с политическими факторами, явилась острая теоретическая полемика, имевшая место вокруг таких тем, как имамат, иман и правоверие, позиция личности в обществе, свобода воли. Автор отмечает, что факторы, послужившие причиной появления в мусульманском мире рациональных учений, можно разделить на две части – внешние и внутренние. Нельзя отрицать влияние внешних воздействий на возникновение ранней мусульманской рациональной мысли, однако их роль нельзя преувеличивать. Одним словом, формирование мусульманской рациональной мысли происходило, в том числе, и в связи с внутренними потребностями, в рамках развития самой исламской религии.

# QƏRB MEDİASINDA ANTİİSLAMİ HƏRƏKAT

***Əhliman RÜSTƏMOV,***
*Qafqaz Müsəlmanları İdarəsinin*
*Fətva və moizə şöbəsinin müdir müavini*
*araşdırmaçı-jurnalist*
*ahlimanquest@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *Qərb, media, müsəlman, islamofobiya, ayrı-seçkilik.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Запад, медиа, мусульманин, исламофобия, дискриминация.*
***KEYWORDS:*** *West, mass media, Muslim, islamophobia, discrimination.*

Media cəmiyyətin vəziyyətinə ciddi təsir göstərən, onun mahiyyətini müəyyən edən siyasi sistemin tərkib hissəsidir. Kütləvi informasiya vasitələrinin, eləcə də qlobal sosial şəbəkələrin sürətli inkişafı ilə xarakterizə edilən hazırkı dönəmdə medianın bütün istiqamətlər boyu hərəkətə keçməsi isə bir sıra təhlükəli tendensiyalar meydana gətirməyə başlayıb. Artıq beynəlxalq aləm, dünya ictimaiyyəti həqiqətin nədən ibarət olmasında əvvəlki kimi maraqlı deyildir. Çünki auditoriya ona təqdim edilən və beyinlərə yeridilən informasiyaya inanır, media tərəfindən ötürülən doğru və ya səhv informativ materialın təsirinə məruz qalır. Bu mənada media insanların şüurunu manipulyasiya etməkdə olduqca təsirli vasitədir. Necə ki, İkinci Dünya savaşını başlayan III Reyxin reyx-kansleri və füreri Adolf Hitlerin əsas ideoloqu olan Yozef Gebbels deyirdi: “Mənə kütləvi informasiya vasitələrini versəniz, istənilən milləti donuz sürüsünə çevirərəm” [1].

Mənəvi-əxlaqi dəyərlərin deqradasiyaya uğradığı müasir dünyada İslam dininə qarşı açılmış savaşda medianın digər bir “özəlliyi” – dağıdıcı, təxribatçı və antiislami mövqeyə malik olması açıq-aydın görünməkdədir. Bu etalonu daha çox Avropada fəaliyyət göstərən qərəzli media orqanlarına şamil etmək olar. Daha dəqiq desək, demokratiyanın əsəri sayılan media radikal təməlçiliyi, dini nifrəti özünün dünya ağalığı üçün münasib vasitəyə çevirməyə çalışan, İslamın barış təbliğ edən ideyalarının təhrifi olan islamofobiyanın arxasında gizlənərək bu müqəddəs dinin yayılmasından qorxuya düşən və İslama qarşı cəbhə açan bəzi Qərb dövlətlərinin əsas silahına çevrilib. Ümumiyyətlə, Qərbin İslama, o cümlədən Şərq sivilizasiyasına qarşı dirənişinin kökü tarixin dərinliklərinə gedib çıxır. Bu barədə məşhur rus alimi Lev Qumilyov yazır: “Qərbin bir etnomədəni birlik olaraq Şərqə qarşı qoyulması hələ antik dövrdə yaranmağa başlamışdı” [2, s.70]. Beləliklə, Qərb indi İslamın və müsəlman dünyasının sahib olduğu dəyərləri media vasitəsilə dağıtmaqla məşğuldur. Elə araşdırmanın davamı da gördüyünüz bu istiqamətdə olacaq, Qərb mediasında antiislam hərəkatının yaranmasını zəruri edən səbəblər ətraflı şəkildə izah ediləcəkdir.

Dövrümüzdə media ən azı hərbi güc qədər mühüm rol oynamağa başlayıb. Bu isə beynəlxalq münasibətlərin əsas faktoru olan milli dövlətlərin hərbi güclə deyil, “yumşaq güc”lə, yəni media vasitəsilə parçalanmasından xəbər verir. Bu fikri sübuta yetirmək üçün tarixdən bir fakta müraciət edək. Keçən əsrin ikinci yarısında Qərblə, xüsusilə ABŞ və SSRİ arasında gedən

soyuq müharibə siyasəti informasiya fəzasında da davam etdi və birinci tərəf üçün uğurla başa çatdı. SSRİ kimi nəhəng sosialist dövlət süquta uğradı və kapitalist Qərb beynəlxalq aləmdə güclü rəqibinin olmaması ucbatından hərbi güc nümayişindən məhrum olmaq faktı ilə üzləşdi. Qəribə burasıdır ki, bu hadisədən dünyanın siyasi arenasında "qırmızı rəng" "yaşıl rənglə" əvəzləndi. Biz bunu Qərb mediasında müsəlmanlara qarşı aparılan antiislami kampaniyada da açıq şəkildə görürük. "Bunu avstraliyalı jurnalist Peter Manninq "Biz və onlar" adlı əsərində aydın göstərmişdir: "Təcrübəm mənə deyir ki, ərəb və müsəlman avstraliyalıların gündəlik həyat tərzi ilə bizim – Avstraliya mediasındakı təqdimat arasında böyük uçurum var. Belə ki, iki böyük qəzetdən götürülmüş nümunələr əsasında, demək olar ki, "zorakılıq", "ölüm", "hücum", "qətl", "intihar", yaxud "cani", "qatil" kimi sözlərin işlədilmə hallarının 60 faizi "ərəb", "fələstinli", "müsəlman", yaxud "İslam" kimi sözlərə çox yaxın çalarlardır". Belə olduğu halda, niyə insanların çoxunun İslamı terrorizmlə assosiasiya etməyə vadar olduğu anlaşılır. Buradan da göründüyü kimi, medianın müsəlmanlar barəsində məqsədli şəkildə birtərəfli və qərəzli informasiya siyasətinə üstünlük verməsi məlumatsız kütlədə İslam sivilizasiyası ilə bağlı neqativ düşüncələrin formalaşmasına səbəb olur" [3].

Qeyd etmək yerinə düşər ki, "islamofobiya (islamophobia, yəni İslam qorxusu) "İslam" və "fobiya" (qorxu) sözlərindən ibarət olan termindir. Lüğəvi mənada bir şeyin fərz olunan təhlükəsindən şüursuz şəkildə qorxmaq və ya qorxutmaq kimi başa düşülür. Terminoloji baxımdan isə İslama və müsəlmanlara qarşı kin, nifrət və ya düşmənçilik bəsləmək, onlara güvənməmək, onlardan şübhələnmək və İslamdan qorxmaq anlamına gəlir. Əslində isə "İslam" və "fobiya" kəlmələrinin yanaşı işlədilməsi İslamın yaratmadığı, İslamdan qaynaqlanmayan qorxuya, daha doğrusu, qəsdən "yaradılmış", "icad edilmiş" və ya "uydurulmuş" qorxuya işarədir" [4, s.133-134].

Həmçinin "İslamdan və müsəlmanlardan qorxmaq, qorxutmaq və ya bir termin kimi işlədilən islamofobiya problemi Qərbdə istər xalq səviyyəsində, istərsə də rəsmi səviyyədə ümumi fikrə çevrilmişdir. Bu, Qərbin siyasət, strategiya, mətbuat və İslamla əlaqəli tədqiqat mərkəzlərində açıq şəkildə özünü büruzə verir. Mövzu ilə əlaqədar yazılan əsərlər və tədqiqat mərkəzləri tərəfindən hazırlanan sənədlər araşdırılarkən onlarda islamofobiyanın daha çox "qərəzli" (prejudice), "ayrı-seçkilik" (discrimination), "təcrid" (exclusion) və "şiddət" (violence) kimi anlayışlarla ifadə edildiyini görmək olar. Belə ki, "qərəzli" ifadəsi ilə Qərb mediasında və qərblilərin gündəlik həyatında müsəlmanların əleyhinə nümayiş etdirilən hərəkətlər əks olunur. "Ayrı-seçkilik" məfhumu müsəlmanların məşğulluq və iş həyatlarında, təhsil və səhiyyə xidməti sahələrində üzləşdiyi fərqli münasibətləri, çətinlik və sıxıntıları ifadə edir. "Təcrid" siyasətinin həyata keçirilməsində əsas məqsəd müsəlmanların Qərb inzibati-idarəetmə sistemlərinə yaxın buraxılmaması, siyasi və demokratik hüquqlardan məhrum edilməsidir. Müsəlmanların qarşılıq olaraq verdiyi etirazlar isə "şiddət" anlayışı ilə diqqətə çatdırılır. İslamofobiya ilə əlaqədar anlayışlar süzgəcdən keçirilərkən "irqçilik" (rasizm), "əcnəbi qorxusu" (ksenofobiya), "yəhudu düşmənçiliyi" (antisemitizm) və "İslam düşmənçiliyi" kimi ifadələr də gündəmi zəbt etməkdədir. Əslində, məna baxımından bir-birinə çox yaxın olan bu məfhum və konsepsiyaların bir-birindən fərqləndirilməsi də vacib məsələdir. Məlum olduğu kimi, islamofobiya məfhumu ilə paralel olaraq tez-tez səsləndirilən "irqçilik" və "əcnəbi qorxusu" anlayışları Qərb ölkələrində yaşayan daha geniş kütləyə şamil edilir" [5, s.21-39].

1993-cü ildə Amerikanın nüfuzlu jurnalı olan "Foreign Affairs" də məşhur amerikalı sosioloq Samuel Hantinqtonun "Sivilizasiyaların toqquşması" adlı məqaləsi işıq üzü gördü. 1996-cı ildə isə həmin məqalə "Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması" adı altında kitab şəklində çapdan çıxdı. S.Hantinqton "sivilizasiyaları mədəni birlik adlandırsa da, onları mədəniyyətdən daha böyük məfhum kimi səciyyələndirir, sivilizasiyaların müxtəlifliyini din və dillə əlaqələndirir, bu iki amili bütün sivilizasiyaların, mədəniyyətlərin başlıca elementləri hesab edir, dünya sivilizasiyalarının təsnifatını verərkən əsas faktor kimi din amilinə üstünlük verir" [6, s.94]. Məşhur sosioloq vurğulayır ki, bəşəriyyətin gələcəyi bir-birindən tarixi keçmişi, mədəni ənənələri, xüsusən də konfessional mənsubluğu ilə fərqlənən "sivilizasiyaların toqquşması"ndan ibarət olacaq; "soyuq müharibə"dən sonrakı dövrdə münaqişələrin və qarşıdurmaların əsas mənbəyini ideologiya və siyasi baxışlar deyil, din və mədəniyyətlərdəki fərqlər təşkil edəcək; münaqişələr, əsasən, müxtəlif sivilizasiyaları və dinləri təmsil edən dövlətlər, millətlər və cəmiyyətlər arasında baş verəcək; əsas mübarizə Qərb və İslam sivilizasiyalarına mənsub olan ölkələr arasında gedəcəkdir [6]. Beləliklə, S.Hantinqtonun səsləndirdiyi fikirlər Qərb siyasi şüurunun özünə yeni düşmən obrazı yaratmaq arzusunun ilk siqnalına çevrildi. Çünki Avropa tarixin hər mərhələsində özü üçün münasib düşmən obrazı yaratmağa və ondan maksimum istifadə edərək dünya hökmranlığı planlarını həyata keçirməyə öyrəşib. Keçən əsrin 90-cı illərinin əvvəllərində Avropanın bu obrazı üçün ən yaxşı hədəf İslam ola bilərdi və bunun da iki ciddi səbəbi vardı. Birincisi, yuxarıda qeyd etdiyimiz kimi, SSRİ-nin süqutu ABŞ-ı təkbaşına dünya lideri etmişdi. Artıq Kreml strateji düşmən ola bilməzdi. Kommunizm ideologiya kimi dünyanın siyasi səhnəsindən silinmişdi. Siyasi-ideoloji konsepsiyalardan heç biri Qərb liberalizmi və konservatizminə qarşı müqavimət göstərə bilmirdi. Hədəf başqa müstəvidə axtarılmalı idi. İkincisi, həmin mərhələdə dünyada İslam faktoru yeni səviyyədə özünü göstərməyə başlayır, Avropa və Amerikada bu dini qəbul edənlərin sayı artırdı. "Qərb prinsipləri Şərq həyatına geniş şəkildə daxil olsa da, Şərqin də Qərbə ekspansiyası baş verir. Belə ki, İslam qlobal faktor olur, ABŞ-ın və Qərbi Avropa ölkələrinin həyatına əhəmiyyətli dərəcədə təsir göstərməyə başlayır. Okeanın o biri tayında bu gün iqtisadiyyat, təhsil və mədəniyyətin müxtəlif sahələrində çalışan altı milyondan çox müsəlmana xidmət göstərən mindən çox məscid və Quranın öyrənilməsi üzrə mərkəzlər vardır. Fransada sayına görə müsəlmanlar katoliklərdən sonra ikincidirlər" [7, s.244].

Xristianlıq isə dini dünyagörüşü kimi mənəvi böhran astanasına çatmışdı. "Xristianlıq, zamanında Qərb sivilizasiyasını öz kulminasiya, intibah dövründən endirən, onu tənəzzülə uğradan bir proses olmuşdur" [8, s.123]. Bu isə İslamı Qərbin siyasi-ideoloji və hərbi dairələrinin birbaşa hədəfinə çevirirdi.

Digər tərəfdən, 2001-ci ildə "əl-Qaidə" adlı terror təşkilatı Nyu-Yorkdakı Dünya Ticarət Mərkəzinin binasını partlatdı və bununla da, müsəlmanların adı böyük terror aktında hallanmağa başlandı. Elə bu zaman Qərb "təbliğat maşını"nı işə saldı, onun media orqanları "İslam terrorizmi", "İslam fundamentalizmi", "islamofobiya" kimi ibarələri milyonlarla auditoriyaya sırımaqla, şüura təsir üsulundan məharətlə istifadə etməklə yeni düşmən obrazını yaratmağı bacardı, Avropada oturuşmuş "kommunizm kabusu"nu onunla daban-dabana zidd olan "İslam kabusu" ilə əvəz etdi. Bu da Qərb cəmiyyətində İslama və müsəlmanlara qarşı nifrətin yaranmasına,

Qərbdə yaşayan müsəlmanların təhqir, təqib kimi arzuolunmaz hallarla qarşılaşmasına gətirib çıxardı. Məsələn, "Avropa birliyinin 27 ölkəsində 23.500 nəfər üzərində ətraflı araşdırma edən "European Union Agency for Fundamental Rights" (FRA) dərc etdiyi bir anketdə bu ölkələrdə yaşayan hər üç müsəlmandan birinin sadəcə son bir ildə mütləq ayrı-seçkiliklə qarşılaşdığını və hər on müsəlmandan birinin də təcavüz (hücum xarakterli) və ya təhqirə məruz qaldığını göstərir" [9, s.33]. "Son onillikdə Qərb kütləvi informasiya vasitələrində müsəlmanlara və İslama aid nəşr olunmuş yazıları dərindən nəzərdən keçirsək, məlum 11 sentyabr terror hadisəsindən sonra münasibətin daha sərt məcra daşımasının şahidi olarıq. Bu gün dünya müsəlmanları KİV-də İslamın həqiqi mahiyyətini təhrif edən, dezinformasiya və saxtakarlıqlarla dolu kampaniyanın şahidi olmaqdadır. Heç də düşünmək lazım deyil ki, bütün bu təbliğat İslam dini, mədəniyyəti və ənənələri ilə tanış olmayan Qərb kütləsinə yönəlib. Fikrimizcə, əsas zərbə gücü, əslində, öz dini ilə az tanış olmuş, lakin özünü İslam dininin nümayəndəsi sayan "ənənəvi müsəlmanlar"a və Qərb mədəniyyətinin ciddi təsirinə məruz qalmış sadə insanlara qarşı yönəlib" [10]. Deməli, Qərb mediasında yer alan antiislami hərəkatdan biri də müsəlmanların islami savadsızlığından istifadə etməklə öz dinlərinə olan baxışlarını tədricən dəyişdirmək, İslamı onlara mənfi surətdə təqdim etməkdir.

Bunlardan əlavə, 2014-cü ildə İraqda və Suriyada fəaliyyət göstərən silahlı bir qruplaşma – "İraq-Şam İslam Dövləti" (İŞİD) peyda oldu. Yarandığı gündən İslama ləkə olan bu radikal qruplaşma müqəddəs dinimizin "Allahu Əkbər" devizindən sui-istifadə edərək günahsız insanları qətlə yetirdi. Bu isə Qərb mediasında antiislami hərəkatın daha da güclənməsinə rəvac verdi. Qeyd etmək lazımdır ki, İŞİD-in yaranmasında müxtəlif ölkələrin adı hallansa da, ən çox Qərb dövlətlərinin, xüsusilə də ABŞ-ın adı keçməkdədir. Bu barədə etiraflar, sənədlər və məlumatlar olduqca çoxdur. Belə ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "facebook" səhifəsində ABŞ-ı İŞİD-i yaratmaqda günahlandıran fikirlər səsləndirdi: "Sadəcə, hələ heç kəs İraqa görə ABŞ-a təşəkkür edib qurtarmayıb, hansı ki, müdaxilənin yekununda İŞİD peyda oldu" [11]. İŞİD-in ABŞ-ın layihəsi olmasını hərbi mütəxəssislər də dəstəkləyirlər. Məsələn, Kanadanın Ottava Universitetinin professoru, Qloballaşma üzrə Tədqiqat Mərkəzinin direktoru Mişel Çossudovski belə iddia edir: "Dünyada terrorun bir nömrəli sifarişçisi Vaşinqtondur. İŞİD ABŞ və onun müttəfiqləri tərəfindən nəinki himayə olunur, həm də maliyyələşdirilir" [12]. Məsələ burasındadır ki, İŞİD İraqda ABŞ-ın bu ölkəni işğal etməsi dövründə yaranıb. Qruplaşmanın lideri ABŞ ordusu tərəfindən həbs olunsa da, bir müddət sonra azadlığa buraxılıb. Bundan başqa, ABŞ-ın İŞİD-in mənəvi-ideoloji bazası hesab olunan qruplarla keçən əsrin 80-ci illərində Əfqanıstanda əməkdaşlıq etməsi, oxşar prosesin Suriya və İraqda da baş verdiyi ilə bağlı iddialara səbəb olub. Hər halda, İŞİD-in ABŞ tərəfindən yaranması ilə bağlı sadalanan bu fikirlər məntiqi baxımdan bir fakta əsaslanır: son iki əsrin qanlı təcrübəsinə əsasən, bu cür terror təşkilatlarının arxasında hər zaman qüdrətli dövlətlər dayanır.

Burada bir məsələyə də diqqət yetirmək lazımdır. Günümüzdə özünə "müsəlman dövləti" möhürünü vuran bəzi dövlətlər İslam şəriətinə zahiri surətdə və ya formal olaraq əməl edir və Qərb mediası bu dövlətlərdə baş verənləri İslam adına çıxır. Əslində, belə hallar ədalətsizlikdir. Çünki hər hansı bir hadisəni İslam dini ilə əlaqələndirməzdən əvvəl onun həm müsəlmanların müqəddəs, həm də bütün bəşərin sonuncu səmavi kitabı olan Qurani-Kərimin prinsipləri ilə

uyğunluq təşkil edib-etmədiyinə nəzər yetirmək lazımdır. Yəni, media İslamdan bəhs edərkən onun təməl qaynağı olan Quranın ehkamlarını deyil, hansısa müsəlman qrupun, təşkilatın və ya dövlətin hərəkətlərini qələmə verirsə, bu, İslamın həqiqi mahiyyətinin təhrifinə səbəb olur, müqəddəs dinimizlə bağlı yanlış fikirlər ortaya çıxarır. Elə bu gün Qərb mediası tərəfindən radikal islamçıların nümunəsində beynəlxalq ictimaiyyətə təqdim olunan İslam da məhz belə "İslam"dır.

Eyni zamanda, Qərbdəki mətbuat vasitələrinin ən tanınmış məlumat kanalları İslamdan qorxutmaq siyasətini məharətlə yürüdür, böyük mətbu imkanlarından istifadə edərək öz izləyici və oxucusunun diqqətini İslam barədə qərəzli və qəzəbli yanaşmanın üstünlük təşkil etdiyi materiallara doğru yönəldir, bunun üçün ciddi səy göstərirlər. Onlar müsəlmanlara istehza etmək, İslamı aşağılamaq işini artıq adət halına çeviriblər - filmlərdə, qəzetlərdə, jurnallarda, kitablarda, televiziya ekranlarında bunu daim təkrarlayır və bu yolla İslam barədə insanlarda mənfi fikir formalaşdırmağa çalışırlar. Bunu Fransa İslamofobiya ilə Mübarizə Dərnəyinin (CCIF) 2013-2014-cü illərə dair keçirdiyi "İslamofobiya hücumlarının səbəbi nədir" adlı anket-sorğunun nəticələri də təsdiq edir. Həmin sorğuya görə, anketə qatılanların yüzdə yetmiş səkkiz faizi islamofobiya hücumlarının səbəbini medianın tərəfli mövqe tutması ilə əlaqələndirir [13]. Bəzi qəzet və jurnallar isə zaman-zaman İslam əleyhinə yazılar hazırlamaqla və islamofobiya şüarları səsləndirməklə reytinqlərini qaldırmağa çalışırlar.

Bundan başqa, Avropanın bir sıra ölkələri İslam memarlığına olan qadağa, islami həyat tərzinə ikrah dolu münasibət, xüsusilə də İslam müqəddəslərinə qarşı təhqiramiz karikatura qalmaqalı ilə gündəmə daxil oldu. Məsələn, 2005-ci ildə Danimarkada "Jyllands-Posten" qəzetində Məhəmməd peyğəmbər (s) terrorçu kimi təqdim edən karikatura dərc edildi. Bundan dərhal sonra Fransa, Almaniya, Hollandiya, İtaliya və İspaniyanın bəzi qəzetləri də bu qeyri-etik əmələ dəstək əlaməti olaraq həmin karikaturanı yayımladılar. Həmçinin Fransanın "Charlie Hebdo" satirik jurnalı 2006, 2012 və 2015-ci illərdə Həzrət Məhəmmədlə (s) bağlı karikaturalar dərc etdi. 2012-ci ildə isə ABŞ-da İslam Peyğəmbərini (s) təhqir edən "Müsəlmanların məsumiyyəti" adlı film çəkildi, internet vasitəsilə yayımlandı və s.

XXI əsrin mediası forma baxımından dəyişərək onlayn (internet) və ya sosial mediaya çevrilib, əvvəlki mediadan ciddi şəkildə fərqlənməyə başlayıb. Hazırda sürətlə artan onlayn KİV-in milyonlarla oxucusu, sosial şəbəkələrin yüzmilyonlarla istifadəçisi vardır. Çünki internet informasiya yayımının ənənəvi şəbəkəsini dağıtdı və yeni trendlərini ortaya qoydu. Artıq hər bir şəxsin istədiyi məlumatı özü anladığı kimi yaymaq azadlığı peşəkar media ənənələrini zədələdi və onlayn media virtual internet alətləri sayəsində sosial ünsiyyət yaratmaq, məlumatları paylaşmaq vasitəsinə çevrildi. Odur ki, günümüzdə insanların böyük əksəriyyəti dini mənsubiyyətlərini və baxışlarını ifadə etmək üçün də sosial şəbəkələrdən geniş istifadə edirlər. Bunlar isə zərərli dini radikalizm meyillərinin təbliğində maraqlı olan pis niyyətli qüvvələr üçün sosial medianın əvəzsiz silaha çevrilməsindən xəbər verir. Əbəs yerə deyil ki, müasir terror təşkilatları fəaliyyətlərini məhz onlayn mediada aparır, gəncləri öz sıralarına cəlb etmək üçün sosial şəbəkələrdən istifadə edirlər. Məhz bu şəbəkələr vasitəsilə daha çox qorxu təlqin olunur, İslam ekstremizmi təhlükəsi mifi yaradılır və bunlar Qərb mediasına sözügedən mövzu ətrafında geniş manevr etmək imkanları yaradır. 2019-cu ilin martın 15-də Yeni

Zelandiyanın Kraystçerç şəhərindəki "Məscid ən-nur" və "Linvud" məscidlərinə edilən terror hücumu da illərdir İslam əleyhinə aparılan təbliğatın nəticələrindən biridir. Məlumatlara görə, bu iki məsciddə ölənlərin sayı 49-a çatıb [14]. Dəhşətlisi budur ki, müsəlman qətliamını törədən Brenton Tarrant öz qanlı aksiyasını "Facebook" sosial şəbəkəsi üzərindən canlı yayımlamışdı. "Bundan əvvəl isə terrorçu "Twitter" hesabında qətliamda istifadə etdiyi silahlardan birinin fotosunu paylaşmışdı. Silahın üzərində müsəlmanlara qarşı olan kəskin və təhdidedici qeydlər vardı. Qətliam baş verməmişdən əvvəl Tarrant "Twitter"-də müsəlmanlara qarşı 63 paylaşım etmiş və terror aktı törədəcəyinin anonsunu vermişdi. Brenton Tarrantın İslam əleyhinə aktiv fəaliyyət göstərdiyi əsas sosial şəbəkə vasitəsi isə "Politically incorrect" adlı internet saytı idi. Qətliam baş verən andan bir neçə saat əvvəl həmin sosial şəbəkədə "İşğalçılara (müsəlmanlara) hücum edib, "Facebook"-da canlı yayımlayacağam" mesajını paylaşmışdı [14]. Deməli, bütün bu sadalanan faktların müqabilində beynəlxalq aləmdə İslama və müsəlmanlara qarşı yer alan antiislam hərəkatının təməlində, eləcə də islamofobiyanın təbliği və əsasında Qərb mediasının durduğunu desək, heç də yanılmarıq. Əslində isə bu iyrənc əməllərin müsəlmanlarla və müqəddəs dinimizlə əlaqələndirilməsi qara piardır. Çünki İslam bəşəriyyətə sülh və əmin-amanlıq diləyən humanist dindir. Necə ki, müqəddəs Kitabımız Qurani-Kərimdə buyurulur: **"Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə gəlin!..."** [15, "əl-Bəqərə", 208].

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# ƏDƏBİYYAT


1. http://www.azadinform.az/news/a-159616.html
2. Гумилев Лев Николаевич. Ритмы Евразии: эпохи и цивилизации // М.: Прогресс: Фирма “Пангея”: Центр экол. просвещения и развития “Экопрос”, 1993.
3. Mirzəyev Sadiq. Terror, din və siyasət: ikili standartlar və reallıqlar// “Dövlət və Din” ictimai fikir toplusu// 2018, № 06 (59). s, 31-42. Bakı şəhəri, Əhməd Cavad küç., 16.
4. Kentel Ferhat. “İslamofobi” Vesilesiyle Türkiye’nin Fobilerine Bakmak”, İslamofobi Kolektif Bir Korkunun Anatomisi, Sivas Kemal İbn-i Hümam Vakfı Sempozyum Tebliğleri, 30 Nisan - 1 Mayıs 2010 Sivas, Ankamat Matbaacılık, Ankara, 2012.
5. Kirman Ali. “İslamofobinin Kökenleri: Batılı mı Doğulu?”, Journal of Islamic Research 2010; 21 (1).
6. Хантингтон Сэмюэль. Столкновение цивилизаций. М.: ООО “Издательство АСТ”, 2003.
7. Скворцев Л.В. Диалог или столкновение цивилизаций? // Глобализация. Конфликт или диалог цивилизаций? Москва, 2002.
8. Həbibbəyli Ərəstü. Sivilizasiyaların kəsişməsində türk dünyası. Bakı: “Elm və təhsil”, 2011.
9. Aktaş Murat. Avrupada yükselen İslamofobi ve medeniyyetler çatışması tezi. Ankara: Avrupa Çalışmaları Dergisi, Cilt:13, No:1, Yıl, 2014.
10. http://www.uluturk.info/new/menu/386/#
11. https://tvzvezda.ru/news/vstrane_i_mire/content/201804121527-at6j.htm
12. http://www.mondialisation.ca/la-fausse-guerre-dobama-contre-le-groupe-etat-islamique-protege-par-les-etats-unis-et-leurs-allies/5432512
13. https://www.timeturk.com/tr/makale/nevzat-cicek/fransa-saldirilarinin-avrupa-ve-muslumanlara-ogrettikleri.html
14. https://yenicag.az/facebook-muselman-qetliaminin-canli-yayimina-niye-icaze-verdi-sok-detallar/
15. Qurani-Kərim (Tərcümə: Z.Bünyadov, V.Məmmədəliyev). Bakı: “Azərnəşr”, 1991.

Ахлиман Рустамов

## АНТИИСЛАМСКОЕ ДВИЖЕНИЕ В ЗАПАДНОЙ МЕДИИ


### РЕЗЮМЕ

Медиа как составная часть политической системы, определяющая ее сущность, является эффективным средством в оказании серьезного влияния на состояние социума, манипулировании сознанием людей. С этой точки зрения, в современном мире, объявленной против исламской религии войне медиа превратилась в основное оружие определенных западных стран. Когда-то обучившаяся культуре у Востока, сегодня Запад с помощью медиа занята разрушением ценностей Ислама и мусульманского мира. Западные агрессивные органы СМИ заменили устоявшийся в Европе “Коммунистический кошмар” “Исламским кошмаром”, выпуская миллионными тиражами такие понятия как исламский терроризм, исламский фундаментализм и исламофобия. И это привело к возникновению в Западном обществе ненависти к Исламу и мусульманам, столкновению проживающих на Западе мусульман с такими случаями, как оскорбления и преследования, и искажению подлинной сущности Ислама. На самом же деле связывание этих отвратительных злодеяний с мусульманами и нашей священной религией является не чем иным, как черным пиаром. Так как Ислам – гуманитарная религия, желающая человечеству мир и безопасность.


Akhliman Rustamov

## ANTI-ISLAMIC MOVEMENT IN WESTERN MASS MEDIA


### SUMMARY

Mass media as an integral part of the political system defining its matter is an effective method in having a major impact on society’s state, manipulating people’s mind. From this point of view in today’s world mass media has become a main tool of some western countries that declared war against Islamic religion. At one time, West that learned culture from East is currently busy destroying values of Islam and Muslim world with the help of mass media. Western aggressive mass media bodies substituted well-established in Europe “Communist nightmare” with “Islamic nightmare” by producing such notions as Islamic terrorism, Islamic fundamentalism and Islamophobia in millions of copies. This has led to the rise of hatred for Islam and Muslims in Western society, confrontation of Muslims living in the West with such cases as offenses and chasings, and distortion of the true meaning of Islam. In fact, binding these disgusting atrocities with Muslims and our sacred religion is nothing other than a negative campaigning. Since Islam is a humanitarian religion standing for humanity peace and safety.

# ORTA ƏSRLƏR İSLAM ŞƏRQİNDƏ SOSİAL-FƏLSƏFİ İDEYALAR

***Osman HACIYEV,***
*Sumqayıt Dövlət Universitetinin*
*Fəlsəfə, sosiologiya və politologiya,*
*kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru*
*osmanhaciyev@mail.ru*

***AÇAR SÖZLƏR:*** *İslam Şərqi, Şərq peripatetizmi, sosial-fəlsəfi fikir, təbəqələşmə, sosial ədalət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Исламский Восток, восточный перипатетизм, социальная философская мысль, расслоение, социальная справедливость.*
***KEY WORDS:*** *Muslim East, Eastern peripatetism, sociol-philosophical thought, stratification, social justice.*

İnsan bir-birindən təcrid olunmuş halda deyil, mürəkkəb münasibətlər sistemində, cəmiyyətdə yaşayırlar. Cəmiyyət isə yekcins kütlə olmayıb, mürəkkəb iyerarxik quruluşa malik sistemdir. Cəmiyyətə dair sistemli biliklər hələ antik dövrdə - Platon və Aristotelin əsərlərində öz əksini tapmışdır. Orta əsrlərdə Qərbdə başqa sahələrdə olduğu kimi, cəmiyyətə münasibətdə də dini-idealist fikirlər hakim idi. Cəmiyyətin müxtəlif siniflərə parçalanmasının, sosial bərabərsizliyin əsl səbəbləri araşdırılmır, bunun ilahi iradənin nəticəsi olduğu qəbul edilirdi (A.Avqustin, A.Foma və b.). Orta əsrlərdə İslam Şərqində isə fəlsəfi fikir yüksək inkişaf etmişdir. Azərbaycan filosoflarının da daxil olduğu Şərq peripatetizminin və digər fəlsəfi cərəyanların nümayəndələri (Əbu Nəsr əl Fərabi, Saflıq qardaşları, İbn Sina, Bəhmənyar, Əbu Həfs Sührəvərdi, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi, Siracəddin Urməvi, Nəsirəddin Tusi, Əbu Hamid Qəzali, İbn Rüşd, İbn Xaldun və b.) öz əsərlərində fəlsəfənin müxtəlif sahələrinə, o cümlədən sosial fəlsəfəyə dair samballı elmi ideyalar irəli sürmüşlər.

Aristoteldən sonra "ikinci müəllim" fəxri adına layiq görülən Əbu Nəsr əl Fərabi sosial-fəlsəfi görüşlərində dövləti insanların öz ehtiyaclarını ödəməsi üçün zəruri birlik hesab etmiş və "Mərhəmətli şəhər sakinlərinin görüşləri haqqında" əsərində Platonun "ideal dövlət" təlimi ilə xilafətə dair ideyaları uzlaşdırmağa çalışmışdır. İctimai münasibətlər sistemində ədalət anlayışına önəm verən mütəfəkkir dövləti idarə edən hökmdarın əsas əlamətləri sırasında bunu xüsusi vurğulamışdır [1, s.79]. Antik filosoflar kimi, əl Fərabi də cəmiyyətin müxtəlif təbəqə və siniflərə ayrılmasını təbii hesab edirdi. O, cəmiyyətdə müdrik insanlar, din adamları, şairlər, musiqiçilər, hərbçilər, əkinçilər, maldarlar, tacirlər, varlı adamlar siniflərinə ayırırdı [2, s.105]. Əbu Nəsr əl-Fərabi insanların təbiətən fərqli olduqlarını qəbul etməsinə baxmayaraq, istehsal olunan maddi nemətlərin onlar arasında düzgün bölüşdürülməsi prinsipinin müəyyənləşdirilməsini vacib hesab etmiş və bu kontekstdə sosial ədalət anlayışına öz münasibətini bildirmişdir.

İbn Sina da dövləti idarə edən hökmdarın özünü daim təkmilləşdirməsi ilə yanaşı üstün

əlamətlərə malik olmasını vacib sayırdı. İnsanı yaradılmışların əşrəfi hesab edən filosof yazırdı: “Ağılsız var-dövlət sahibi ədəbdən məhrumdur. O yəqin edir ki, tapdığı var-dövlət olmayan ağlı əvəz edir. Azacıq yemək faydası gətirən sənətin sahibi isə nə geniş hakimiyyət sahibinə, nə də uzanıb gedən mülk sahibinə qibtə edir” [3, s.107]. Göründüyü kimi, İbn Sina insanların istər sərvət, var-dövlət baxımından, istərsə də, bütövlükdə hərəkətlərinin seçimində orta yol tutmasını vacib hesab etmişdir. Mütəfəkkir insanların təfavütlü (maddi) və fəzilətli (mənəvi) həyatını ilahi ədalət prinsipinə uyğunluğunun zəruriliyini göstərmişdir.

Orta əsrlərdə üzvləri müxtəlif ölkələrdə, o cümlədən Azərbaycanda gizli fəaliyyət göstərmiş “Saflıq qardaşları” cəmiyyəti “Saflıq qardaşları və vəfa munisləri” ensiklopediyasında “İnsanın qarşılıqlı yardıma ehtiyacı” adlı fəsildə ictimai məsələlərə dair öz fikrini irəli sürmüşdülər. Burada ictimai əmək bölgüsü və qarşılıqlı yardıma diqqət çəkən “Saflıq qardaşları” yazırdılar: “Vahid insan təkbaşına yalnız çətin güzəranla yaşaya bilər. Çünki o, müxtəlif istehsalların yerinə yetirilməsində olan yaxşı yaşayışa möhtacdır. Vahid insanın bunların hamısına çatması mümkün deyildir. Çünki ömür qısa, istehsal sahələri çoxdur” [4, s.51]. İctimai əmək bölgüsünün cəmiyyət üçün faydasından bəhs olunduğu bu müddəa sonrakı elmi araşdırmalarda böyük rol oynamışdır.

Azərbaycanlı peripatetik filosof Bəhmənyar cəmiyyətdə insanların öz nəfsini cilovlamasını vacib sayırdı. Zakir Məmmədov yazır ki, Bəhmənyarın nəzərində var-dövlətə həris olan şəxsin hikmət elmi olsa da, hikmət zövqü yoxdur. Belə ki, “kamil insanda əqli həzz hissi həzdən güclüdür, daha doğrusu, həqiqi həzz əqli həzdir. Zira əqli həzlər dərdin təqib etmədiyi şəfadır, xəstəliyin yaxın düşmədiyi sağlamlıqdır” [4, s.105]. Bütün sərvətlərlə müqayisədə əqlə üstünlük verən Bəhmənyar insanın bütün həyati fəaliyyətində bu amili ön plana çəkirdi. O, nəfsi bəsit hesab edir və bildirirdi ki, insanın bu cılız hisslərdən azad olması onun kamilləşməsi yolu ilə aradan qaldırıla bilər. Beləliklə, kamil insan prinsipindən çıxış edərək fərddən topluma qədər yüksəlməni qəbul edən İslam fəlsəfəsinin bu xüsusiyyətini Bəhmənyarın fəlsəfəsində də görə bilirik.

Siracəddin Urməvi öz təlimində ailədə, cəmiyyətdə, ictimai-siyasi həyatda insanın mövqeyi, dövlət idarəçiliyi, hökmdarın xüsusiyyətləri, mülkiyyət münasibətləri, cəmiyyətin təbəqələrə bölünməsi, sinfi quruluşu, sosial ədalət, hüquq bərabərliyi məsələləri də daxil olmaqla, bir çox sosial fəlsəfi problemə geniş yer vermişdir. FİlosofUn bütün əsərlərində İslamın mahiyyətindən irəli gələn insana yüksək dəyərin verilməsi hiss olunur. Mülkiyyətin iki-ümumi və xüsusi növə ayıran S.Urməvi göstərir ki, “onlardan biri heç vaxt heç kəsə məxsus olmayan su, bitki, çöl ovu, dəniz ovu və buna bənzər mülkiyyətdir, digəri isə odur ki, şəxslərdən kiməsə məxsusdur [4, s.207]. Beləliklə, o, insanlar arasındakı təfriqələri sonuncu mülkiyyət forması ilə izah edirdi. Peripatetik filosof cəmiyyəti müxtəlif təbəqələrə bölür və onu insan orqanizmi ilə müqayisə edərək üzvi vəhdətin vacib olduğunu “bil ki, başçının rəiyyətə nisbəti başın bədənə nisbəti kimidir” ifadəsi ilə göstərirdi. S.Urməvi cəmiyyəti maddi nemətlərlə təmin edən rəiyyətə önəm verir, onları dövlətin əsas dayağı hesab edirdi. Filosofun ictimai ədalət anlayışında rəiyyətin qayğısına qalmaq ən vacib yeri tutur. Cəmiyyətdə insanların yuxarı, orta və aşağı təbəqələrə bölündüyünü qəbul edən S.Urməvinin “rəiyyətlər kateqoriyasına sadə zəhmətkeş xalq kütləsi ilə yanaşı, qalan bütün təbəələr daxil edilir və onlar ara mərhələlər sayılır” [4, s.209] müddəasından

göründüyü kimi, o, orta təbəqələri ara mərhələlər adlandırır və rəiyyətin bir hissəsi hesab edirdi.

Digər azərbaycanlı peripatetik filosof Nəsirəddin Tusi ictimai fikirlərində əmək, ailə, cəmiyyətin sinfi quruluşu, dövlət, siyasət, sosial ədalət məsələlərinə diqqət yetirmişdir. İctimai əməyi cəmiyyətin inkişafının əsasında duran amil kimi nəzərdən keçirən filosof yazırdı: "Dünyanın intizamı, məişətin nizamı əməklə hasilə gəldiyindən, insan növü isə köməksiz yaşaya bilmədiyindən, əmək köməksiz, kömək isə ictimai birliksiz ola bilməz" [4, s.236]. N.Tusinin sosial fəlsəfəsində diqqət çəkən digər mühüm amil həm də orta əsrlər dövrü üçün yenilik sayılacaq dövlətin təşkilində dünyəviliyə üstünlük verilməsi ideyasıdır. Filosofa görə, "din və ölkədarlıq (dövlət) iki sirdaşdır, birinin tamamlığı digərindən asılıdır. Din qaydadır, dövlət onun sütunları; bünövrə sütunlarsız zay olduğu kimi, sütunlar da bünövrəsiz dura bilməz" [4, s.237]. Göründüyü kimi, N.Tusi bu məsələdə dinin və dövlətin roluna özünəməxsus münasibət bildirir. O, cəmiyyətdə alimlər, hərbçilər, kəndlilər, sənətkarlar, tacirlər kimi müxtəlif sinifləri fərqləndirir və sosial ədalət anlayışını onlar arasındakı bölgü münasibətlərinin düzgün qurulması ilə izah edirdi. Mütəfəkkirin fikrincə, bunun həyata keçirilməsi yalnız fəzilətli siyasətlə mümkündür. Naqis siyasətdən fərqli olaraq, fəzilətli siyasətin məqsədi xalqı kamilləşdirmək, onu səadətə çatdırmaq, ədaləti təbliğ etməkdir.

N.Tusi ədalət, namus, əməksevərlik xüsusiyyətlərini yüksək dəyərləndirir və insanın öz həyatını bu istiqamətdə qurmalı olduğunu vurğulayırdı. O, "Əxlaqi Nasiri" əsərində yazırdı: "Bilmək lazımdır ki, insan üçün xoş güzərandan daha gözəl heç bir şey ola bilməz, bunun ən şərəfli vasitəsi isə ədalətli, iffətli, mürüvvətli, insaflı, namuslu əmək və sənətdir, bu isə öz növbəsində höccətçilik, tamahkarlıq, səhlənkarlıq, tənbəllik, süründürməçilik və bu kimi nalayiq işlərdən əl çəkmədən mümkün deyildir" [5, s.160].

N.Tusi bütün sahələrdə "qızıl orta" prinsipinin tərəfdarı idi. O yazır: "Hər şəraitdə orta hədd mühafizə edilə bilsə, insan tənə vuranların tənəsindən, qeybət qıranların qeybətindən xilas olar. Bunun səbəbi odur ki, əksər təbiətdə insaf və ədalət az; paxıllıq, həsəd, küdurət isə çoxdur" [5, s.162].

Əbu Həfs Sührəvərdi, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi kimi orta əsr dövrünün azərbaycanlı peripatetik filosofları dövlət, sosial bərabərlik, ədalətə dair öz ideyalarını irəli sürmüş, insanları kamillik, mənəvi yüksəlişə çağırmış, zülmə və ədalətsizliyə qarşı çıxış etmişlər.

Elmlərin təsnifatında siyasətə ayrıca yer verən Əbu Hamid Qəzali bu fəaliyyət sahəsini əxlaqdan kənar təsəvvür etmirdi. O, insanların cəmiyyətdə firavanlığını təmin etmək üçün hüquq sistemi və dövlətin mövcudluğunu vacib hesab edirdi. Dövlətə başçılıq edən hökmdarın həm şəxsi, həm də idarəetmə qabiliyyətinə dair kifayət qədər yüksək tələblər irəli sürən Əbu Hamid Qəzali bildirirdi ki, "hökmdar ədalətlidirsə, o, yer üzündə Allahın, əks təqdirdə isə şeytanın vəkilidir" [1, s.119].

Kordovalı peripatetik filosof İbn Rüşdün sosial fəlsəfəsində "ideal dövlət" modeli və insanların zümrələrə ayrılması məsələsində Platonun təsiri hiss olunmasına baxmayaraq, bu barədə onun orijinal fikirləri də vardır. Məsələn, İbn Rüşdün "kamil dövlət"ində qadınların yerinə dair fikirlər diqqət çəkir. O göstərir ki, "müsəlman cəmiyyətində qadınların məharəti gizlində saxlanılır, onları yalnız uşaq dünyaya gətirmək üçün alırlar. Onlar ancaq öz ərlərinin

qulluğunda durmalıdırlar” [1, s.102]. Bu halı məqbul hesab etməyən İbn Rüşd hərbi işdə iştirakdan tutmuş, cəmiyyətin müxtəlif sahələrində qadınların fəal roluna dair İslam aləmi üçün yenilik sayılacaq ideyalarla çıxış etmişdir. Filosof cəmiyyətin bütün sahələrində, o cümlədən dövlətin idarə olunmasında əxlaqi prinsiplərə üstünlük verilməsinin tərəfdarı idi. Dövlətə başçılıq edəcək hökmdarın xalq içərisindən seçilməklə yüksək mənəvi keyfiyyətlərə - əxlaqlı, ləyaqətli, bilikli, qanuna meyilli olmasını vacib hesab edirdi. İbn Rüşdün ən əhəmiyyətli və o dövr üçün cəsarət tələb edən fikirlərindən biri də “Təkzibin təkzibi” əsərində dini hakimiyyəti qəbul etməməsi, ruhanilərin istibdadını dövləti məhvə aparan yol adlandırması və dünyəvi hökmdar tərəfdarı olması idi.

Cəmiyyəti tarixi inkişaf nöqteyi nəzərindən təhlil edən İbn Xaldun dövlətin meydana gəlməsi, siyasi həyatın inkişafı, mülkiyyət, dövlət və hakimiyyət, dövlət və cəmiyyət münasibətlərinə dair mühüm ideyalarla özündən sonra istər Şərq, istərsə də Qərb sosial fəlsəfi fikrinə mühüm təsir göstərmişdir. XIV əsrdə yaşamış ərəb filosofu təkcə Şərqdə deyil, dünya sosial-siyasi fikir tarixində də özünəməxsus orijinal ideyaları ilə yadda qalan mütəfəkkirlərdən hesab olunur. İbn Xəldun cəmiyyətin ümumi inkişaf qanunauyğunluqları, tarix fəlsəfəsi, coğrafi determinizmə dair ideyaları ilə Monteskyö, Russo, Hegel, Kant, Marks, Toynbi kimi Qərb filosoflarını əsrlərlə qabaqlamışdır. İctimai həyatı insanlar üçün zərurət sayan İbn Xəldun cəmiyyəti bütöv sosial orqanizm kimi qəbul edirdi. O, insan tələbatlarını ictimai inkişafın əsas hərəkətverici qüvvəsi hesab etməklə tarixi determinizm ideyasına gəlib çıxır. Xatırladaq ki, tarixi determinizm təlimi sonradan - XIX əsrdə K.Marks tərəfindən geniş işlənmişdir. İbn Xəldun cəmiyyətdə ictimai əmək bölgüsü haqqında ideyaları inkişaf etdirmişdir. O yazır: “Allah insanı öz qidasını əldə edə biləcək bir gücdə yaratmışdır. Lakin bir adam təkbaşına möhtac olduğu qidanı təmin etməyə qadir deyil. Bu qida maddəsinin minimal həddini, məsələn, bir adamın bir gün yaşaması üçün lazım olan buğdanı götürsək, buğdadan un, undan xəmir, xəmirdən isə çörək hazırlamaq zərurəti var. Bu üç işin hər birini həyata keçirmək üçün qab, alət və səbətlərə ehtiyac var. Bunlar dəmirçi, dülgər və dulusçu tərəfindən həyata keçirilir” [6, s.23]. Göründüyü kimi, filosof cəmiyyətdə müxtəlif siniflərin mövcudluğunu ictimai əmək bölgüsündən irəli gələn təbii prosesin nəticəsi hesab edirdi. İbn Xəldunun bu fikirləri antik filosof Platonun ideyaları ilə yaxınlıq təşkil edir. Sosial bərabərsizliyin ictimai əmək bölgüsünün nəticəsi olduğunu göstərən Platon cəmiyyətdə müxtəlif siniflərin mövcudluğunu bununla izah edirdi. Belə ki, o, “Dövlət” əsərində yazırdı: “İlk və ən böyük tələbat - var olmaq, yaşamaq üçün qida əldə etməkdir. İkincisi, mənzil, üçüncüsü isə paltar və s. tələbatlardır. İnsanların bu tələbatları təmin etməsi üçün kimsə əkinçi, başqası inşaatçı, bir başqası toxucu olmalıdır. Bunlara çəkməçini və bizim cismani ehtiyaclarımıza xidmət edən başqalarını da əlavə edə bilərik” [7, s.77]. Platonun bu bölgüsü müasir dövr üçün də aktualdır. O vaxtdan keçən müddət ərzində insanların tələbat sistemində və sosial peşə strukturunda köklü dəyişikliklər baş versə də, cəmiyyətdə ictimai əmək bölgüsünün sinifyaradıcı mahiyyəti dəyişməz qalmışdır.

İbn Xəldun dövlətin insanların birgəyaşayış zərurətindən meydana gəldiyini bildirərək onu insan ömrü ilə müqayisə etmişdir. Bu baxımdan o, dövlətin də öz inkişafında bir neçə mərhələdən keçməsi haqqında maraqlı fikirlər irəli sürmüşdür. İnsanlar arasındakı sosial bərabərlik münasibətlərinə toxunan İbn Xəldun bildirirdi ki, bu hal ilkin “Asabiyyə” (köçərilik,

bədəvilik dövrü) cəmiyyətinə xasdır. Asabiyyətdən şəhər həyatına – Mədinəyə keçid prosesində bərabərlik pozulur, dövlət meydana gəlir. Dövlətin və hakimiyətin əsas funksiyası isə xüsusi mülkiyyəti qorumaqdan ibarətdir [1, s.143].

Beləliklə, Platon və Aristotelin təsirilə inkişaf edən Şərq peripatetizminə, həmçinin bütövlükdə orta əsr İslam fəlsəfəsinə əsasən inkişaf etmiş cəmiyyətə nail olmağın təməlində isə ilk növbədə insanın yüksək mənəvi keyfiyyətləri (ədalət, məhəbbət, kamilləşmək, mənəvi yüksəliş, ali səadətə, xoşbəxtliyə can atmaq və s.) dayanır. İnsanın xarici aləminə yönələn Qərb fəlsəfəsindən fərqli olaraq, Şərq fəlsəfəsi, xüsusilə İslam fəlsəfəsi insanın daxili mənəvi aləminin zənginliyini böyük inkişafın başlanğıcı kimi qəbul edir.

## ƏDƏBİYYAT


1. İmanov H., Əhədov A. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı: Ülvi-Həyat, 2008, 210 s.
2. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 625 s.
3. Məmmədov Z. Şərq fəlsəfəsi. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, 304 s.
4. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: Şərq-Qərb, 2006, 328 s.
5. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı: Lider nəşriyyatı, 2005, 279 s.
6. İbn Xaldun. İnsanların cəmiyyətlər şəklində yaşamaları haqqında (Tərcümə) // Fəlsəfə və sosial-siyasi elmlər, Bakı, 2009, № 2, s.23-26
7. Platon. Dövlət. Bakı: Təbib, 1999, 358 s.

Осман Гаджиев

## СОЦИАЛЬНО – ФИЛОСОФСКИЕ ИДЕИ НА ИСЛАМСКОМ ВОСТОКЕ В СРЕДНИЕ ВЕКА

### РЕЗЮМЕ

В статье исследуется социально философская мысль на средневековом исламском Востоке. Здесь рассматриваются взгляды на социальную структуру и отношения между слоями общества, на развитие политической жизни, на восточный перипатетизм в вопросах собственности. В заключение делается вывод о том, что в средние века на мусульманском Востоке существовали множества взглядов, среди которых встречаются научные идеи, касающиеся всех сфер общества.

Osman Hajiyev

## SOCIAL – PHILOSOPHICAL IDEAS IN THE MEDIEVAL MUSLIM EAST

### SUMMARY

Social-philosophical ideas in the Medieval Muslim East are investigated in this article. The social structure of society, inter-layers relations, development of political life, views of Eastern peripatetism on property issues and views of other philosophical movements are analyzed. The article concludes that there was a wide diversity of opinions in the Middle Ages Muslim East and enough scientific ideas on all aspects of society were encountered.

# ŞİMALİ AFRİKA ÖLKƏLƏRİNDƏ XƏLVƏTİLİK

***Əminə ƏLİYEVA,***
*Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun doktorantı,*
*aminaliyeva@mail.ru*

***AÇAR SÖZLƏR:*** *xəlvətiyyə, məğrib, Osmanlı imperiyası, sufi düşüncəsi, ticaniyyə.*
***KEY WORDS:*** *Khalvatiya, maghreb, Ottoman Empire, Sufi ideas, Tijaniyyah.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Халватия, Североафриканские страны, Османская империя, суфийские идеи, тиджания.*

Xəlvətilik təriqəti İslam coğrafiyasında yayıldıqdan sonra qısa müddətdə Şimali Afrika ölkələrində aparıcı süfi təriqətinə çevrilmişdir. Əlbəttə, xəlvətiliyin belə geniş yayılmasının, uzaq Azərbaycanda, o cümlədən Şirvanda yaranmış sufi ideyasının məğrib ölkələrində populyarlıq qazanmasının sosioloji, ideoloji, tarixi səbəbləri mövcuddur. İlk növbədə, qeyd edilməlidir ki, xəlvətilik əsas etibarilə Osmanlı imperiyası daxilində, eyni zamanda bu imperiyanın fəth etdiyi ərazilərdə yayılaraq, bir növ, Osmanlı hakimiyyətinin ideoloji qanadı funksiyasını yerinə yetirirdi [1].

Sufi ideyalarının ərəb dünyasında, Afrikada və Asiyada yayılması mərkəzi olmaqla yanaşı, mədəniyyətlərin dialoquna təkan verməklə dünyada sülhün qorunmasına xidmət etmişdir. Tədqiqatçı Raçida Çih bu haqda qeydlərində yazır ki, Şərqi Avropanın Osmanlı imperiyası tərəfindən istilasından sonra ticarət yollarının açılması nəticəsində ilk dəfə olaraq Avropanı bütün dünya ilə birləşdirdi [2, s.3].

Bu istilalar sufilərin həyatına xeyli yenilik gətirdi. İlk növbədə, böyük ticarət yollarının təhlükəsizliyi, ələlxüsus da ziyarətgahlara aparan yolların səyahət üçün təhlükəsiz olması mədəniyyətlərin təması üçün geniş üfüqlər açdı [3, s.67].

Məhz bu dövrdə, əsasən, sufilərdən və üləmadan ibarət olan, müqəddəs şəhərlərdə təhsil almaq istəyən zəvvarların sayı həddindən ziyadə artmışdı. Təkcə 1579-1580-ci illərdə Osmanlı dövləti Mədinədə təhsil almaq istəyində olan 8.000 nəfərə maliyyə dəstəyi vermişdi. Bu görüşlərdən və mədəniyyətlərin dialoqundan yaranmış təəssüratlar öz əksini səyahətlər haqqındakı müxtəlif hekayələrdə tapmışdır [4, s.372].

Seyid Yəhya Bakuvinin əsasını qoyduğu xəlvətilik təriqəti bu gün Misirdə və Əlcəzairdə çox böyük əhəmiyyətə malikdir. Misirdə bu təriqətin təməli XV əsrin sonlarından etibarən Anadoludan gəlmiş sufilər tərəfindən qoyulmuşdur. Təriqətin yayılmasının I mərhələsi 1517-ci ildə Osmanlı dövlətinin Misiri fəth etməsindən sonra başlamışdır. O zamanlar xəlvətilik Qahirənin fars-türk əsilli qruplarına məxsus idi. XVIII – XIX əsrə əhatə edən II mərhələ isə Suriya ilə əlaqədardır. Bu mərhələ Qahirədəki "əzhari" adlanan qrupun fəaliyyətini ehtiva etmiş və tədricən bütün ölkəyə, xüsusən də Nil vadisinə yayılmışdır. Həmin dövrdə Balkanlarda və

Anadoluda zəifləyən təriqət ərəb dünyasında yenidən geniş vüsət almağa başlamış, beləliklə, Azərbaycanda təşəkkül tapmış xəlvətilik Osmanlı dövlətinin nəhəng ərazisinə daxil olan Misirdə də böyük təriqətə çevrilmişdir.

Məlumdur ki, müqəddəs yerləri ziyarətə gedən müsəlmanlardan ibarət karvanlar, əsasən, Qahirə və Dəməşqdə toplaşırdılar. Bu səbəbdən həmin şəhərlər yalnız tarixi və mədəni əhəmiyyətə malik deyildi, eyni zamanda sivilizasiyaların qovuşduğu məkan kimi böyük əhəmiyyət daşıyırdı. Osmanlı imperiyası tərəfindən fəth edildikdən sonra Misir Türkiyədən idxal olunmuş sufi ideyaları ilə nəzərəçarpacaq dərəcədə zənginləşdi. O dövrdə Misirdə yalnız xəlvətiliyin çoxsaylı qolları mövcud idi. Övliya Çələbinin[1] yazdığına görə, həmin qollar aşağıdakılar idi: 1) Mübahiddiyyə; 2) Üveysiyyə; 3) Şəmsiyyə; 4) Uşakkiyyə; 5) Sinaniyyə; 6) Hifniyyə; 7) Dəmirdaşiyə; 8) Gülşəniyyə.

İstanbuldan göndərilmiş mühafizəçilər Misirin hakimi Paşanın sarayının həyatində xeyli sufi, təhsil alan tələbə və Qahirədə tədqiqatlarla məşğul olan alimlə üzləşmişdilər. Qahirə Anadoludan və Diyarbəkirdən gəlmiş türk tələbələrin təhsil mərkəzinə çevirilmişdi [5 s.59-60].

Taşköprüzadə (1651) yazır ki, XIV əsrdən etibarən məşhur şeyxlərdən dərs almaq üçün çoxsaylı türk tələbə Qahirəyə gəlmişdi. Nümunə kimi, imperiyanın birinci şeyxülislamı Molla Şəmsəddin Məhəmməd Fənarinin (1431), şair Əhmədinin (1413) və həkim Hacı Paşanın (1420) hələ Anadolu islahatlarından əvvəl Qahirəyə gəlmələrini göstərmək olar [6, s.7].

Bunlardan xəlvətiyyə ardıcılları, zaviyyəsi Qahirənin əl-Abbasiyə məhəlləsində yerləşən şeyx Məhəmməd Temirtaş əl-Məhəmmədini (1524-cü ildə vəfat etmişdir), vəhdəti-vücud və kamil insan (*al-insan al-kamil*) təliminin inkişafında misilsiz rolu olmuş gülşəniyyə təriqətinin banisi İbrahim Gülşənini (1534-cü ildə vəfat etmişdir) və Şahin Məhəmməd əl-Xəlvətini (1548-cü ildə vəfat etmişdir) göstərmək mümkündür.

Anadoludan və Balkanlardan gəlmiş sufilər arasında böyük nüfuza malik olan Niyazi Misri (1694-cü ildə vəfat etmişdir) və Hacı Baba əl-Misri (1718-cü ildə vəfat etmişdir) Misirə XVII əsrdə gəlmişlər.

Osmanlı imperiyasında əhalinin savadlılıq səviyyəsinə və bu məsələdə sufiliyin oynadığı rola nəzər salmaq bu cərəyanın yayılmasına gətirib çıxaran sosial-iqtisadi amilləri daha yaxşı başa düşməyə imkan verir. Məsələn, həmin dövrdə Misirdə kişilərin 20%-i yazıb-oxumağı bacarırdı. Bu isə sufizmlə məşğul olmaq istəyənlər üçün əlverişli zəmin yaradırdı [7, s.120]. Quranla yanaşı, digər çoxsaylı əlyazmaların nəşrinə başlamış Misir bu işdən xeyli mənfəət əldə edə bilmişdi. Qeyd edilməlidir ki, misirlilər osmanlılardan Quranın Asim qiraətinin Həfs rəvayətinə görə oxunmasını əxz etmişdilər. Buna qədər isə məmlüklər dövründəki Misirdə

---

1 Övliyya Çələbi 1611-ci ildə İstanbulda anadan olmuş, Osmanlı imperiyası da daxil olmaqla bəzi qonşu regionlara da səyahət etmiş və 1685-ci ildə Misirdə vəfat etmişdir. O, Osmanlı imperiyasına və qonşu vilayətlərə uzunmüddətli səfərlər etmiş və bu səyahətləri haqqında özünün "Səyahətnamə" kitabında ətraflı yazmışdır. Odur ki, "Səyahətnamə" İslam dünyası ədəbiyyatının ən ətraflı səyahət kitabı hesab olunur. Kitab XVII əsrin ortaları Osmanlı dünyasının geniş panoramik təsviri və Osmanlı imperiyasının sosial-mədəni həyatı haqqında təəssürat yaratmaq üçün unikal mənbədir. Övliya Çələbi kitabında Osmanlı imperiyasında fəaliyyət göstərmiş bir çox sufi ordenini də təsvir etmişdir. Bu sırada o, mühüm sufi hərəkatı xəlvətiliyi də qeyd edir. O, səyahətlər zamanı ziyarət etdiyi zaviyələri təsvir edir, nəinki görüşdüyü şəxsiyyətlər (xəlvəti dərvişlər və şeyxlər), həm də tikililər (təkyə və zaviyələr) və xəlvətiliyin tarixi haqqında yazır. Ö.Çələbi ordenin 24 görkəmli şəxsiyyətini və Osmanlı imperiyasındakı 43 xəlvətilik təkyəsi barədə məlumat verir, Seyid Yəhya Şirvanini hərəkatın banisi kimi qeyd edir. Ö.Çələbi 1685-ci ildə Misirdə vəfat etmişdir.

Quranın oxunmasında digər qiraətlərdən istifadə olunurdu. Misirlilər, həmçinin xəttatlıq qaydalarında da Osmanlı modelindən istifadə edirdilər, çünki xəttatlar əsasən sufi türklərdən ibarət idi.

Öz təlimlərini yaymaq məqsədilə qələmə alan Osmanlı imperiyası dövrünün sufiləri ərəb, fars və türk dillərində yazmağa üstünlük verirdilər [8, s.59-60]. Anadolu kitabxanalarında və sufi təkkələrində külli miqdarda irandilli poetik ədəbiyyat olduğu halda, Misirdə yalnız azsaylı savadlı elita fars dili ilə tanış idi. Misirin ərəb əyalətlərində türk dili geniş yayılmışdı. Mədəni mənada Türkiyəyə daha yaxın olan Suriyada ərəb dili ilə yanaşı, türk dilinin də istifadə edilməsi təhsil görmüş şəxslərə idarəetmə aparatında və Osmanlı ordusunda vəzifə tutmaq imkanı verirdi. Beləliklə, sufi təriqətləri, o cümlədən də xəlvətiyyə təriqəti Osmanlı imperiyasının tərkibində olan Misir və Suriya kimi ölkələrdə özünə sosial dayaqlar əldə edə bilirdi. Bütün bu sadalanan faktorlar Misirin xəlvətiliyin məğrib ölkələrinə yayılması üçün qapı rolu oynadığını göstərir. Sonrakı dövrlərdə xəlvətiyyə Misirdən başlayaraq Şimali Afrikaya, eləcə də Afrikanın mərkəzi regionlarına, hətta Kameruna qədər yayıla bilmişdir [9, s.69-72].

Kamerunda XX əsrin əvvəllərində sultan İbrahim Njoyya tərəfindən qəbul edilmiş sufiliyin ticaniyyə qolu günümüzdə ən geniş yayılmış və tətbiq olunan təlimdir. Maraqlıdır ki, bu ölkənin ticaniyyə təriqəti vasitəsilə islamlaşdırılması məhz Bamuna kral sülaləsinin 17-ci nümayəndəsi olmuş, 1887-1933 illərdə ölkəni idarə etmiş, İbrahim Njoyya tərəfindən həyata keçirilmişdir. Bu baxımdan Kamerunun ticaniyyə vasitəsilə islamlaşdırılması faktı kifayət qədər maraqlıdır. Müasir dövrdə bu ölkənin əhalisinin 95 faizinin ticaniyyə təriqətinə mənsub olması və özünün də xəlvətiliyin tərkib hissəsi, daha doğrusu, əsas qollarından biri olması, ilk növbədə, azərbaycanlı alim və tədqiqatçılar üçün böyük maraq doğurur.

Müasir dövrdə də sufi təriqətləri məğrib ölkələrinin ictimai-siyasi və mədəni həyatında olduqca böyük rola malikdirlər. Bu spesifik rolun səbəblərini başa düşmək heç də çətin deyildir, çünki Şimali Afrika ölkələrinin məişətində, mədəni həyatında, eləcə də ictimai və siyasi həyatının müəyyən aspektlərində orta əsrlərə məxsus elementlər hələ də müşahidə edilməkdədir. Həmçinin İslam dininin güclü təsiri bu dinin prinsipləri əsasında formalaşmış xəlvətiliyin də təsir imkanlarının əvvəlki kimi qalmasını təmin edir. Bu baxımdan cəmiyyətin strukturu, onun inkişaf tempi, təhsil səviyyəsi, həmçinin qədimdən gələn ənənələr və dini inanclara dərin bağlılıq sufi təriqətlərinin hələ də öz təsir gücünü qoruyub saxlamasını təmin edən əsas amillər sırasında göstərilə bilər.

Belə ki, Əlcəzair və Misir kimi ölkələrdə sufi təriqətlərinin ictimai-siyasi həyata təsir imkanlarının böyüklüyü danılmaz faktdır. Lakin bu təsir digər Afrika ölkələrində də özünü göstərməkdədir [10, s.17]. Hətta məğrib ölkələrinə aid edilməyən bir sıra dövlətlərdə də təsəvvüf ideyalarının geniş yayılması diqqəti cəlb edir. 350 milyon nəfərdən çox tərəfdara malik ticaniyyə təriqətini bir sıra Afrika ölkələrindəki nüfuzu olduqca böyükdür. Sudan, Tunis, Seneqal, Kamerun kimi ölkələrdə, o cümlədən Böyük Səhrada geniş yayılan bu təriqətlər onların siyasi və ictimai həyatını formalaşdıran ən böyük təşkilatlardır. Xəlvətiliyin geniş yayıldığı məğrib ölkələrindən olan Əlcəzairdə 300-dən artıq zaviyə mövcuddur. Müasir dövrdə məğrib ölkələrində sufi təriqətlərinin təşkilatlanması prosesi davam etməkdədir. Sufizmin ən geniş yayıldığı Misir buna bariz nümunədir. Qeyri-rəsmi məlumata görə, bu ölkədə 120 qardaşlıqda

toplaşmış sufilərin sayı 6 milyondan çoxdur. Başqa sözlə, ölkənin kişi əhalisinin əhəmiyyətli hissəsi bu və ya digər şəkildə sufiliklə əlaqədədir. Qadınların isə qardaşlığa daxil olmasına icazə verilmir. Əgər bu şəxslərin öz ailələrinə, iş yerlərinə, orduya təsirini nəzərə alsaq, əminliklə deyə bilərik ki, sufilik Misirdə heç də kiçik qüvvə deyil [11]. Ölkənin Vəqf Nazirliyinin məlumatına görə, burada hər il müqəddəslərin, Məhəmməd peyğəmbərin (s) ailəsinin nümayəndələrinin və məşhur sufilərin 40-dan çox mövlud mərasimi keçirilir. Bəzi mənbələrdə il ərzində 120-dən çox mövlud mərasiminin olduğu göstərilir, başqa sözlə, hər aya 10-dan çox mövlud mərasimi düşür [12, s,41-50].

Xəlvətilik təriqətinin geniş yayıldığı məğrib ölkələrindən biri də Əlcəzairdir və burada təsəvvüfün tarixi İslamın yayıldığı ilk dövrlərə gedib çıxır. O zaman Peyğəmbərin (s) xələfləri Əməvilərin və Abbasilərin təqiblərindən yaxa qurtarmaq üçün, əsasən, 680-ci il Kərbəla qətliamından və 762-ci il Fəx dramından sonra məğribi sığınacaq kimi seçdilər. Həmin vaxtdan Əlcəzair torpaqları Əhli-Beyt ailəsi tərəfindən "qəbul torpağı və inam yeri" adlandırılmışdır[13, s.4].

Məlumdur ki, Əlcəzair ərazisində Fatimilərin çoxşaxəli qolları inkişaf etmişdir. Bərbərlər "ənsarlar"ın və Əhli-Beytin tərəfdarları idilər. Malikilərin Əlcəzairdəki rəhbəri Əli bin Haşləf X əsrin əvvəllərində deyirdi: "Allahın Elçisinin belə buyurduğunu eşitmişdim: "Mənim Mədinədə tərəfdarlarım var... Ey Fatimə, Allah bərbərlərin ürəyinə mənim övladlarıma qarşı məhəbbət və mərhəmət salmışdır. Bərbərlər arasında elələri tapılacaq ki, onlar qiyamət gününə qədər tam əminliklə əsl dinə riayət edəcəklər" [13, s.6].

Əlcəzair mənəviyyatında dolaşan bu səhnə Xeyrin Şər üzərində elə bir qələbəsinə səsləyir ki, itirilmiş Cənnət elə burada və bu dəqiqə bərpa oluna bilsin. Fiziki təmizliyin rəmzləri və Peyğəmbərin (s) müqəddəs ailəsinə xas olan mənəvi keyfiyyətlər bu böyük şəxsiyyəti sufilərin gözündə təqlid edilməli olan modelə və ilham mənbəyinə çevirdi. Həmçinin sufi yolunun müəllimləri Həzrət Fatimənin (ə) nəslindən olan müqəddəs həvariləri də öz doktrinalarına aid edir və onları müqəddəs yolun təsisçiləri kimi tanıyırlar.

Bu mənada öz başlanğıcını baş qütbdən götürən, qanun və şüurun sintezinin həyata keçirildiyi siciliyalı ardıcılların həlledici və gecikmiş mənəvi töhfəsini də qeyd etmək lazımdır: Peyğəmbərin (s) qızı Fatimənin həm Əlcəzairdə, həm də dünyanın digər hissələrində tanınan törəmə xətlərin birləşdiyi ana xətti üzrə olanlar imam Musa əl-Kazımdan törəmiş əmisi uşaqlarının müşayiəti ilə Siciliya adasını Normanların fəth etməsi nəticəsində tərk etməyə məcbur olmuşdular. Onlar əvvəlcə Əndəlüsdə XI əsrin sonlarına qədər gizlənmiş, sonra isə mərkəzi məğribin metropoliyasında məhz nasirilərin şəhəri Becayada məskunlaşmışdılar. Bu, sufiliyin struktur cəhətdən tamamlanması prosesi hesab olunur. Belə ki, həmin hadisədən sonra sufilik özünəməxsus fikri, terminologiyası və metodologiyası olan müstəqil cərəyana çevrilmişdir [14].

Əsrlər keçdikcə Əlcəzair sufiliyi möhkəmlənmiş və bu təriqət ticarətin inkişafı sayəsində Afrikadan Hindistana qədər genişlənmişdi. Ərəblərin idarə etdiyi rayonlarda ribat adı ilə tanınan sərhəd postları dini mərkəzlərə çevrilmişdi, lakin onları fars xanəgahları ilə qarışdırmaq düzgün olmazdı. Belə ki, onların təfəkküründə "müəlim-şagird" anlayışı hələ formalaşmamışdı [15]. Lakin sufi təşkilatının ikinci mərhələsində bu xanəgahlar məktəb funksiyasını da yerinə

yetirməyə başlamışdır. "Xanəgah" termini İranda, Suriyada və Misirdə (Əlcəzairdə belə deyildi) qeyri-ərəb mənşəli siyasi hökmdarlar - Əyyubilərin və Səlcuqilərin[2], onların məmurları tərəfindən əsası qoyulan və maliyyyələşdirilən istənilən sufi icmasının göstərilməsi üçün qəbul olunmuşdu. Hər iki icma tipi sufilərin, xüsusilə mənəvi həyatı üçün nəzərdə tutulmuşdu, lakin strukturca bir-birindən kəskin fərqlənirdilər. Ribatın başında müəllim dururdu, halbuki xanəgahda qərarverici orqan var idi və onun rəsmi rəhbəri mənəvi rəhbərdən daha çox, inzibatçı hesab olunurdu.

Ölkədə baş vermiş bəzi tarixi hadisələr (məsələn, ölkənin fransızlar tərəfindən işğalı) nəticəsində məbədlər (zaviyələr) fatehlərin və onların sisteminin ədalətsizliyinin əleyhinə üsyana qalxdılar. Bunlara misal kimi, Maskara şəhərindəki qadiriyyə təriqətinin başçısı Əbdülqadir bin Muhyiddini, Qabiliyyədəki rəhmaniyyə təriqətinin başçısı Məhəmməd bin Aissanın qızı Lalla Fatimə Nsumeri, Dəhra bölgəsində üsyan qaldırmış Bu Maza adı ilə tanınan Məhəmməd bin Abdı, Sanusiyyə ordeninin başçısı şeyx Bu Amamanı və s. göstərmək olar [15].

Yuxarıda sadalanan faktlardan da göründüyü kimi, Əlcəzair sufilik məktəbi müqəddəs və çoxsaylı mistik qütblər yaratmışdır. Bu müqəddəslik möhürünün başında ticaniyyə ordeninin banisi, məşhur qnostik Əhməd ət-Ticani (1737-1815), rəhmaniyyə ordenin banisi Məhəmməd bin Əbdürrəhman əl-Gaştuli (1715-1793) və sanusiyyə qardaşlığının banisi Məhəmməd bin Əli əl-Sənusi sufilər arasında ən məşhuru Rəbiyyə əl-Ədəviyyə idi. Onun poetik deyimlərindən dayanır. Eyni zamanda, qadınlar da xəlvətiyyə təriqətinə böyük töhfə vermişlər. Çoxsaylı qadın biri belə səslənir:

*Mən cəhənnəm qorxusu ilə eyləsəm itaət Sənə,*
*Qoy Cəhənnəm atəşi olsun həmən qismət mənə.*
*Gərçi Cənnət arzusu ilə üz tutarsam dərgaha,*
*Dərhal et məni kənar, Cənnəti neylərəm daha.*

*(tərcümə Əminə Əliyevaya* məxsusdur)

Həmin dövrdə qadın cəmiyyətlərinin varlığı barədə yazan İbn əl-İbri (1225-1286) onları ribat, kişi cəmiyyətlərini isə hənəkə adlandırırdı. Təkcə Hələb şəhərində 1150-1250-ci illər arasında təsis olunmuş 7 qadın cəmiyyəti fəaliyyət göstərmişdir. Bağdadda olan bir neçə ribatın ən məşhuru isə Fatimə Raziyyəyə (521/1127 vəfat etmişdir) məxsus idi. Qahirədə, 684/1285-ci ildə əl-Malik əz-Zahir Baybarsın qızı tərəfindən Zeynəb bint Abül Bərəkət adlı qadın şeyx (şeyxə) və onun ardıcılları üçün inşa edilmiş ribat-əl-Bağdadiyyə mövcud idi. Sufi təriqətlərində qadınların rolu bu gün də çox cüzi olsa belə, təriqətin müqəddəs hesab etdiyi qadınlar mövcud olmuşdur (Ayişə əl-Mənubiyə, əl-Makra, Lalla Fatimə və s.).

Antropoloq Zaim Xenşelaui və digərləri bunu insan cəmiyyətinin qədim dövrdən indiyədək patriarxal xarakterli olması ilə izah edirlər. Qadınların sufi təriqətlərində iştirakına dair çoxsaylı misal olsa da, onların bu qardaşlıqlara verdiyi töhfə barədə geniş danışmaq mümkün deyil.

Tunisli tədqiqatçı Nelli Amri yazırdı ki, "qadınların sufizmə töhfəsi kəmiyyət deyil,

2 Turan Osman, "Türkiye Selçuklularında Toprak Hukuku Miri Torpaqlar ve Hususi Mülkiyet Şekilleri", Türkler Ansiklopedisi, Ankara 2002, c. VII

keyfiyyətlə bağlıdır". Qadın sufiliyi bu gün istər Qərbdə, istərsə də müsəlman dünyasında ətraflı öyrənilməyən mövzulardandır. Kişilərin bu cəmiyyətdə say çoxluğu qadınların iştirakını istisna etmir [17, s.4]. Burada yeri gəlmişkən, müasir Əlcəzair dövlətinin yaradıcısı, əmir Əbdülqadir bin Muhyiddini də (1807-1883) qeyd etməliyik. Əmir Əbdülqadirin şəxsində qadiriyyə və əkbəriyyə məktəbləri birləşmişdir. O, İbn Ərəbinin meydana çıxardığı əkbəriyyə məktəbinin ən görkəmli şərhçilərindən idi. Onun İbn Ərəbinin ən böyük kitabının – "Futuhat əl-Məkkiyyə"nin ezoterik nəticələri haqqında şərhləri dünyanın ən nüfuzlu universitet proqramlarına daxil edilmişdir.

Ümumiyyətlə, Əlcəzairdə və Şimali Afrika ölkələrində rəsmi qeydiyyata alınmış 73 sufi qardaşlığın yarısı XIX, 15-i isə XX əsrdə yaranmışdır və onlar aşağıdakı kimi bölünür: 19 qardaşlıq xəlvətiyyəyə, 18 qardaşlıq əhmədiyyəyə, 18 qardaşlıq isə Şimali Afrikanın ən böyük qardaşlığı olan şaziliyyəyə aiddir.

Əsası mərakeşli mistik Əbül Həsən əş-Şirazi (1196/97-1258-ci illər) tərəfindən qoyulmuş şaziliyyə qardaşlığının təlimi orta sufizm prinsiplərinə əsaslanırdı [18].

Bu qardaşlıqlardan altısı əsasını İbrahim əl-Disuqinin (1246-1288) qoyduğu Bürhaniyyəyə aiddir (Şeyxin Disuq şəhərindəki məzarı bu gün də ziyarət yerinə çevrilmişdir). Daha iki qardaşlıq - yaradıcısı Əbdülqadir Geylani olan qadiriyyəyə (sufi ordenlərin ən qədimi və ən geniş yayılmış qardaşlığıdır), ikisi rifaiyyəyə (əsasını Əbdülqadir Geylaninin gənc davamçılarından olan Əhməd əl-Rifai (vəfatı 1176) qoymuşdur), üçü nəqşibəndiyyəyə, ikisi dərdüriyyə, biri əzuziyyəyə, daha biri mirqaniyyə və xatəmiyyəyə aiddir. Hazırda Misirdə, ölkənin bütün ərazisini əhatə edən, təxminən 120-dən çox sufi qardaşlığı fəaliyyət göstərir [19, s.1-74].

Misirdə və Əlcəzairdə fəaliyyət göstərən xəlvətiyyə təriqətinə mənsub müasir qardaşlıqlar aşağıdakılardır:

**Misirdəki xəlvətilik ordenləri:** 1) Azaziyyə; 2) Bəhvətiyyə; 3) Dayfiyyə; 4) Günaymiyyə; 5) Qudiyyə; 6) Günaydiniyyə; 7) Həraviyyə; 8) İlvaniyyə; 9) Haşimiyyə; 10) Xudayriyyə; 11) Mərvaniyyə; 12) Muqaziyə; 13) Misallimiyyə; 14) Müslihiyyə; 15) Qəsabiyyə; 16) Qayətiyyə; 17) Sammaniyyə; 18) Səviyyə; 19) Şəbraviyyə [20, annexe II; 21].

**Xəlvətiliyin Əlcəzairdəki qolları.** Xəlvətiyyə təriqətinin Məğribdəki qollarının sayının çox olmasına baxmayaraq, onlardan ikisi daha geniş yayılmışdır. Bu qollardan birincisi rəhmaniyyədir. Xəlvətilik təriqətinin Əlcəzairə gəlməsi XVIII əsrə təsadüf etmişdir. Bu qol adını təsisçisi – Məhəmməd bin Abdurrəhman əl-Gaştuli əl-Əzhərinin adından götürmüşdür. O, ictimaiyyətə az məlum olan, çox hissəsinin əlyazma şəklində qaldığı bir çox əsər yazmışdır.

Ticaniyyə ən sonuncu yaranmış sufi cərəyanlarından sayılır. Onlar mənsub olduqları cərəyanın özünəməxsus xarakterə malik olduğunu hesab edirlər. Bu inam isə müqayisə və oxşarlığa əsaslanır. Müsəlmanlar İslamı sonuncu din və sonuncu ilahi mesaj hesab edirlər. Ticanilər də, öz növbəsində, mənsub olduqları təriqəti bütün sufi qardaşlıqlarının ən sonuncusu hesab edirlər. Həmçinin Məhəmməd sonuncu peyğəmbər, yəni "xatəmül ənbiya" olduğu kimi, Ticani də "xatəmül övliya"dır. Bu inam onların həyatının, fəaliyyət və təlimlərinin müxtəlif səhifələrində özünü aşkar surətdə büruzə verir.

Ticaniyyə təlimində İslam qaydalarına ciddi əməl edilməsi əsas şərtlərdəndir. Şeyxin bu məsələdə israrlı olduğunu onun haqqında yazılmış əsərlər də təsdiq edir.

Ticaniyyə qardaşlığının məşhur nümayəndələrindən olan Amadu Hampate Ba (1901-1991) yazırdı ki, “Ticaniyyə dövrümüzün şərtlərinə uyğundur”, “bu cərəyan üləmaların təliminin 3 əsas tələbi ilə tam üst-üstə düşür”. Belə ki, buraya iman, Allaha təslim olmaq və xeyirxahlıq daxildir [22, s.230-231].

Lakin müasir dövrün gətirdiyi bəzi problemlər ticaniyyədən də yan keçməmişdir. Burada mənəvi sapmaların fəsadları xüsusilə diqqəti cəlb edir.

Ticaniyyə qardaşlığı İslamın qərbi Afrikada yayılmasında mühüm rol oynamışdır və bu gün də yarandığı yerdə, yəni məğribdə mövcudluğunu qorumaqdadır. “Cihadçı” qruplardan fərqli olaraq, sufi qardaşlıqları Afrika cəmiyyətinin daha dərindən islamlaşmasına nail olmuşdur. Müasir ərəb cəmiyyətindən fərqli olaraq, sufilik müsəlman Afrikası üçün əsas baza rolunu oynayır.

Beləliklə, sufiliyin aşıladığı mənəviyyat Şimali Afrikada əsrlər boyu özünəməxsus mədəni atmosfer yaratmış, həyat tərzini, əhval-ruhiyyəni, varlıq fəlsəfəsini, həmçinin əxlaq, musiqi, arxitektura üslublarını formalaşdırmışdır.

Bir zamanlar olduğu kimi, günümüzdəki qloballaşma dövründə də bu mənəviyyat mədəni eyniliyin, milli əsasların və mənəvi dəyərlərin qorunub saxlanmasına yardım edir.

# ƏDƏBİYYAT


1. Rahmi Serin. İslam Tasavvufunda Halvetilik ve Halvetiler. İstanbul: Petek Yayınları, 1984, 176 s.
2. Rachida Chih. Le soufisme a l' époque ottomane. XV1-XV111 siècle. Institut francais d'archiologie orientale. Cahier des Annales islamologique, 2010, 444 s.
3. Hassan Hami. La dimension spirituelle des relations transnationales. Rabat, 2005. 250 s.
4. Ralf Elger. Mysticism and Skeptisism in Ottoman Intellectual Circles.(17th.c.) Le soufisme a l'epoque ottoman. Cahier des Annales islamologique, 2010, 444 s.
5. A.Gohayder. La vie intellectuelle dans les provinces arabes a l'epoque ottoman. Revue d'histoire magrebine, 1999, tome 3.
6. Taşkörpüzadə Kəmal Əfəndi. Al-Shaqaiq al-nu maniyya fi ulama al-dawla al- uthmaniya. Bulaq, 1299-1310 h. Bax: Rachida Chih,Catherine Mayeur-Jaouen. Sufism in the Ottoman Era. Cahier des Annales islamologique, 2010, s. 7.
7. P.Fargues. Note sur la diffusion de l'instruction scolaire d'apres les recensements egyptiens. Egypte-Monde arabe 18-19, 2-ime et 3-ime trim. p.120.
8. Gohayder. La vie intellectuelle dans les provinces arabes a l'epoque ottoman. Revue d'histoire magrebine. 1999, tome 3, p. 59-60.
9. C.Pery. The civilian Elite of Cairo in the Latter Midlle Ages.Princeto n, 1981, p. 69-72.
10. Morewedge, P. (1990) The Onyx Crescent: Ali A. Mazrui on the Islamic-Africa Axis, in O.H. Kokole (ed.) The Global African: A Portrait of Ali A. Mazrui, Trenton, NJ: Africa World Press.
11. Martin B.C., "A Short History of the Khalwati Order of Dervishes" Scholars Saints and Sufis Muslim Religious Institutions Since 1500, Californiya, 1975
12. Luisard Pierre-Jean. Le soufisme égyptien contemporain//
Egipte monde arabe// 1990, s. 41-50. https://journals.openedition.org/ema/218
13. Zaim Khenchelaoui. Algerie terre d'acceuil et siege de la foi. CNRPAH, Alger, 2004.
14. La justice et le citoyen Soufisme et zaouia en Algerie// www/niarunblog.unblog.fr.
15. Algérie un reve de Fraternité, collectif par Guy Dugas, Éditions Omnibus, 2001.
16. https://www.stihi.ru/2013/03/08/3640
17.Nelli Amri.Entre Orient et Occident musulmans: Retour sur la sainteté féminine (IIIe /IXe siecle – fin du IXe /XVe siecle): Modeles, formes de l'ascиse et reception.Publié le 29 juin 2016 par CEDIFR.
18. religiocivilis.ru/islam/islamsh/703-shaziliia.ht
19. Bannerth (Ernst), "La Khalwatiyya en Égypte", MIDEO, tome 8, 1964-66.
20. Luisard Pierre-Jean.Le soufisme égyptien contemporain.
Egipte monde arabe,1990. https://journals.openedition.org/ema/218
21. Algérie un reve de Fraternité, 2001, collectif par Guy Dugas, Éditions Omnibus, 2001.
22. Ba Amadou Hampathi: vie et enseignement de Thierno Bocar, le sage de. Bandiagara, Paris, Seuil, 1980.

Амина Алиева

## ХАЛВАТИЯ В СЕВЕРОАФРИКАНСКИХ СТРАНАХ

РЕЗЮМЕ

В статье отмечается, что Хальватия вскоре распространилась в исламском мире и стала одним из ведущих суфийских направлений североафриканских стран. Конечно, такое широкое распространение Халватии, популяризации суфийских идей, возникших в Азербайджана, в Ширване в североафриканских странах, имеет социологические, идеологические и исторические причины. Прежде всего, следует отметить, что Халватия была существенно распространена по всей Османской империи, на территориях, завоеванных империей, выполняя функции идеологического крыла Османского правительства.

Очень важным моментом является факт, что Османская империя служила центром распространения суфийских идей в арабском мире, Африке и Азии и способствовала сохранению мира, содействуя диалогу между культурами. Далее автор дает информацию о существующих и действующих на территории Египта и Алжира суфийских братствах, их роли в политической, социальной и духовной жизни североафриканских стран.

Amina Aliyeva

## KHALVATIYYA IN THE NORTH AFRICAN COUNTRIES

SUMMARY

The article notes that Khalvatıyya soon spread in the Islamic world and became one of the leading Sufi denominations of North African countries. Such a wide distribution of Khalvatıyya, the popularization of Sufi ideas that emerged in Azerbaijan, Shirvan and North African countries has sociological, ideological and historical reasons. First of all, it should be noted that Khalvatıyya was substantially distributed throughout the Ottoman Empire, in the territories conquered by the empire, acting as the ideological wing of the Ottoman government.

A very important point is the fact that the Ottoman Empire served as a center for the dissemination of Sufi ideas in the Arab world, Africa and Asia and contributed to the preservation of peace by promoting dialogue between cultures. Further, the author provides information on the Sufi brotherhoods existing in Egypt and Algeria, their role in the political, social and spiritual life of North African countries.

# ERMƏNİLƏRİN TARİXİ AZƏRBAYCAN TORPAQLARINA KÖÇÜRÜLMƏSİ PROSESİ BARƏDƏ

***Zaur ƏLİYEV,***
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*Zaur.aliyev@gmail.com*

***AÇAR SÖZLƏR:*** *İrəvan, bölgə, əhali, coğrafi, dəyişmələr, köçürülmə.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Ереван, регион, население, география, изменения, переселение.*
***KEY WORDS:*** *Iravan, region, population, geography, changes, resettlement.*

Ermənilərin min illər boyu öz tarixi torpaqlarında yaşayan azərbaycanlılara qarşı zaman-zaman soyqırımı, repressiya törətmələrinə və onları əzəli yurdundan qovulmasına şərait yaradan amillərdən biri də dünya ictimaiyyətinin bu məsələ qarşısında səssiz qalmasıdır. Əslində, ermənilərin buradakı iddialarının kökü çox illər əvvələ gedir.

XVIII əsrin əvvəllərində əsasən müsəlmanlardan ibarət olan yerli camaatın narazılığını və müqavimətini görən I Pyotr planlarını həyata keçirmək üçün Gilan, Mazandaran, Bakı və Dərbənddə ermənilərin və xristianların yerləşdirilməsini vacib sayırdı. Bu ideyanın arxasında gizlənən məqsədləri isə belə qruplaşdırmaq olar:

1. İran və Türkiyənin Cənubi Qafqazda Rusiyadan daha böyük olan nüfuzuna qarşı bu bölgədə siyasi dayaqlarını yaratmaq;
2. Şərqə dair gələcək planlarını həyata keçirmək üçün Azərbaycanın, eləcə də İranın qapısı hesab etdikləri Qarabağda erməni üstünlüyünü təşkil etmək;
3. Erməniləri Türkiyə ilə sərhəddə yerləşən Naxçıvan və İrəvana köçürərək eyni soy-kökdən olan iki qardaş millətin gələcəkdə baş tuta biləcək istənilən yaxınlaşmasının qarşısını almaq (bu məqsəd Rusiyanın sonrakı siyasətində, xüsusilə sovet dövründə soydaşlarımızın sərhədyanı bölgələrdən köçürülməsində daha aydın sezilir);
4. Ticarətdə şöhrət qazanmış ermənilərdən Şərqlə ticarət əlaqələrini genişləndirmək üçün istifadə etmək (bu barədə S.N.Qlinkanın 1831-ci ildə çapdan çıxmış, sonralar bir neçə dəfə yenidən nəşr olunmuş kitabından oxuyuruq: “Şərqdə öz ticarətini genişləndirmək istəyən Pyotr erməniləri nəzərindən qaçıra bilməzdi... O, faydalı həmvətəndaşlar kimi erməniləri Rusiyaya daxil olmağa dəvət etmiş və bir dindaş kimi onları himayə etməyə və qorumağa inandırmışdı”) [1, s.8].

Əsası I Pyotr tərəfindən qoyulan bu siyasəti sonralar Rusiyanın digər çarları davam etdirdi. 1768-ci ildə II Yekaterina ermənilərin himayə edilməsi barədə əmr imzalayır. 1802-ci ildə çar I Aleksandr P.D.Sisianova yolladığı məktubunda yazırdı: “Hər nə olur-olsun ermənilər Azərbaycanın … bu və ya digər xanlıqlarında istifadə olunmalıdır”. Beləliklə, öz dövlətlərinə malik olmayan ermənilər bu məqsədə çatmaq üçün Rusiyanın imperiya siyasətinin həyata keçirilməsində alət rolunu oynadılar.

Qərbi Azərbaycan ərazisi əhalisinin ilkin qaçqınlıq dövrü 1801-ci ildə Rusiyanın Şərqi

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Gürcüstanı ilhaq etməsi və 2000-dək erməninin Loru-Pəmbəkə köçürülməsi ilə başlamışdır. Bu, 1805-ci ildə də davam etmişdir. Rusların İrəvanı tutmasında isə ermənilər daha çox maraqlı idilər. Belə ki, erməni vilayətinin rəisi 21 may 1828-ci ildə Paskeviçə yazırdı: "Erməni Hakan Harutyuna Abbas Mirzənin ordusunda topçu kimi xidmət edərkən döyüş zamanı top atəşini rus qoşununa deyil – İrəvan xanının qoşunlarına yönəltmişdi" [2, s.5].

Türkmənçay müqaviləsinin martın 20-də təsdiqi ilə I Nikolay erməni vilayəti yaradılması haqqında fərman verdi. Erməni vilayəti İrəvan, Naxçıvan əyalətlərinə, Ordubad dairəsinə bölündü. 1829-cu ildə Paskeviçin tapşırığı ilə İvan Şopen kameral siyahıyaalma keçirdi. Erməni vilayətində 81743 müsəlman, 25131 yerli erməni yaşayırdı. İndiyədək bu ərazidə pərakəndə halda yaşamış ermənilər 1828-ci il Türkmənçay müqaviləsinin 15-ci maddəsinə uyğun olaraq buraya kütləvi şəkildə köçürülürdü. Müqavilənin bu maddəsində yazılır: "Məmur və sakinlər bu gündən başlayaraq öz ailəsi ilə birgə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumətin və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Daşınmaz mülkə gəldikdə, onun satılması və ya öz xoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir" [3, s.272-273].

Rusiyanın İrandakı səfiri Qriboyedovun təşəbbüsü ilə İran erməniləri işğal olunmuş ərazilərə köçürüldü. Bu zaman müsəlman əhalisi yaylaqda olduqlarından gəlmələr onların evlərində yerləşdirilirdi. İ.Şopenin siyahıyaalmasına görə, İrəvana 23568 nəfər, Naxçıvana 10652 nəfər, Ordubada 1340 nəfər, yəni ümumilikdə 35560 erməni köçürülmüş, beləliklə, erməni vilayətində onların sayı 60691-ə çatmışdır. İrəvan xanlığı ərazisindən qaçıb Şərqi Anadoluda məskunlaşan azərbaycanlılar Rusiyanın oraya hücumu ilə növbəti dəfə Türkiyənin içərilərinə doğru qaçqın düşməyə məcbur olmuşdular. 2 (14) sentyabr 1829-cu il Ədirnə müqaviləsinin 13-cü maddəsinə uyğun olaraq, Türkiyənin işğal edilmiş ərazilərində qalan ermənilərə 18 ay müddətində daşınan əmlakları ilə Rusiyanın tabeliyinə keçmək hüququ verilmişdir. İ.Şopenin hesablamasına görə, bunun əsasında İrəvan, Naxçıvan və digər ətraf ərazilərə 21666 erməni, 324 nəfər yezidi kürdü köçürülmüşdü. Nəticədə, əvvəllər erməni vilayətində cəmi 25131 nəfər erməni vardısa, indi 82397 nəfər oldu və 81749 nəfər müsəlmanı üstələdi. Beləliklə, 1828-1830-cu illərdə Zaqafqaziyaya 40 min İran, 84 min Türkiyə ermənisi köçürmüşdü. 1828-1832-ci illərdə İrandan və Türkiyədən köçürülmüş ermənilərin İrəvan xanlığının ərazisində məskunlaşması azərbaycanlıların öz doğma yerlərindən qovulması (deportasiya) və oralarda ermənilərin yerləşdirilməsi prosesinin başlanğıc mərhələsidir [4, s.73-74].

Buradan belə aydın olur ki, İranda, demək olar, erməni qalmamış, onların hamısı Şimali Azərbaycana köçürülmüşdü. Ermənilər əsasən İrəvan, Naxçıvan və Qarabağda yerləşdirilirdi. Bu torpaqlarda tədricən gələcək erməni dövlətinin təməlləri qoyulurdu. Çox keçmir ki, I Nikolayın 21 mart 1828-ci il fərmanına əsasən İrəvan və Naxçıvan xanlıqlarının ərazisində erməni vilayəti yaradılır. XX əsrin I rübündə Qarabağın dağlıq hissəsində erməni muxtariyyətinin əsasının qoyulması və son Qarabağ hadisələri bu prosesin məntiqi nəticəsidir. Əgər Lazarev erməniləri gələcəkdə qurulacaq dövlətlərinin mərkəzi kimi gördükləri İrəvanda yerləşdirməyə üstünlük verirdisə, digər erməni general Madatov öz xalqını Qarabağa köçürərək burada erməni mərkəzi yaratmağa səy göstərirdi [5, s.63-64].

Rus-türk müharibəsinin (1828-1829-cu illər) gedişində və müharibədən sonra Azərbaycana yeni erməni axını başladı. Hələ XX əsrin əvvəllərində görkəmli publisist və naşir V.L.Veliçko yazırdı ki, "hər bir qafqazlı bilir ki, ermənilərin əksəriyyəti buraya XIX əsrin I yarısında Türkiyədən qaçıb gəlmişlər, onlar yerli əhali deyillər" [6, s.63]

Ədirnə müqaviləsindən sonra Ərzurum, Qars və Bəyaziddən 90 minə yaxın erməni köçürüldü. Köçürülənlər Axaltsix, Axalkalaki, Borçalı ilə yanaşı, İrəvan, Zəngəzur, Qarabağ torpaqlarında yerləşdirilirdi. Bu köçürülməni Maqda Neyman da təsdiqləyir: "1828-ci ildə Türkmənçay müqaviləsi bağlandıqdan sonra 40 min İran ermənisi Paskeviçin başçılığı ilə Qafqaza köçürülmüşdür. Ədirnə sülh müqaviləsindən sonra Türkiyə ermənilərinin də taleyi belə oldu. Ərzurumdan və başqa vilayətlərdən arxiyepiskop Baqratuninin başçılığı ilə 90 min nəfər Qafqaza köçmüşdür [7, s.24].

Gülüstandan fərqli olaraq, Türkmənçay Azərbaycanın gələcək bəlalarının ilkin addımı idi. Türkmənçay müqaviləsi ilə Azərbaycanımızın Arazın güneyindəki 210 min kv.km ərazisi İrana, 130 min kv.km. ərazisi isə Rusiyaya qatıldı. Bu, Azərbaycan türklərinin vahid tarixi torpaqlarının parçalanması demək idi. Qlinkanın yazdığı kimi, "Türkmənçayla həmhüdud kəndlərin erməniləri Qarabağa yollandılar".

Türkmənçay müqaviləsi imzalandıqdan dərhal sonra – fevralın 14-də Lazarev elə oradaca Paskeviçə göndərdiyi raportunda xatırladırdı ki, ermənilər müharibə zamanı qələbəmiz üçün mümkün olanı etmişlər və indi evlərini qoyub Rusiya əyalətinə keçmək istəyirlər. Ermənilərin sürətlə və rahat köçürülməsi üçün Lazarev təklif edirdi:

1) Köçürmə işlərinə rəhbərlik etmək üçün Paskeviç ona kağız versin və həmin kağızda köçənlərə verilən güzəştlər göstərilsin;

2) Köçürmə işlərinə rəhbərlik etmək üçün erməni dilini bilən lazımi qədər ştab və ober zabitlər təyin etmək onun ixtiyarına verilsin;

3) İqlim şəraitinə görə köçürmə işlərinin ləngiyə biləcəyi yerlərdə rus ordusu gözləsin və ordu köçənləri müşayiət etsin;

4) Kasıb köçkünlər üçün xəzinədən vəsait ayrılsın [8, s.25-32].

Üç ay yarım ərzində 8 min erməni ailəsi Araz çayını keçdi. Beş mindən artıq erməni ailəsi Araza yaxınlaşarkən 24 aprel 1828-ci ildə Paskeviç Lazarevə tapşırıq verdi ki, "köçkünlərin böyük hissəsini, ən kasıbları Qarabağa getməyə təhrik etsin". Lazarev tapşırığı can-başla yerinə yetirdi. Qlinkanın yazdığına görə, Lazarev "erməni köçkünlərinin böyük bir hissəsini yol xərci ilə təmin etməklə İrəvan xanlığına və Qarabağ xanlığına getməyə inandırdı".

1911-i ildə N.İ.Şavrov 1828-1830-cu illər ərzində 40000 İran və 84600 Türkiyə ermənisinin Yelizvetpol və İrəvan quberniyalarında yerləşdirilməsini qeyd etmiş, onların, xüsusən "Yelizavetpol quberniyasının dağlıq hissəsində və Göyçə gölü sahilində məskünlaşdırıldığını" vurğulamışdı. Şavrov həm də yazmışdı ki, Zaqafqaziyada yaşayan bir milyon üç yüz min ermənidən bir milyondan artığı gəlmədir [9, s.61].

A.Y.Xan-Aqov 1887-ci ildə yazmışdır ki, 1825-1826-cı illərdə İrandan Zaqavqaziyaya 18 minə yaxın erməni ailəsi köçmüşdür. Bu fakt Qlinka, Şavrov və digər rus müəlliflərində yoxdur. Onlar, məlum olduğu kimi, Zaqafqaziyaya 1828-ci ildən başlayan erməni axınını təsdiq etmişlər. Əgər Xan-Aqovun dediyi həqiqətdirsə, onda Şavrovun gətirdiyi fakta - Zaqafqaziyada

yaşayan bir milyon üç yüz min ermənidən bir milyonunun gəlmə olmasına 90 min də əlavə edilməlidir. Zənnimcə, Xan-Aqova inanmamağa əsas yoxdur. Çünki o, məsələ ilə bilavasitə məşğul olmuş, xüsusən Cavanşir qəzasının kəndlərinin vəziyyətini tədqiq etmiş və sözügedən 18 min ailənin bir hissəsinin məhz Cavanşir elində məskunlaşmasını, daha konkret, Maraqlı, Canyataq, Yuxarı Çaylı və Aşağı Çaylı kəndlərini bina etməsini vurğulamışdır [10, s.62].

Köçkün ermənilər Qarabağdan kənarda da yerləşdirilmişdir. Məsələn, 30-cu illərdə İrandan gələn ermənilər Göyçay qəzasında Gərməxana kəndini və Şamaxı qəzasında Zarhu kəndini salmışdılar. İran və Türkiyədən köçürülən ermənilərin nə qədərinin Azərbaycanda yerləşdirilməsi hələ dəqiqləşdirilməmişdir. Ümumi şəkildə demək olar ki, həmin ermənilərin əsas hissəsi çarizmin rəsmi siyasətinə və Paskeviçin konkret göstərişinə əsasən (“müsəlman vilayətlərində xristian əhalisini nə qədər mümkündürsə çoxaltmaq”) müsəlman vilayətlərində yerləşdirilmişdir. 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu azərbaycanlılar təşkil edirdilər. İrəvan əyalətində azərbaycanlılar (müsəlman) 16075 ailə, yerli ermənilər 4428 ailə idi. Lakin 1828-1832-ci illərdə Rusiyanın təhriki və köməyi ilə İrandan və Türkiyədən ermənilərin köçüb gəlmələri bu nisbəti dəyişdirmişdir. Həmin illərdə İrəvan əyalətinə İrandan 4559 ailə, Türkiyədən 3674 ailə köçüb gəlmişdir. 1828-1832-ci illərdə İrəvan əyalətinin kameral təsvirinə görə İrəvan şəhərində əhalinin nisbəti belə idi: azərbaycanlılar 1807 ailə, yerli ermənilər 567 ailə, gəlmə ermənilər: İrandan 366 ailə, Türkiyədən 11 ailə. İrəvan xanlığı 15 mahaldan ibarət idi. Bu mahallarda 1828-32-ci illərdə müsəlmanların, yerli və gəlmə ermənilərin sayı aşağıdakı kimi idi: Qırxbulaq mahalında müsəlmanlar 81 ailə, yerli ermənilər 262 ailə və gəlmə ermənilər İrandan 216 ailə, Türkiyədən 38 ailə; Zəngibasar mahalında müsəlmanlar 910 ailə, yerli ermənilər 133 ailə və İrandan gəlmə ermənilər 442 ailə; Qarabasar mahalında müsəlmanlar 753 ailə, yerli ermənilər 34 ailə və İrəvandan gələn ermənilər 1211 ailə; Şərur mahalında müsəlmanlar 1305 ailə və İrandan gələn ermənilər 336 ailə; Sürməli mahalında müsəlmanlar 709 ailə, yerli ermənilər 935 ailə, gəlmə ermənilər İrandan 299 ailə, Türkiyədən 261 ailə; Seyidli-Ağsaxlı mahalında müsəlmanlar 311 ailə, yerli ermənilər 560 ailə; Abaran mahalında müsəlmanlar yox idi, yerli ermənilər 11 ailə, gəlmə ermənilər İrandan 330 ailə, Türkiyədən 1116 ailə; Göyçə mahalında müsəlmanlar 999 ailə, yerli ermənilər 15 ailə və Türkiyədən gəlmə ermənilər 1485 ailə təşkil edirdi.

Beləliklə, 1828-1830-cu illərdə İran və Türkiyədən Azərbaycana rəsmi olaraq 124 mindən çox erməni köçürüldü. Qeyri-rəsmi köçürülənləri də nəzərə alsaq, onların 200 min nəfərdən çox olduğunu söyləyə bilərik. Bu köçürülmələr nəticəsində İrəvan və Naxçıvanla yanaşı, Qarabağ əhalisinin də etnik tərkibi kəskin dəyişikliyə məruz qaldı. 1823-cü ildə Yermolov və Moqilyevski tərəfindən tərtib olunmuş vergi sənədinə görə, həmin vaxt Qarabağda yaşayan 20095 ailədən 4366-sı (21,7%) erməni ailəsi olmuşdur [11, s.42]

Sənədin tərtibində duyulan ermənipərəst, şovinist əhval-ruhiyyənin rəqəmlərə təsir edib-etmədiyini deyə bilmərik, lakin Kürəkçay müqaviləsindən keçən 18 il ərzindəki köçürülənlər və qriqorianlaşmış albanları da hesaba almaqla, siyahıdakı erməni ailələrinin sayı 4366-ya çatmışdır. 1832-ci ilin rəsmi siyahıyaalınmasında isə Qarabağ əhalisinin 64,8%-nin müsəlmanlardan, 34,8%-nin ermənilərdən ibarət olduğu göstərilmişdir.

Amerika alimi Castin Makkarti Azərbaycana erməni köçürmələrinə münasibət bildirərək

deyirdi ki, 1828-1920-ci illərdə 2 milyondan çox müsəlman yaşadıqları ərazilərdən sürgün edilmiş, dəqiq məlum olmayan sayda insan isə öldürülmüşdür. Onun fikrincə, Şərqi Anadoluya 2 dəfə (1828 və 1854-cü illərdə) hücum edən ruslar qayıdarkən 100 min ermənini özləri ilə gətirmiş, sürgün olunmuş və qətlə yetirilmiş azərbaycanlıların evlərində yerləşdirmişlər. Tanınmış Türkiyə tarixçisi Sədi Koçaş "Tarixdə ermənilər və türk-erməni münasibətləri" kitabında yazır ki, "Gümrü, İrəvan və Göyçə gölündən şərqdəki bölgədə ermənilərin sıxlığını saxlamaq yalnız sonradan, Türkiyədən köçən 200 minə qədər erməninin oradan qovulmuş müsəlmanların yaşadıqları kəndlərə yerləşdirilməsi sayəsində mümkün olmuşdur" [12, s.133].

## ƏDƏBİYYAT


1. S.N.Qlinka. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Bakı: Azərbaycan nəşriyyatı. 1995, 128 s.
2. Тайные исвестия ог 13. 15, 17 ноября 1827 г. ЦГВИА, ф. 476, а. 1
3. Полное собрание законов Российской империи. Собр. второе, т. III. 1828. СПб., 1830
4. О.И.Попова, Грибоедов в Персии в 1818-23 гг., М. (1929)
5. Н.Н.Шавров. Новая угроза русскому дълу в Закавказье; предстоящая распродажа Мугани Инородцамь. С.Петербург: 1911.
6. Величко В. Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: "Элм", 1990—224 с.
7. Maqda Neyman. Ermənilər, onların tarixi və müasir vəziyyəti. Sankt-Peterburq: 1899
8. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Bakı: 1998.
9. Н. Н. Шаврова. Новая угроза русскому делу в Закавказье: предстоящаяраспродажа Мугани инородцам; Записка генерального консула России в Эрзеруме Маевского. Баку: Элм, 1990-156 с.
10. Köçərli T. Qarabağ: yalan və həqiqət. Bakı: 1998.
11. Az.SSR EA-nın xəbərləri, tarix, fəlsəfə və hüquq seriyasından, 1988, N3.
12. Sədi M. Koçaş, "Tarixdə ermənilər və türk erməni münasibətləri", Bakı: 1998.

Заур Алиев

## О ПРОЦЕССЕ ПЕРЕСЕЛЕНИЯ АРМЯН НА ИСТОРИЧЕСКИЕ АЗЕРБАЙДЖАНСКИЕ ЗЕМЛИ


### РЕЗЮМЕ

В статье просматривается процесс переселения армян на территорию Северного Азербайджана в течении последних столетий, анализируется его динамика, цели, причины, последствия. Отмечается, что с целью укрепления основ империи и держать под контролем мусульманское население на Южном Кавказе осуществляемая имперской Россией политика проводилась беспрерывно в течении всего этого времени.


Zaur Aliyev

## ABOUT PROCESS OF RESETTLEMENT OF ARMENIANS TO THE HISTORICAL AZERBAIJANI TERRITORIES


### SUMMARY

The article reviews the process of resettlement of Armenians to the territory of Northern Azerbaijan during the last centuries, analyzes its dynamics, goals, causes, consequences. It is noted that the policy pursued by the imperial Russia with the aim of strengthening the foundations of the empire and keeping the Muslim population under control in the South Caucasus was carried out continuously throughout this time.

# HÜSEYN BİN MƏSUD ƏL-BƏĞAVİNİN “MƏSABİH ƏS-SÜNNƏ” ƏSƏRİNİN QƏDİM NÜSXƏLƏRİ

***Nailə SÜLEYMANOVA,***
*AMEA Füzuli adına Əlyazmalar İnstitutu*
*ilahiyyat üzrə fəlsəfə doktoru, dosent*

***AÇAR SÖZLƏR:*** *qədim, əsər, nüsxə, əlyazma.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *древний, произведение, копия, рукопись.*
***KEYWORDS:*** *ancient, work, copy, manuscript.*

Hüseyn bin Məsud bin Məhəmməd əl-Fərra Ruknuddin əl-Bəğavi təqribən hicri 426-cı (m.1035) ildə Xorasanın Mərvərruz ilə Herat arasında yerləşən Bağ adlı qəsəbədə anadan olmuşdur. Bu yerin adına görə ona “Bəğavi” nisbəsi verilmişdir, kürkçülüklə məşğul olduğu üçün isə “Fərra” ləqəbi ilə məşhurdur [1, II, s.284]. Mənbələrdə Hüseyn əl-Bəğavinin Mərvərruzda şafei fiqhi, hədis, təfsir və qiraət üzrə mükəmməl təhsil aldığı haqqında məlumat var. Qazı Hüseyn əl-Mərvəzi (v.462/1070), Əbülhəsən Əbdürrəhm əl-Buşənçi (v.467/1074), Əbülqasım Əbdülkərim əl-Qureyşi (v.465/1073), Əbu Əli Həsən əl-Mənii (463/1071) və bir çox digər məşhur alim onun müəllimi olmuşdur. Hüseyn əl-Bəğavi sonralar fiqh, hədis və təfsir sahəsində tələbə yetirmişdir [2, II, 449]. Hicri 516-cı (m.1122) ildə Mərvərruzda vəfat etmiş və müəllimi Qazı Hüseynin yanında dəfn edilmişdir [3, II, s.259; 1, VII, s.195].

Alimin təfsir, fiqh, hədis və qiraət elminə dair 18 əsəri vardır. Bu əsərlərin nüsxələri dünyanın bir çox kitabxanasında mühafizə edilir. Buna misal kimi, “Tərcümət ayət əl-əhkəm”, “ət-Təzhib fi furu əl-fiqh əş-Şafii”, “Risalət fi şərh hədis Cibril”, “Məsabih əs-sünnə”, “Məalim ət-Tənzil” və s. adlı əsərlərini göstərmək olar. Azərbaycanda, Füzuli adına Əlyazmalar İnstitutunda isə onun “Məalim ət-Tənzil” adlı təfsirinin tam olmayan nüsxəsi və hədisə dair mühüm mənbə sayılan “Məsabih əs-sünnə” adlı əsəri, ona yazılmış şərhlərinin nüsxələri saxlanılır. Hicri 1087-ci (m.1676) ildə köçürülmüş təfsir “əl-Mucadilə” surəsi ilə başlayıb, “ən-Naziat” surəsi ilə sona çatır.

“Məsabih əs-sünnə” ona ən çox şöhrət qazandıran əsərlərindəndir. Bu toplu 28 kitab, 275 babdan ibarətdir və 4931 hədisə istinad edilmişdir. Aparılan tədqiqatlardan məlumdur ki, əvvəlcə rəvayətlərin mövzu və bablara görə sıralandığı əsərdə hər babdakı hədislər səhih və həsən olmaqla iki yerə ayrılmış, sayı daha az olan zəif hədislər müəyyən edilmişdir [4, XXIX, s.258-260].

Füzuli adına Əlyazmalar İnstitutunda “Məsabih əs-sünnə” əsərinin müxtəlif dövrlərdə köçürülmüş 11 nüsxəsi mühafizə edilir. Bu nüsxələr ilk dəfə olaraq paleoqrafik-tekstoloji tədqiqata cəlb edilir. Nüsxələrdən ən qədimi hicri 830-cu (m.1427) ildə nəsx xətti ilə köçürülmüşdür. Katib əlyazmada adını qeyd etməmişdir. Hədislər qırmızı mürəkkəblə iri nəsx xətti ilə yazılmışdır. Nüsxə Azərbaycanın məşhur kitabşünas alimi Əbdülqəni Nuxəvi Xalisəqarizadənin (v.1314/1896) kolleksiyasındandır. Əlyazma əvvəldən naqis olub, xətti rahat oxunur.

Əsərin digər nüsxəsi hicri 937-ci (m.1531) ildə Məhəmməd Əhməd bin Hüseyni tərəfindən gözəl nəsx xətti ilə köçürülmüşdür. Abidə həddindən artıq nəm çəkməsinə baxmayaraq, tam mətnlidir və asanlıqla oxunur. Babların adı əsas mətnə nisbətən daha iri kalleqrafik nəsx xətti ilə qeyd olunmuşdur.

Hicri 990-cı ildə (m.1582) gözəl nəsx xətti qırmızı mürəkkəblə çərçivəyə alınaraq köçürülən nüsxədə əsərin mündəricatı, o cümlədən əlyazmanın sonunda gözəl kollofon (sonluq) tərtib edilmişdir. Abidə tam mətnlidir və böyük ehtimalla, sifarişlə hazırlanmışdır.

Nəfis tərtibatlı, hicri 1177-ci (m.1763) ildə nəsx xətti ilə Əbdürrəhim bin Məhəmməd Əmin əz-Zəxudi tərəfindən köçürülən nüsxənin mətni də qırmızı mürəkkəblə çərçivəyə alınmışdır. Babların adı əsas mətnə nisbətən daha iri kalleqrafik nəsx xətti ilə qeyd olunmuşdur. Əlyazmada böyük ustalıqla qırmızı, yaşıl və qara rənglərlə təzhiblənən gözəl sərlövhə hazırlanmışdır. İlk vərəqində mündəricat tərtib edilmiş abidənin sifarişlə hazırlanması aydın görünür.

Nüsxələr arasında ən son köçürülən nüsxə 1915-ci ildə Şeyx Yasin Əfəndi bin Hacı Şeyx Yusif Əfəndi tərəfindən köçürülmüşdür. Babların adı qırmızı mürəkkəblə kalleqrafik nəstəliq xətti ilə qeyd olunmuşdur. Əlyazmanını mətni tamdır.

Digər nüsxələr isə paleoqrafik xüsusiyyətlərinə görə təqribən XVIII-XIX əsrlərdə hazırlanmıştır. Təəssüf ki, nüsxələr ciddi nəm çəkmişdir. Bu nüsxələrin mətnləri əvvəldən və ya sondan naqis olub, katib və tarixləri haqqında qeyd yoxdur. Buna baxmayaraq, onları tədqiqata cəlb edib, oxumaq mümkündür. Nüsxələrdən ancaq biri gözəl süls, digərləri isə nəsx xətti ilə köçürülmüşdür. Katiblər əlyazmalarda kitab və bab adlarını iri kalleqrafik xətlə, qırmızı mürəkkəblə yazmışlar.

"Məsabih əs-sünnə" uzun illər bir çox alimin diqqətini çəkmiş, bir çox dilə tərcümə edilmiş və şərhlər yazılmışdır. Mənbələrdə şərhlərin 40-a yaxın olduğu bildirilir. Əsərin əlyazması olduğu kimi, şərhlərinin də əlyazmaları dünya əlyazma kitabxanalarında, həmçinin Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilir.

Bu şərhlərdən birinin müəllifi Hüseyni bin Mahmud bin Həsən Məzhərəddin əl-Kufi əz-Zeydanidir. Şərh "Əl-məfatih fi şərh əl-məsabih əs-sünnə lil`l-Bəğavi" adlanır. Hüseyni bin Mahmud Məzhərəddin (v.727/1327) dövrünün məşhur hədis alimi olmuşdur. Nisbəsindən aydın olur ki, Kufənin Zeydan əyalətindəndir [5, IV, s. 60]. Alim "Fəvaid fi usul əl-hədis", "Mərifət ənva`u əl-hədis", "Müqaddimət fi mərifət ulum əl-hədis" və s. əsərin müəllifidir.

Hüseyni bin Mahmud Məzhərəddin əz-Zeydaninin "Məsabih əs-sünnə" əsərinə yazdığı şərhin qədim nüsxələrindən biri Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilir. Nüsxə nəsx xətti ilə hicri 800-ci (m.1398) ildə Mahmud ibn Saleh Xalid bin Valid Məkki tərəfindən köçürülmüşdür. Nisbədən əlyazmanın Məkkədə köçürüldüyü ehtimal etmək mümkündür. Katib nüsxədə bab adlarını qırmızı mürəkkəblə yazmışdır. Tam şəkildə nəm çəkmiş əlyazma Əbdülqəni Nuxəvi Xalisəqarizadənin şəxsi kolleksiyasındandır. Abidənin mətni tamdır və rahat oxunur.

Ərdəbildən olan Azərbaycanın məşhur alimi Yusif bin İbrahim şafei fəqihlərindən olmuşdur. Dövrünün tanınmış alimlərindən biri olmasına baxmayaraq, həyatı haqqında geniş məlumat yoxdur. Alimin uzun müddət Ərdəbildə yaşadıqdan sonra Misirə köçdüyü məlumdur. Məmlük hökmdarlarının ona böyük hörmət göstərdiyi haqqında da mənbələrdə məlumat vardır. Ərdəbili fiqh alimi olmaqla bərabər, mahir xəttat və şair olmuşdur. Alim hicri 776-cı (m.1374) və ya 779-

cu (m.1377) ildə Misirdə vəfat etmişdir [6, XI, s. 279-280; 3, I, s.200] . Yusif əl-Ərdəbilinin məşhur əsərlərindən biri, ancaq şafii hüquq məktəbinin görüşlərini yazdığı "əl-Ənvar li Əməli əl-Əbrar"dır. Bu əsər mədrəsələrdə uzun müddət dərs kitabı olaraq istifadə edilmişdir. Onun Azərbaycanda və digər ölkələrin əlyazma kitabxanalarında çoxsaylı əlyazma nüsxəsi mövcuddur. Alimin qələmə aldığı məşhur əsərlərdən biri də Hüseyn əl-Bəğəvinin "Məsabih əs-sünnə" əsərinə yazdığı üç cildlik "Kitəb əl-izhər şərh əl-məsabih sünnə" adlı şərhidir. Bu şərhin hicri 896-cı (m.1490 ) ildə Məhəmməd Həsən bin Hüseyn ət-Tarami tərəfindən nəsx xətti ilə köçürülmüş bir əlyazma nüsxəsi Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilir. Babların adı qırmızı mürəkkəblə qeyd edilmişdir. Əlyazma şərhin I-II cildlərində yer almışdır. Digər ölkələrdə mühafizə edilən əlyazma nüsxələrinin ən qədimlərindən biridir.

Tədqiqat zamanı ortaya çıxan maraqlı faktlardan biri "Məsabih əs-sünnə" əsərinə yazılmış digər şərhin müəllifi ilə bağlıdır. "Şərh məsabih əs-sünnə" adlanan şərhin bir nüsxəsi Əlyazmalar İnstitutunda mühafizə edilir. Abidə Əbdülqəni Nuxəvi Xalisəqarızadənin kolleksiyasındandır. Onun da müəllifin adı ilə bağlı "1a" vərəqində qeydi vardır. Zeynələrəb adını bir çox mənbədə araşdırdıq. Məlum oldu ki, Zeynələrəbin tam adı Əbülməali Əli bin Abdullah bin Əhməd ən-Naxçıvani əl-Misridir (v.758/1356). Nisbəsindən aydın olur ki, alim Naxçıvanda anadan olmuş, sonralar isə Misirdə yaşamışdır. Mənbələrdə onun mühəddis və təbib olduğu haqqında məlumat vardır. Alim "Şərh külliyyat əl-qanun fi-əl-tibb", "Şərh əl-Ənmuzəc li`l-Zəməxşəri", "Şərh ən-nəcdəyət fi-əl-ədəb" və hədisə dair "Şərh məsabih əs-sünnə" adlı əsərlərin müəllifidir. "Şərh məsabih əs-sünnə" əsərinin Əlyazmalar İnstitutunda mühafizə edilən əlyazma nüsxəsi gözəl nəstəliq xətti ilə katib Əvəz bin Xəvacə əl-Qarahisari tərəfrindən köçürülmüşdür. Katibin nisbəsindən əlyazmanın Türkiyədə, Qarahisarda hazırlandığı ehtimal edilir. Abidədə kitab və babların adları qırmızı mürəkkəblə qeyd olunmuşdur. Ravilərin adlarının üstündən qırmızı mürəkkəblə xətt çəkilmişdir. Şərhin mətni tamdır, paleoqrafik xüsusiyyətlərinə görə, çox güman ki, XVII əsrdə köçürülmüşdür.

Hüseyn bin Məsud əl-Bəğavinin "Məsabih əs-sünnə" əsəri və əsərə yazılmış şərhlərinin nüsxələrini paleoqrafik və tekstoloji xüsusiyyətlərini tədqiq edərkən aydın oldu ki, Azərbaycandakı nüsxələr dünya kitabxanalarında mühafizə edilən ən qədim nüsxələrdəndir. Nüsxələrin say baxımından çox olması isə əsərin Azərbaycan mədrəsələrində tədris edildiyini göstərir. "Məsabih əs-sünnə" əsəri və şərhlərinin nüsxələrini üzə çıxarıb, tədqiq edilməsi Azərbaycan elm tarixinin öyrənilməsi üçün əhəmiyyətli ola bilər.

# ƏDƏBİYYAT


1. Zirikli X. əl-Aləm. 8 cilddə. Beyrut: 2002
2. İslam Ansiklopedisi. 42 cilt. İstanhbul: 1996-2013
3. Çələbi K. Kəşfu`l-Zunun.1-4 c. İstanbul: 1216-1306 h.
4. Demirçi M. Kuran`ın Temel Konuları. İstanbul: 2000
5. Kəhhalə Ö.R. Mucəmu`l-muəllifin. IV cild, Beyrut: 2002
6. Süreyye M. Siccil Osmaniyyə. 3 cild.İstanbul: 1311/1893

Наиля Сулейманова

## ДРЕВНИИ РУКОПИСНЫЕ КОПИИ ПРОИЗВЕДЕНИЯ ГУСЕЙН БИН МАСУД АЛЬ-БАГАВИ «МАСАБИХ АС-СУННА»

### РЕЗЮМЕ

Гусейн бин Масуд один из известных ученых в науке хадис. Рукописные экземпляры его произведения «Масабих ас-Сунна» хранятся в библиотеках мира. В Институте Рукописей им. Фузули хранятся древние копии этого произведения и глоссы. Мы исследовали все копии и изучили палеографическое-текстуальное особенности. В статье приводятся сведения об исследованиях и полученных результатах.

Naila Suleymanova

## THE OLD MANUSCRIPT COPIES OF “MESABIH AS-SUNNAH” BY HUSEYN BIN MASUD AL-BAGAVI

### SUMMARY

Huseyn bin Masud al-Bagavi is one of the well-known scientists in science of hadith. Manuscript copies of his “Mesabih as-Sunnah” on science of hadith are kept in the libraries all over the world. In Azerbaijan the ancient copies of the manuscripts and explanations of the work are protected in the Institute of Manuscripts named after Fuzuli. We did a research of all these works and studied their text linguistics and paleographic features. The article being presented is about above-mentioned research and its results.

# QƏDİM VƏ ORTA ƏSRLƏR ƏLYAZMALARINDA NAXÇIVAN HAQQINDA QEYDLƏR

***Səbuhi İBRAHİMOV,***
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Naxçıvan Bölməsi*
*s.ibrahimov71@mail.ru*

***AÇAR SÖZLƏR:*** *qədim, orta, Naxçıvan, əlyazma, mətn.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *древний, средний, Нахчыван, рукопись, текст.*
***KEYWORDS:*** *ancient, medium, Nakhchivan, manuscript, text.*

Naxçıvanda mövcud olan toponimlər bir sıra Şərq əsatirləri ilə bağlıdır. Hətta Naxçıvanın adını belə Nuh peyğəmbərin adı ilə əlaqələndirirlər [1, s.14]. Tədqiqatçılar göstərir ki, bu yerlərə vaxtilə "Nuhçular" – deyiblər. "Sonra həmin söz dəyişikliyə uğrayaraq "Naxçıvan" şəklini almışdır" [2, s.24]. Əslində isə "...Nuh tufanı haqqında ilk bilgilər müqəddəs "Tövrat" kitabında verilmişdir. "Naxçıvan" sözünün "Nuh" kəlməsi ilə əlaqələndirilməsi bu rəvayətə bağlıdır" [3, s.4]. Ərəb, fars mənbələrinə əsaslanan tədqiqatçılar isə "Naxçıvan" sözünün ərəb və fars dillərindəki "Nəqşi-Cahan" (Dünyanın naxışı) sözü ilə əlaqələndirirlər" [2, s.26].

Bütün bu müddəalar Naxçıvanın qədim türk diyarı olmaqla yanaşı, həm də Şərqin mədəniyyət, sənət, iqtisadiyyat, ticarət mərkəzi olduğunu göstərir. Onu yerli türk tayfaları "Nuhçu", ticarət yollarını buradan salan Şərq tacirləri isə "Nəqşi-Cahan" adlandırmışlar. Məşhur "Oğuznamə" kitabında Naxçıvan torpaqları Azərbaycan yurdu kimi təqdim edilir.



*Şəkil 1. Əlincəçay sənduqəsi.*

Tədqiqatçıların verdiyi əsaslı elmi məlumatlara görə, "Gəmiqayada aparılan arxeoloji qazıntılar və qayaüstü təsvirlərdən belə nəticəyə gəlmək olar ki, bu yaylaqlar yerli tayfaların müvəqqəti yaşayış məskəni olmuş, köçəri yaylaq maldarlığı onların məşğuliyyətinin əsasını təşkil etmişdir. Naxçıvanda aparılan arxeoloji qazıntılar Gəmiqaya ilə məhdudlaşmır" [4, s.46]. Bununla belə, "1926-cı ildə Ə.K.Ələkbərov Naxçıvan ərazisinə səfər zamanı Əlincəçay vadisində qədim abidələrin olduğunu müəyyənləşdirmişdir" [5, s.3]. Naxçıvana aid XV əsr üçün səciyyəvi xarakter daşıyan Əlincəçay xanəgahı bir çox mətnşünaslıq ornamenti ilə zəngindir ki, bunlardan biri də qazıntı zamanı tapılan sənduqədir (şəkil-1).

Orta əsrlərin ayrı-ayrı məxəzlərindən bizə məlum olan, Azərbaycan ərazisində yaradılmış ilk yazılı abidə Avestadır. Müsəlman Şərqində islamaqədərki əlyazma kitablarının ən dəyərli nümunəsi hesab edilən, 21 kitab halında cəm olunmuş 815 fəsildən ibarət bu zəngin və qədim abidə ilk dəfə Əhəmənilər dövründə (e.ə. VI yüzilliyin sonunda), sonuncu dəfə isə Sasanilərin hökmranlığı illərində qələmə alınmışdır. Avestanın tərkib hissələri eramızdan əvvəl II minilliyin sonu, I minilliyin birinci yarısına aiddir. Müxtəlif tarixi mərhələlər keçmiş bu abidə e.ə. VI əsrdə 12.000 öküz dərisindən hazırlanmış perqamentə yazılmış, dünyada yastı kitab növünün (kanon) ən böyük nümunələrindən olmuşdur. Makedoniyalı İsgəndərin işğalları zamanı məhv edilmiş bu nəhəng kitabın mətnini sonra bərpa etmək mümkün olmasa da, eramızın IV əsrində baş zərdüşt kahini Mahraspandın oğlu Azərbad (Atropat) Avestanı yenidən tərtib etmiş və təkmilləşdirmiş, onu özünün yaratdığı xüsusi əlifbada yazıya almışdır. Sasanilər dövründə isə Tansar adlı bir katib atəşpərəstlərin yaddaşında qalmış mətnlər əsasında “Zənd-Avesta” (“Yeni Avesta”) mətnlərini yazmışdır. Bu mətnlərin özü də tekstologiya tarixində xüsusi əhəmiyyət kəsb edir.

Bundan sonra Avestanı bütün dünyada görkəmli filosof və din xadimi Azərbadın adlı bir nəfərin tərtib etdiyi bildirilir. Ondan sonra Avesta bir daha dəyişdirilməmiş və irihəcmli şərhlər yazılmışdır. Bu şərhləri adətən “Zənd” adlandırırlar.

Naxçıvana dair əlyazma mətnlərinin öyrənilməsində böyük əhəmiyyət daşıyan mənbələrdən biri də V-VII əsrlərdə tərtib edilmiş “Pəndnamə” kitabı və zərdüştlüyün ensiklopediyası sayılan “Dinqart” kitablarıdır. Bu kitablar pəhləvi dilində yazılsa da, Azərbaycan xalqının da qədim dövr dini inanclarına aiddir.

Naxçıvana dair bədii ədəbiyyatımızdakı qeydlər həmişə əsərlərin süjet və kompozisiyasına uyğun olaraq müəyyən kontekstdə verilmişdir. Məsələn, Herodotun “Tarix” kitabından bizə məlum olan “Astiyaq” və “Tomris” əfsanələrində hadisələr eramızdan əvvəl Azərbaycan ərazisində cərəyan edir. Həmin əfsanələrdə konkret olaraq “Naxçıvan” adı çəkilməsə də, bölgədə baş verən tarixi hadisələr təsvir edilir.

“Astiyaq” əfsanəsində böyük Midiya dövlətinin yaranmasından və süqutundan bəhs olunur. Bu məlumatlar Midiya hökmdarı Astiyaq haqqındakı əfsanədən ibarətdir. Həmin əfsanənin bəzi motivləri Firdovsinin “Şahnamə”sindəki Əfrasiyab haqqında əfsanə ilə üst-üstə düşür. Hər iki əfsanədə hökmdar nəvəsinin öldürülməsinə fərman verir, hər ikisində nəvənin adı Keyxosrovdur və hökmdarın qız nəvəsidir, hər ikisində nəvə babasının hakimiyyətinə son qoyur və s.

“Tomris” əfsanəsində isə İran-Azərbaycan qarşıdurması və Azərbaycanın qadın hökmdarı Tomrisin İran hökmdarı Kirə qalib gəlməsi təsvir edilir. Əfsanədə konkret olaraq Naxçıvanın adı çəkilməsə də, hadisələrin coğrafiyası həm də Naxçıvan bölgəsini əhatə edir.

Müdriklik və hikmət xəzinəsi olan “Oğuznamə”lər kitab mədəniyyətimizin ən qədim nümunələrindəndir. “Eramızın VI əsrində “Oğuznamə”nin kitab halında olması haqqındakı tarixi məlumat onun daha əvvəlki dövrə aid olduğunu söyləməyə əsas verir. Belə bir tarixi məlumat vardır ki, XIII əsrdə Misirdə məmlük bəylərinin oxuduğu bir “Oğuznamə” kitabının kənarında VIII əsrin birinci yarısında yaşamış, əslən Azərbaycandan olan görkəmli sərkərdə Əbu Müslümün belə bir qeydi varmış ki, bu kitab mənə ulu babam Buxtu xandan qalıbdır. Başqa bir “Oğuznamə” isə IX əsrin ilk illərində fars dilindən ərəb dilinə tərcümə edilmişdir”

[6, s.5]. S.Əlizadə öz tədqiqatlarında bildirir: "Oğuznamə" sübut edir ki, IX-XII əsrlərdə - Azərbaycanda ərəb və fars dillərinin zorakı yazılı dil hüququnu ələ keçirdiyi bir vaxtda, hətta çox-çox əvvəllər oğuz dili ədəbi-bədii fəaliyyətdə olmuş, zəngin bəşəri mündəricəsi, ictimai-tarixi kəsəri, yüksək ədəbi-estetik səviyyəsi ilə seçilən ədəbiyyat yaratmışdır" [7, s.15]. XI yüzilliyin tanınmış şairi Mənuçöhr Damğaninin aşağıdakı mənalı beyti bir daha deyilənləri təsdiqləyir:

به راه ترکیمانه که خوبتر گون
تو شعر ترکی بر خوان مرا و شعر

Mənə o türkmənsayağı çox yaxşı,
Dediyin türk və oğuz şeirindən oxu [8, s.124].

"Oğuznamə"lərdən biri olan və VII əsr anadilli ədəbiyyatımızın nadir nümunəsi sayılan, orta əsr Azərbaycan xalqının "milli pasportu" adlandırılan "Kitabi-Dədə Qorqud" [9] eposunda isə artıq konkret olaraq Naxçıvan bölgəsinin toponimləri verilir. Abidənin "Uşun qoca oğlu Səyrək boyu" adlanan onuncu boyunda belə qeydlərə rast gəlirik: "... sonra Şirokus kənarındakı Göycə dənizinədək sahəni çapıb-taladılar. Böyük qənimət əldə etdilər. Əyrəyin yolu Əlincə qalasına düşdü. Qara təkur orada bir qoruq düzəltdirmişdi. Quşlardan bu dairəyə qaz, toyuq, heyvanlardan keyik, dovşan doldurub, buranı oğuz igidləri üçün tələ etmişdi" [9, s.208].

Tanınmış görkəmli coğrafiyaşünas alim, professor Səfərəli Babayev bu barədə "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" adlı tədqiqat əsərində yazır: "Dastanın mətnində adları çəkilən toponimlərin bir qisminin Naxçıvan diyarında olması diqqətimi cəlb etdi" [10, s.9-10]. Müəllif qeyd edir ki, "Kitabi-Dədə Qorqud"da adıçəkilən toponimlərdən 16-sı Naxçıvan diyarında da vardır" [10, s.10].

1997-ci ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında 20 aprel 1997-ci il tarixli Fərmanına əsasən dastanın yubileyi beynəlxalq miqyasda keçirilmişdir. "Kitabi-Dədə Qorqud" dastanı Naxçıvan diyarı ilə xüsusilə bağlıdır. Dastanda təsvir edilən bir sıra hadisələr bilavasitə Naxçıvan ərazisində baş verir. Bunu dastanda adıçəkilən coğrafi obyektlərin, əsasən, Naxçıvanda və onunla qonşu olan ərazilərdə olması da sübut edir. Məlumdur ki, Oğuzların bir qolu Azərbaycanın cənubunda, o cümlədən Naxçıvan ərazisində məskunlaşmışdı. Qədim oğuz ellərinin, bir növ, mərkəzində yerləşən Naxçıvan diyarında "Kitabi-Dədə Qorqud" boyları və onların personajları ilə bağlı 50-dən çox toponim müəyyənləşdirilmişdir" [11, s.297].

"Kitabi-Dədə Qorqud" abidəsindəki bu qeydlərdəki "Əlincə" və "Şirokus" sözləri Naxçıvan toponimləri ilə bağlıdır. Əlincə qalası qədimdə olduğu kimi, indi də öz möhtəşəmliyini itirməmişdir. "Şirokus" sözü isə çox güman ki, indiki "Şərur" sözünün arxaik formasıdır. Dastanda ilk baxışdan Naxçıvanın dilbər guşələri olan Əlincə və Şirokus (Şərur) dairəsinə mənfi münasibət var, əslində isə bu qeydlərin dərin filoloji, tarixi-etnoqrafik təhlili göstərir ki, VII əsrdə hələ Azərbaycan əhalisi İslamı tam qəbul etməmişdi. Ona görə də dastandakı həm mənfi (Şöyklü məlik, Qıpçaq Məlik), həm də müsbət obrazlar (Dədə Qorqud, Qazan xan, Bayandır xan və s.) türklərdir. Sadəcə, şəkili olan Şöyklü Məlik, qıpçaq türklərindən olan Qıpçaq

Məlik, Əlincədən olanlar hələ İslamı qəbul etməmiş, türklərin əski dini olan tenqriçilikdə qalan türklərdir. Müsbət obraz kimi təqdim edilənlər isə artıq İslam dinini qəbul etmiş müsəlmanlardır. İslamda qeyri-müsəlmanlar "kafir" adlandırıldığına görə dastanda Tanrıya sitayiş edən türkləri "kafir" adlandırırlar.

Bu məsələnin də dərin tekstoloji təhlillərə ehtiyacı var. Belə fərz edilir ki, abidənin üzü Elxanilərin vaxtında Qazan xanın (1295-1304) göstərişi ilə köçürülmüşdür. Köçürən Məhəmməd adlı xəttat müsəlman təəssübkeşliyindən çıxış edərək, vaxtilə Dədə Qorqud adlı tarixi şəxsiyyətin qələmindən çıxmış mətnlərdə çoxlu dəyişiklik etmişdir. Yaxud belə də ola bilər ki, onun üzünün köçürülməsini sifariş verən adam qatı dindar olmuş və abidədə obrazlara münasibəti dəyişmişdir. Başqa fərziyyə belədir ki, dastanın üzü köçürüləndə artıq Yaxın Şərqdə İslam qüvvətlənmişdi. Bütün müsəlman dünyasında ictimai rəy belə idi ki, şəriətə zidd olan abidələr küfrdür və onlar oxunmamalıdır. Xəlifə Ömərin vaxtında İsgəndəriyyə kitabxanasının minlərlə nüsxə kitabı Nil çayına atılaraq məhv edilmişdir. Ola bilsin ki, həmin münasibəti nəzərə alan xəttat dastanın yaşaması üçün məcbur qalıb mətnlərdə dəyişikliklər etmişdir.

Belə ki, dastanın qəhrəmanının namaz qılması və sonra əlinə qılınc alıb döyüşərək adam öldürməsi, yaxud şərab içməsi müsəlman həyat tərzindən uzaqdır. Eposun Drezden və Vatikan əlyazma nüsxələrindəki bu ziddiyyətləri onunla izah edə bilərik ki, görünür, xəttat süjeti dəyişməmiş, sadəcə bacardığı yerlərdə İslama uyğun epizodlar əlavə etmişdir. Çox güman ki, eposun İslamdan əvvəlki  variantlarında belə epizodlar olmamışdır. Naxçıvanda İslamın adından istifadə edərək öz şəxsi mənfəətlərini güdənlər də az olmamış və bu barədə Əhməd ibn Əcəm əl-Kufi özünün "Kitab əl-fütuh" ("Fəthlər kitabı") əsərində məlumat verərək yazır: "... Əbu Müslüm olduğu yeri tərk edib, Azərbaycanın Naxçıvan adlı şəhərinə gəlib oranı tutur, xərac toplayıb, onu öz silahdaşlarının arasında bölüşdürür. Buradan o, Dəbil şəhərinə tərəf gedir, dörd ay onu mühasirədə saxlayırsa da, ala bilmir" [12, s.62]. Belə ki, mənbələrə əsaslanan müəllif yazır: "Sözsüz ki, Naxçıvanda islamiyyətin mərkəzindən təyin edilən xəlifə nümayəndələri olmuş və fəaliyyət göstərmişlər" [12, s.196].

Azərbaycan ədəbiyyat tarixində Naxçıvanla bağlı qeydlərə XI əsr şairimiz Qətran Təbrizinin (1012-1088) əsərlərində rast gəlirik. Şairin divanında 50-dək beyt Naxçıvana və onu idarə edən hökmdarlara aiddir. O, XI əsr Rəvvadi hökmdarı Əbu Duləfin düşmən üzərində qələbəsini mədh edərək yazır:

Qılıncının qorxusundan qaranlıq gecəyə döndü,  
Naxçıvana tamah edənlər, oraya yaxınlaşanlar.  
Həmişəlik olaraq oranı tərk etdi, Naxçıvanla vidalaşdı,  
Məni yola sal gedim, ey şah, çünki mənim burda qalmağımdan,  
Mənə ziyan olar, sənə də bir mənfəət olmaz [13, s.85].

Beytlərdən məlum olur ki, Naxçıvan hakiminin düşmənlərə qalib gəlməsini şəxsən müşayiət etmişdir. Həmin qanlı-qadalı günlərdə dəfələrlə Naxçıvana hücumlar olmuş və qəhrəman Naxçıvan hakimi Əbu Duləf onların hamısını dəf edərək naxçıvanlıları təhlükədən qurtarmışdır. Bu kimi mətnlər Naxçıvanın qaranlıq keçmişinə işıq saçan şölələrdir. Həmin beytləri oxuduqca biz XI əsrdə buranın camaatının yaşadığı faciələri, düşmən üzərində qələbəsinin fərəhinin şahidi oluruq.

Şairin mədhlərində Naxçıvan hakimi ilə bağlı bir çox həqiqət də ortaya çıxır və bizə aydın olur ki, Əbu Duləf yerli tayfalardan olan türklərdəndir:

Ey türk heykəlli mələk, ey mələk xasiyyətli türk!
Həm behiştin zinətisən, həm də Xəzərin bəzəyi...
Şahların tacı olan o, Əbu Duləfin əli ilə,
Həm gövhərlərin qiyməti artdı, həm gövhər qiymətdən düşdü.
Bəxşiş zamanı qələmi xeyir günəşidir,
Döyüş zamanı xəncəri şər asimandır...
Elm sənin təbiətindən uzaq ola bilməz,
Qəza sənin qılıncından boyun qaçıra bilməz [13, s.128-129].

Həqiqətən də, paytaxtı Naxçıvan olan Rəvvadi dövlətinin sərhədləri Xəzər dənizinədək geniş ərazini əhatə edirdi. Əbu Duləfin milli mənsubiyyətinə dair Qətran Təbrizinin dediyi fakt bütün mübahisələrə son qoyur. Belə ki, bəzi tarixçilər Rəvvadiləri gah ərəb, gah da kürd mənşəli olduqlarını söyləyirlər: "İbn əl-Əsir Məmlanın qəti olaraq ərəb Rəvvadi nəslinə mənsub olduqlarını göstərir... Bəzi müəlliflərin fikrincə, kürd Rəvvadiləri də olmuşdur" [13, s.236]. Qətran Təbrizinin bu qeydlərindən məlum olur ki, Rəvvadilər türk mənşəli olmuşlar. Həmin qeydlərindən o da məlum olur ki, Rəvvadilər elmə yüksək qiymət vermişlər. Bu faktın olduqca böyük tarixi əhəmiyyəti var. Belə ki, yalnız nəhəng dövlətlər büdcələrindən elmin inkişafına müəyyən vəsait ayırmışlar.

Naxçıvana dair əlyazma mətnlərdə rast gəldiyimiz XII əsr Naxçıvan mədrəsələri Azərbaycanın orta əsrlər aid ilk təhsil ocaqlarından sayıla bilər. Onlar barəsində ilk yazılı məlumata XIII əsrdə müəllifi məlum olmayan "Əcaib əd-dünya" adlı əlyazmada rast gəlinir. Həmin əsərdə Naxçıvan haqqında deyilir: "Naxçıvan Azərbaycanda böyük və əhalisi sıx olan abad şəhərdir. Hündür ərazidə yerləşir... (Orada) çoxlu saraylar, köşklər, eyvanlar tikilmişdir. Şəhərin yaxınlığında daşın üstündə qala tikmişlər, mədrəsələr, məscidlər inşa etmişlər. Qalada gözəl çeşmə var. Deyirlər ki, yer üzərində ondan abad şəhər yoxdur. Bütün binalar gəc və bişmiş kərpicdən tikilmişdir. Köşklərin çoxu qala kimi üçmərtəbə və dördmərtəbədir. Yaxşı (şəhərətrafı) ərazisi (savad), axar suyu, bağları və bol göy-göyərtisi, lətif meyvələri var. Araz çayı şəhərin hüdudlarına toxunaraq keçir. Deyirlər ki, bütün aləmdə Naxçıvan üzümündən daha yaxşı və daha xeyirli üzüm yoxdur" [14, s.150].

Elxanilər dövlətində maliyyə işlərini idarə edən "Sahib divan" ("baş vəzir") Şəmsəddin Məhəmməd Cuveyni tərəfindən 1263-1284-cü illərdə yazılmış əlyazmada Naxçıvan mədrəsələri haqqında geniş məlumat var. Başqa bir əlyazma 1186-cı ildə Naxçıvan şəhərində şəxsən Möminə Xatun üçün tikilmiş məqbərənin vəqflərinə aiddir. Bu əlyazmanı Naxçıvandakı mədrəsələrin "Nizamnaməsi" adlandırmaq olar. Burada mədrəsələrin idarə olunması və tədris işlərinə rəhbərlik məsələsi, eləcə də müdərrislərlə tələbələrin qarşılıqlı münasibətləri müəyyənləşdirilmiş, təlim işləri ilə əlaqədar faydalı metodik göstəriş və məsləhətlər verilmişdir. Bu əlyazmalardan məlum olur ki, mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris edilmişdir. Bu da XII əsr Naxçıvanın hansı səviyyədə inkişaf etməsindən xəbər verir.

Araşdırmalardan belə nəticəyə gəlmək mümkündür ki, qədim və orta əsr əlyazmalarında Naxçıvan haqqındakı qeydlər bölgənin zəngin tarixi keçmişə malik olduğunu göstərir. Bu

əlyazma mətnlərdə Naxçıvan haqqında olan qeydlər Azərbaycan mətnşünaslıq elminin mənzərəsi ilə yanaşı, Muxtar Respublikanın mədəniyyət və ədəbiyyat tarixinin öyrənilməsi baxımından xeyli əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Флави Иосиф. Иудейские древности. Санкт-Петербург:1900, I том, 345 с.
2. Məmmədov R.M. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977. 158 s.
3. Haciyev İ.M, Amanoğlu E.A. Tarihte ve günümüzde Nahçıvan. Ankara: 1998, 92 s.
4. Ələsgərov A.M. Gəmiqaya öyrənilir. // "Kəlam" elmi ədəbi ictimai jurnal // №2, (2), Bakı: 2002, s. 46.
5. Novruzlu Ə.İ, Baxşəliyev.V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1993, 108 s.
6. Təbrizi Qətran. Divan. Bakı: Elmlər Akademiyası, 1967, 440 s.
7. Əlizadə S.V. Müdrikliyin sönməz işığı-Oğuznamə. Bakı: Yazıçı,1987, 432 s.
8. Rəşidəddin Fəzlullah. Oğuznamə. Bakı: Azərnəşr. 1992, 72 s.
9. Kitabi-Dədə Qorqud, Bakı: Yazıçı, 1988, 266 s.
10. Babayev S.Y. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı: XXI-yeni nəşrlər evi, 1999, 224 s.
11. Naxçıvan Ensiklopediyası. 2 cilddə II cild, Naxçıvan: Əcəmi, 2005, 379 s.
12. Əhməd ibn Əcəm əl-Kufi. Fəthlər kitabı. Bakı: Azərnəşr, 1995, 200 s.
13. Təbrizi Qətran. Divan. Bakı: Elmlər Akademiyası, 1967, 440 s.
14. Naxçıvan Ensiklopediyası. 2 cilddə I cild, Naxçıvan: Əcəmi, 2005, 359 s.

Сабухи Ибрагимов

## ЗАМЕТКИ О НАХЧЫВАНЕ В ДРЕВНИХ И СРЕДНЕВЕКОВЫХ РУКОПИСЯХ

### РЕЗЮМЕ

В статье проведен анализ заметок о Нахчыване, содержащихся в рукописях древности и средневековья, в результате проведенных исследований выявлено, что регион был центром не только Азербайджана, но и всей человеческой цивилизации. Также определено, что Нахчыван, будучи древним тюркским краем, также наряду с этим является одним из центров культуры, ремесел, экономики и торговли Востока.

При изучении заметок о Нахчыване в рукописях, относящихся к Средним векам, выявлено, что большое значение для региона имели записи, относящиеся к вакуфным имениям мавзолея, построенного в 1186 году для Момине Хатун. Эту рукопись можно назвать «Уставом» медресе Нахчывана. Здесь определены вопросы управления медресе, руководства процессом обучения, взаимоотношения учителей богословия и студентов, приведен ряд полезных методических указаний и педагогических советов.

Sabuhı Ibrahımov

## NOTES CONCERNING NAKHCHIVAN IN ANCIENT AND MEDIEVAL MANUSCRIPTS

### SUMMARY

Analysis of the notes concerning Nakhchivan contained in antique and medieval manuscripts has been carried out in the paper; it has been revealed by research that this region was once the center not only of Azerbaijan, but of all human civilization. It has been also ascertained that Nakhchivan as an ancient Turkic region also is one of the centers of culture, crafts, economy and trade of the East.

When studying notes on Nakhchivan in the manuscripts relating to the Middle Ages, we have revealed that records relating to the devised estates of the mausoleum built in 1186 for Momina Khatun are of great importance for the region. This manuscript can be called the "Charter" of the Nakhchivan madrasah. The issues of madrasah management, guidance of teaching process, the relationship of theology teachers and students are determined here; a number of useful methodical directions and pedagogical advices is given.

# TARİXDƏ YAŞAYAN DÜNYA ŞÖHRƏTLİ ALİM

***(Nəsirəddin Tusinin vəfatının 745 illiyi münasibəti ilə)***

***Aytək MƏMMƏDOVA,***
*AMEA-nın Fəlsəfə İnstitutu*
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*aparıcı elmi işçi, dosent*
*a.z.m-9@mail.ru*

***AÇAR SÖZLƏR:*** *Nəsirəddin Tusi, Şərq peripatetizmi, din, fəlsəfə, elm.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Насираддин Туси, Восточный перипатетизм, религия, философия, наука.*
***KEY WORDS:*** *Nasir ad-Din Tusi, Eastern peripateticism, religion, philosophy, science.*

Ensiklopedik alim Nəsirəddin Tusi elmin müxtəlif sahələrinə dair qiymətli əsərləri ilə elm və mədəniyyət tarixində özünəməxsus yeri olan dahi şəxsiyyətdir. Əbu Cəfər Nəsirəddin Məhəmməd ibn Məhəmməd ibn Həsən Tusi Xorasan vilayətinin Tus şəhərində anadan olmuşdur. Bəzi mənbələrdə qeyd edilir ki, onun əsli Zəncanla Həmədan arasında yerləşən Savə şəhərindəndir, Tusda doğulduğu üçün Tusi (ət-Tusi) nisbəsi ilə tanınmışdır. Mütəfəkkirin doğum tarixinə gəldikdə, bu barədə müxtəlif məlumatlar mövcuddur. Lakin mənbələr əsasında bu qənaətə gəlmək mümkündür ki, Nəsirəddin Tusi 1201-ci il fevralın 17-də anadan olmuşdur.

Nəsirəddin Tusinin milli mənsubiyyəti ilə əlaqədar məsələ hər zaman aktualdır. Alimin şagirdi və davamçısı İbn əl-Füvətinin (1244-1326) göstərdiyi bir fakt onun milli mənsubiyyətinin türk mənşəli olmasının sübutu üçün xüsusi əhəmiyyət daşıyır. Qeyd etmək lazımdır ki, 1258-ci ildə monqollar Bağdadı işğal edərkən İbn əl-Füvəti əsir düşmüş, 1261-ci (659) ilin əvvəllərindən Nəsirəddin Tusinin yanında yaşamışdır. İbn əl-Füvəti yazmışdır ki, Nəsirəddin Tusi Marağaya gələndə oradakı zadəgan ailəsindən olan Fəxrəddin Loğman Məhəmməd oğlu Marağı ilə görüşüb ona belə bir tapşırıq vermişdir: Ərbil, Mosul və Əlcəzirəyə getsin, son 40 il ərzində Marağa və Təbrizi tərk etmiş ailələri vətənə qayıtmağa razı salsın. Fəxrəddin Marağı 500-ə qədər ailəni geri qaytara bilmişdi. Bu, Azərbaycan alimi Nəsirəddin Tusinin öz həmvətənlərinə dərin məhəbbət hissini ifadə edir [1, s.14].

Filosof ziyalı mühitində böyümüş, atasından və dayısından təhsil almış, sonra Xorasana getmiş və orada dövrün məşhur alimlərinin mühazirələrini dinləmişdir. Nəsirəddin Tusi XIII əsrin iyirminci illərində Nasirəddin Möhtəşəmin dəvəti ilə Xuzistana getmiş, İsfahanda olmuşdur. Alimin yaradıcılığı ensiklopedik səciyyə daşımaqla yanaşı, bəşəriyyətin elm və fəlsəfə tarixində əzəmətli yer tutmuşdur.

Türkiyənin görkəmli mütəfəkkiri Hilmi Ziya Ülkən (1901-1974) XIII əsrin İsmaili məzhəbinin ən parlaq dövrü olduğu və Xorasanda bu məzhəbə mənsub alimlərin toplandığını

xatırladarkən qeyd edir: "İsmaili məzhəbinin ən məşhur simalarından biri Xuzistan valisi Nasirəddin Əbülfəth ibn Mənsur idi və özü ədəbiyyatçı olduğu kimi ətrafına da dövrün tanınmış təsəvvüf, fəlsəfə və riyaziyyatçı alimlərini toplayırdı. Xoca Nəsirəddin Tusi prinsip baxımından İsmailliliklə eyni əsldən olan İmami məzhəbindən olduğu üçün Nasirəddinin məclisinə qatılmaqda gecikmədi və orada çox yaxşı qarşılandı" [2, s.132].

Nəsirəddin Tusi sonralar bəzi narazılıqlara görə İsmaililər hökmranlığının iqamətgahı olan Ələmut qalasına salınmışdı. Mütəfəkkir Ələmutda olan zəngin kitabxanadan istifadə edərək elmi yaradıcılıqla məşğul olmuşdu. Lakin filosofa qaladan kənara çıxmaq qadağan edilmiş və burada, bir növ, sürgün həyatı keçirmişdir. Hülakü xan 1256-cı ildə Ələmut qalasını tutub İsmaililər dövlətinin hakimiyyətinə son qoyduqdan sonra Nəsirəddin Tusi azad olmuşdur.

Hülakü xan bu qələbəsindən sonra 1258-ci ildə Bağdad şəhərini tutaraq xəlifə Müstəsimi (1242-1258) öldürmüş, bununla da Abbasilər sülaləsinin 500 ildən artıq hökm sürən hakimiyyətinə son qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, təəssübkeş İslam ideoloqları Abbasilər xilafətinin süqutunda və xəlifənin öldürülməsində Nəsirəddin Tusinin səbəbkar olduğunu yazmaqla onu İslam düşməni və qəddar adlandırmışlar.

Tarixçi, ictimai xadim Fəzlullah Rəşidəddin (1247-1318) 1258-ci ildə Hülakü xanın Bağdada hücum edib xəlifəni öldürməsi hadisəsini təsvir etmişdir. Onun fikrincə, Hülakü xan əvvəlcə Nəsirəddin Tusi ilə məsləhətləşmiş, xəlifənin qeyri-adi, müqəddəs şəxs olub-olmadığını soruşmuşdur. Nəsirəddin Tusi bir alim kimi düzünü demiş, xəlifənin adi adam olduğunu bildirmişdir [3, III, s.38-39]. Beləliklə, bu hadisəyə görə filosofu qətlin səbəbkarı, qəddar və İslam düşməni saymağa heç bir əsas yoxdur.

Tarixçi İbn Kəsir (1301-1372) həmin hadisəyə obyektiv mövqedən yanaşmış və bu işdə Nəsirəddin Tusini müqəssir saymamışdır. O yazır ki, bu iş Nəsirəddin Tusi kimi "bir aqildən və fazildən meydana çıxmayıb. Bəzi bağdadlılar onu xatırlayıb həmd-səna etmişlər. Demişlər: o, aqil, fazil və yaxşı xasiyyətli idi".

Həqiqətən, Nəsirəddin Tusi insanlara əlindən gələn yaxşılıqları etməklə onları hökmdarın qəzəbindən qorumuşdur. Humanist filosof həmişə günahsız dustaqların azad edilməsinə çalışmışdır. Bir mənbədə deyilir ki, o, ölüm cəzası gözləyən alim həmkarı Cüveynini xilas edə bilmişdir. İbn əl-Füvətinin və onun qardaşı Bədrəddin Əbdülvəhhabın xilası da bu qəbildəndir. Bütün bunlar filosofun xeyirxahlığından xəbər verir. Nəsirəddin Tusi "Nasir etikası" ("Əxlaqi Nasiri") və b. əsərlərində təbliğ etdiyi yüksək insani xasiyyətlərə, ilk növbədə, özü əməl etmişdir.

Səlahəddin Səfədi (1296-1363) Nəsirəddin Tusinin şəxsi keyfiyyətlərinə diqqəti yönəldərək yazırdı: "Tusi alicənab, səxavətli, comərd, həlim, xoşrəftar, fəzilətləri sanballı, qədr-qiyməti böyük idi". Türk tarixçisi Kərim Aqsarayi (XIII-XIV əsrlərin qovşağı) "Xəbərlər söyləmə və seçilmişləri müşayət etmə" kitabında Nəsirəddin Tusinin şəxsiyyətini, elmi fəaliyyətini yüksək qiymətləndirmişdir.

XV-XVI əsrlərdə Əbdürrəşid Bakuvi, Qiyasəddin Xandəmir (1475-1535) də Nəsirəddin Tusini görkəmli alim kimi yad etmişlər. Qiyasəddin Xandəmir "Həbib əs-siyər" əsərində

XIII əsrin tarixi hadisələri ilə bağlı filosofun siyasi və elmi fəaliyyətindən ətraflı bəhs etmişdir. XVII əsrdə Hacı Xəlifə (1608-1670) "Kitabların və fənlərin adlarından zənlərin açılması" kitabında Nəsirəddin Tusinin əsərləri və onlara yazılmış şərhlər, haşiyələr barədə dolğun məlumat vermişdir.

Nəsirəddin Tusi 1274-cü (18 zülhiccə 672) il iyunun 25-də Bağdadda vəfat etmişdir. Öz vəsiyyətinə uyğun olaraq İmam Musa Kazımın türbəsində, İraqda Bağdad yaxınlığında yerləşən Kazımeyn şəhərində dəfn edilmişdir. Bu yerdə on iki imamdan yeddincisi və doqquzuncusu Musa ibn Cəfər əl-Kazım və onun nəvəsi Məhəmməd ibn Əli əl-Təqi dəfn olunduğu üçün Kazımeyn (İki Kazım) adlanmışdır. Nəsirəddin Tusi hicri təqvimi ilə 47 il hakimiyyətdə olmuş xəlifə Nasir li-Dinillah üçün hazırlanmış, lakin müəyyən səbəblərə görə boş saxlanmış sərdabədə dəfn edilmişdir. (Rəvayətə görə, sərdabə 17 fevral 1201-ci ildə tamamlanmışdır. Həmin gün isə Nəsirəddin Tusi anadan olmuş, hicri təqvimi ilə 75 il 7 ay 7 gün yaşamışdır).

Nəsirəddin Tusinin vəfatı ağır itki kimi elmi ictimaiyyəti sarsıtmışdır. Bundan təsirlənmiş Fəzlullah Rəşidəddin yazırdı:

*Onun ölümü ilə fəzilətlər və elmlər öldü,*
*Qoy fəzilətlər və elmlərdə salamatlıq olsun!*

"Fəzilətlər və elmlərin salamatlığında" Nəsirəddin Tusinin xidməti misilsizdir. Onun yaratdığı Marağa rəsədxanasının alimlərinin sorağı zaman keçdikcə Təbriz, Səmərqənd və Pekin rəsədxanalarından gəlməyə başlamışdır.

Elmi-fəlsəfi əsərləri isə sonrakı alimlər, filosoflar üçün örnək olmuşdur. Nəsirəddin Tusiyə fövqəladə qabiliyyətinə, dərin zəkasına görə "on birinci əql" demişlər. Belə ki, Şərq peripatetizminin sistemini yaratmış Əbu Nəsr Fərabi özünün emanasiya nəzəriyyəsində "on əql" doktrinasını vermişdir. Onuncu və sonuncu fəal əql Ay göyünə mənsub olunur. Nəsirəddin Tusiyə "on birinci əql" deməklə onun misilsiz idrak sahibi olmasına işarə edirdilər. Alimin dini və dünyəvi elmlərə dair qiymətli traktatları öz şagirdləri və sonrakı əsrlərdə yaşamış mütəfəkkirlər üçün örnək olmuşdur.

Hilmi Ziya Ülkən Azərbaycan filosofunun "Nasir etikası" əsərində Aristotelin "Nikomaxın etikası" ilə Qəzalinin təsəvvüfün əxlaq görüşünü uzlaşdırmağa çalışdığını qeyd edərək, İslam aləmində ilk dəfə sistemli əxlaq kitabı yazdığını bildirmişdir. Nəsirəddin Tusinin dünyagörüşü – fəlsəfəsi və etik, ictimai-siyasi görüşləri öz dəyərinə görə bütün dövrlərdə aktuallıq qazanmışdır. Mütəfəkkir Şərq peripatetizmi xəttini əsas tutaraq öz sələflərinin ideyalarını yaradıcı surətdə davam etdirmişdir.

İbn Sinanın "İşarələr və qeydlər" kitabı müxtəlif dövrlərdə mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur. Şərhçilərin bu kitaba münasibəti müəyyən mənada onların fəlsəfə tarixində tutduqları mövqeyi ifadə edirdi. Mütəkəllimlər (sxolastlar) bu qiymətli əsəri, əsasən təkzib etməyə çalışır, peripatetik filosoflar isə elmi fəlsəfə tərəfində durur, mütərəqqi fikirlərin təhrifinə yol vermirdilər. Mütəkəllim Fəxrəddin Razinin və filosof Nəsirəddin Tusinin şərhləri bu ideya mübarizəsinin aparıcı istiqamətlərini təmsil edirdi.

Azərbaycan filosofu sonralar həmin şərhə qarşı özünün şərhini yazmışdır. O, “İşarələr və qeydlər” kitabına yazdığı şərh üzərində iyirmi ilə yaxın işləmiş və onu 1246-cı ildə Ələmut qalasında həbsdə olarkən tamamlamışdır.

Nəsirəddin Tusinin şərhində İbn Sinanın mütərəqqi fəlsəfi fikirləri təəssübkeş İslam ideoloqlarının hücumlarından cəsarətlə qorunmuş, inkişaf etdirilmişdir.

Nəsirəddin Tusi fars dilində yazdığı “İqtibasın əsası” (“Əsas əl-iqtibas”) əsərini 1244-cü ildə tamamlamışdır. Hilmi Ziya Ülkən “İqtibasın əsası” əsərini “çox ətraflı yazılmış ən böyük məntiq kitabı” kimi dəyərləndirmişdir [2, s.134].

Nəsirəddin Tusinin yaradıcılığında imamət mövzusu geniş yer tutur. Buna onun “Kəlamın təcridi” (“Təcrid əl-kəlam”), “Nəsir fəsilləri” (“Füsul nəsiriyyə”) və xüsusən “İmamətə dair traktat” (“Risalə fi-l-imamə”) əsərləri parlaq nümunələrdir.

Ensiklopedik alim yaradıcılığında dəqiq elmlərdən bəhs edən əsərlərlə bərabər, bir sıra fəlsəfi əsərin də müəllifidir. Onlardan “Mövcudatın bölgüsü və onun qisimləri” (“Qismət-e maucudat va əqsam-e an”), “Vacib varlığın isbatı” (“İsbat əl-vacib”), “Elmin təhqiqi” (“Təhqiq əl-elm”), “Başlanğıc və son” (“Ağəz və əncam”), “Elm öyrənənlərin ədəb-ərkanı” (“Adab əl-mütəallimin”) kitabları çap edilmişdir.

Nəsirəddin Tusi fəlsəfi təlimində, xüsusilə idrak nəzəriyyəsində sufi və işraqi ideyalardan təsirlənmiş, həmin təlimlərin bəzi doktrinalarından, habelə İslam dininin müqəddəs kitabı Qurandan bəhrələnmişdir. Lakin bu təsir bəzən terminoloji, zahiri səciyyə daşıyır. Məsələn, filosofun işlətdiyi ifadələrdə təsəvvüf boyası ilə, mistik məzmunla məntiqi intuisiyanın ifadə edilməsi özünü göstərir. Nəsirəddin Tusinin ictimai-siyasi görüşləri onun etik görüşlərinin, bir növ, davamıdır. Burada insan və cəmiyyət münasibəti araşdırılır, ailəni və dövləti idarəetmə məsələləri təhlil edilir, nəzəri fikirlər irəli sürülür. Azərbaycan filosofunun idarəetmə nəzəriyyəsində insanın özünü, ailəsini və dövləti idarə etməsindən bəhs olunur. Mütəfəkkir bu məsələdə də, ilk növbədə, öz sələflərinə istinad edir.

Nəsirəddin Tusi insanın özünü idarə etməsini onun idrak fəaliyyətini artırmasında, kamillik yolunu tutmasında görür. Özünü idarəetmədən sonra gələn ailəni idarəetmə işində ailə üzvlərindən hər birinin vəzifəsi, fəaliyyəti, qarşılıqlı münasibəti göstərilir. İdarəetmə nəzəriyyəsində dövlət idarəçiliyi yüksək pilləni təşkil edir. Monqol hökmdarları alimlərə böyük rəğbət bəsləmiş, elm və mədəniyyətin inkişafına xüsusi diqqət yetirmişlər. Nəsirəddin Tusinin başçılığı ilə Marağa şəhərində inşa edilmiş rəsədxana buna parlaq misaldır. Belə ki, Marağa rəsədxanası təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində böyük elmi-mədəni hadisə idi. Bununla da mütəfəkkir 1259-cu ildə təsis etdiyi Marağa rəsədxanasına görə bəşər elminin inkişafında misilsiz xidmət göstərmişdir. Fəzlullah Rəşidəddin “Salnamələr toplusu” kitabında göstərmişdir ki, Hülakü xan alimə özünün münasib bildiyi bir yerdə ulduzları müşahidə etmək üçün bina tikməsinə razılıq verir. Nəsirəddin Tusi Marağa şəhərini seçir və əzəmətli rəsədxana inşa etdirir [3, III, s.48-49].

Rəsədxanada çalışan alimlər astronomik müşahidələr aparmaqla, yanaşı, bütün elm sahələrində dərin tədqiqatlarla məşğul idilər. AMEA-nın müxbir üzvü Zakir Məmmədov

bu barədə yazmışdır ki, 1266-cı ildə Marağa rəsədxanasında işləyən azərbaycanlı mühəndis Kəriməddin Əbubəkr Mahmud oğlu Salmasi kağızı həll edir, alınan xəmirdən alətlər və cihazlar düzəldirmiş. Zakir Məmmədov mənbələr əsasında sübut etmişdir ki, Kəriməddin Salmasi rəsədxanada içiboş Yer kürəsi modelini hazırlamış, onun üzərində iqlimlərin təsvirini vermişdir. Əlbəttə, bu, coğrafi qlobus idi. Halbuki elm aləmində elə hesab edirlər ki, ilk coğrafi qlobus alman coğrafiyaçısı və səyyahı Martin Böhaym (1459-1507) hazırlamışdır [4, s.187; 5, s.185].

Marağa rəsədxanasında aparılan tədqiqatların sonrakı əsrlərdə elmin inkişafına böyük təkan verdiyini bildirən professor Həbibulla Məmmədbəyli rəsədxanada görülən çox dəyərli elmi işlərdən birinin coğrafi koordinatlar cədvəlinin tərtib edilməsi olduğunu qeyd etmişdir: "Zic Elxani"də 256 şəhərin coğrafi enlik və uzunluq koordinatları verilmişdir. Bu cədvəl XIII əsrdə Azərbaycan alimlərinin coğrafi biliklərinin yüksək səviyyədə olduğunu göstərir. Cədvəlin coğrafiya elminin inkişafında böyük, Amerikanın kəşfində isə müəyyən dərəcədə əhəmiyyəti olmuşdur [5, s.98].

Nəsirəddin Tusinin yaradıcılıq yolu həm şagirdləri, həm də övladları – Sədrəddin Əli, Əsiləddin Həsən və Fəxrəddin Əhməd tərəfindən davam etdirilmişdir. Sədrəddin Əli atasının ölümündən sonra Marağa rəsədxanasına rəhbərliyi öz üzərinə götürmüşdür. Riyaziyatçı və şair kimi tanınan Əsiləddin Həsən həm elmi fəaliyyət göstərmiş, həm də dövlət işlərində çalışmışdır. O, Qazan xan ilə Şama getmiş, sonra Bağdadda mənsəb tutmuşdur. Nəsirəddin Tusinin kiçik oğlu Fəxrəddin Əbülqasım Əhməd riyaziyyatçı, astronom olmuş, vəqflərin müdiri işləmişdir. Fəxrəddin Əhməd Abaqa xanın oğlu Arqun xan zamanında xidmət etmiş, 27 avqust 1301-ci ildə Sivasda öldürülmüşdür. Cənazəsi Marağaya gətirilmiş, qardaşının yanında dəfn olunmuşdur. Mənbələrdə qeyd edilir ki, Əvhədi Marağayi "Dəhnamə" məsnəvisini Nəsirəddin Tusinin nəvəsi Xacə Ziyaəddin Yusif ibn Əsiləddin Həsənin adına 1306-cı ildə nəzmə çəkmişdir. Lakin onun hansı ixtisas sahibi olması, nə kimi mövqe tutması məlum deyildir.

Marağa rəsədxanasında çalışanlar və onun nəzdindəki məktəbdə təhsil alanlar Nəsirəddin Tusinin yaradıcılıq yolunu davam və inkişaf etdirmişlər. Nəcməddin Qəzvini (1203-1277), Qütbəddin Şirazi (1236-1311), Əllamə Cəmaləddin Həsən Hilli (1250-1326) və başqaları bu məktəbin nümayəndələridir.

Ensiklopedik alim elmi-fəlsəfi təlimlərdən panteizmə və işraqiliyə ciddi maraq göstərmiş, onların nəşət edib yayılmasına şərait yaratmışdır. Zakir Məmmədov Şihabəddin Sührəvərdinin əsərlərinin, xüsusən onun işraqilik fəlsəfəsinin Nəsirəddin Tusinin istedadlı şagirdi Qütbəddin Şirazi tərəfindən müfəssəl araşdırıldığını bildirmişdir. Peripatetik filosof sufizmin fəlsəfəsi ilə də dərindən maraqlanmışdır. Azərbaycanda Eynəlqüzat Miyanəcinin fəlsəfi irsinin yeganə tədqiqatçısı Zakir Məmmədovun bildirdiyi kimi, Nəsirəddin Tusi sufizmin panteist fəlsəfəsinin əsaslarını ifadə edən, sufi-fəlsəfi ədəbiyyatın şah əsərini – Eynəlqüzat Abdulla Miyanəcinin "Həqiqətlərin məğzi" ("Zübdət əl-həqaiq") traktatını ərəb dilindən fars dilinə tərcümə etmişdir.

Nəsirəddin Tusinin fəlsəfi məktəbinin nümayəndələri də müəllimləri kimi elmi yaradıcılıqla yanaşı, özlərinin məktəblərini yaradaraq "müəllim-şagird" silsiləsini, ənənəsini davam etdirmişlər.

Beləliklə, “haqlı filosof” (“feyləsuf bi-l-həqq”), “mütləq müdrik” (“həkim mütləq”), “ən böyük ağa” (“əl-maula əl-əzəm”), “həqiqətlərin təzahür yeri” (“məzhər əl-həqaiq”), “incəliklərin yaradıcısı” (“mübdi əd-dəqaiq”), “bəşər ustadı” (“ustad əl-bəşər”) fəxri adlarını daşıyan Nəsirəddin Tusinin irsi yaradıcı ziyalılar üçün örnək olmuşdur. Həmin dəyərli irsin əsasında qələmə alınmış dolğun şərhlər, haşiyələr və izahatlarla birlikdə əsrlər boyu mədrəsələrdə tədris edilərək geniş yayılmışdır. Azərbaycan filosofunun ayrı-ayrı millətlərin müxtəlif əqidəli yüzdən çox nümayəndəsinin inşa etdiyi Marağa rəsədxanasında işləməsinə lazımi şərait yaratması onun humanizminin ifadəsidir. Nəsirəddin Tusinin fəlsəfi məktəbinin nümayəndələri, Marağa rəsədxanasında çalışan alimlər öz fəaliyyətləri ilə nəinki Azərbaycanda, həmçinin Şərq ölkələrində şöhrət qazanmış, dünya mədəniyyəti xəzinəsinə əvəzsiz töhfələr bəxş etmişlər.

## ƏDƏBİYYAT


1. Məmmədova Aytək. Nəsirəddin Tusinin dünyagörüşü. Bakı: 2000
2. Ülken Hilmi Ziya. İslam felsefesi kaynakları ve tesirleri. Ankara: 1967
3. Рашид ад-дин Фазлуллах. Джами ат-таварих. Перевод с персидского языка А.К.Арендса, т. III, Баку: 1957
4. Məmmədov Zakir. Bəhmənyarın fəlsəfəsi. Bakı: 1983
5. Məmmədbəyli H.C. Nəsirəddin Tusi. Bakı: 1968

Айтек Мамедова

## ЖИВУЩИЙ В ИСТОРИИ ВСЕМИРНО ИЗВЕСТНЫЙ УЧЕНЫЙ
### *(по случаю 745-ой годовщины со дня кончины Насираддина Туси)*

РЕЗЮМЕ

В статье отмечается важная роль ученого-энциклопедиста Насираддина Мухаммада Туси (1201-1274) в обогащении мировой науки и философии. Подчеркивается, что обсерватория, построенная под его руководством в Мараге в 1259 году, является крупным научно-культурным событие не только в Азербайджане, но и во всех мусульманских странах Востока. Последователи выдающегося представителя восточного перипатетизма Насираддина Туси также обладали энциклопедическим наследием. Азербайджанский философ представлен в научных источниках такими почетными званиями как мудрый, умный, великая личность и т.д.

Aytek Mammadova

## WORLD-RENOWNED SCHOLAR LIVING IN HISTORY
### *(on the occasion of the 745th death anniversary of Nasir ad-Din Tusi)*

SUMMARY

The important role of the encyclopedic scholar Nasir ad-Din Muhammad Tusi (1201-1274) in enriching world science and philosophy is noted in the article. The observatory, built under his leadership in Maragha in 1259, is emphasized as an important scientific and cultural event not only in Azerbaijan, but also in all Muslim countries of the East. The followers of the prominent representative of eastern peripateticism Nasir ad-Din Tusi also had an encyclopedic heritage. The Azerbaijani philosopher is represented in scientific sources by such honorary titles as a wise, intelligent, great personality, etc.

# ELİTAR VƏ KÜTLƏVİ MƏDƏNİYYƏTLƏR: MÜQAYİSƏLİ TƏHLİL

***Məhsəti CƏFƏROVA,***
*AMEA-nın Fəlsəfə İnstitutunun dissertantı*
*mehseti.ceferova@inbox.ru*

***AÇAR SÖZLƏR:*** *Milli elita, kütləvi mədəniyyət, milli-mənəvi dəyərlər, qloballaşma, elitar təbəqə.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *национальная элита, массовая культура, национально-духовные ценности, глобализация, элитарное сословие.*
***KEYWORDS:*** *national elite, mass culture, national and spiritual values, globalization, elite class.*

## Giriş

Cəmiyyətin inkişafında və ictimai şüurun formalaşmasında mühüm rol oynayan mədəni dəyərlərin istehsalı və istehlakının xüsusiyyətləri kulturoloqlar tərəfindən mədəniyyətin iki sosial formasının mövcudluğunu ortaya qoymağa imkan verir: elitar və kütləvi mədəniyyət. Bir çox kulturoloq və filosof mədəniyyətin bu iki sosial formasının çözümünü, cəmiyyətin inkişafında rolunu müəyyən etməyə çalışıblar. Azərbaycan mədəniyyəti dünya mədəniyyətinin tərkib və ayrılmaz hissəsi olduğundan bütün bu qanunauyğunluqlar onun üçün də aktualdır. Bu baxımdan milli mədəniyyətimizdə də həmin sosial formalar mövcuddur. Mədəni həyatda elitar və kütləvi mədəniyyətin müqayisəli təcəssümünü göstərmək, bunu qanunauyğun proses kimi çözmək, elmi-nəzəri izah vermək tədqiqatımızın əsas məqsədidir.

### *Kütləvi mədəniyyət*

Kütləvi mədəniyyət anlayışı mədəni məhsulu istehlak edənlərin say çoxluğu ilə bağlıdır. Millətindən, irqindən, konkret bir regionda, yaxud ölkədə dünyagörüşündən və mədəni inkişaf səviyyəsindən asılı olmayaraq, ondan hər kəs istifadə edə bilir. Kütləvi mədəniyyət barədə kulturoloqların qənaətlərini birmənalı qəbul edərək belə mədəniyyəti aşağı səviyyəli adlandırmaq doğru olmaz. Çünki bu gün kütlənin daha savadlı və informasiyalı olması gerçəklikdir. Kütləvi mədəniyyətin istehlakçıları da sadəcə "izdiham" deyil, müxtəlif vasitələrlə bir-biri ilə bağlanan fərdlərdir. Məhz bu baxımdan kütləvi mədəniyyəti cəmiyyət tərəfindən mənəvi dəyərlərin istehsalı və istehlakı kimi qəbul etmək lazımdır. Lakin onun tirajlılığı və konveyerliliyi inkar edilə bilməz.

Kütləvi mədəniyyət XX əsrdən etibarən KİV-in köməyi ilə inkişafını daha da sürətləndirməyə başlayıb. Sözügedən dövrdə kütləvi şəkildə qəzetlər, jurnallar, digər təbliğat vasitələri – radio, televiziya, müxtəlif janrlarda çəkilmiş kinofilmlər, internet resursları, digər texniki vasitələrin inkişafı, telefondan istifadənin həddindən çox sürətli xarakter alması, müxtəlif xalqların folklorunun, əsatir və nağıllarının, hətta adət-ənənələrin kölgədə qalmasına səbəb olurdu [1,

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

s.351]. Bu vəziyyətin müsbət və mənfi cəhətləri artıq özünü qabarıqlığı ilə göstərir və təsir dairəsi daha da artırdı. Müsbət mənada ayrı-ayrı xalqların kütləvilik müstəvisində bir-birinin tarix və mədəniyyətlərini daha yaxından, dəqiqliklə öyrənmələri, xalqlar arasında mədəni, iqtisadi, ideoloji, sosioloji və psixoloji əlaqələrin yaranması, mənəvi yaxınlaşmalara gətirib çıxarır, nəticədə isə "dünyəvi mədəniyyət" anlayışı formalaşırdı. Mənfilik baxımından isə müxtəlif xalqların adət-ənənələrinin, folklorunun, mərasimlərinin getdikcə yaddaşlardan silinməsi təhlükəsi ortaya çıxırdı ki, bu da təhrif və mənəvi aşınma kimi qorxulu nəticələrə gətirib çıxarırdı. Beləliklə, "yeninin" təsir gücünün artması, "köhnənin" isə silinməsi kimi hallar baş verirdi.

Kütləvi mədəniyyət əsərlərinin yaradılmasında əsas məqsəd mənfəət, maddi gəlir əldə etmək olduğundan o, kütlənin tələbatına uyğun hazırlanır.

Müasir dövrdə ölkəmizdə lentə alınan televiziya serialları kütləvi mədəniyyətə ən bariz nümunədir: özəl televiziya kanallarımız kütləvi mədəniyyətin istehsalçısı qismində çıxış edir. Onların yayımladıqları serialların və televiziya verilişlərinin əksəriyyəti kütlənin tələbatı nəzərə alınaraq hazırlanır.

### *Elitar mədəniyyət*

Bəzi kulturoloqlar elitar mədəniyyətin mahiyyətini "mədəniyyət – mədəniyyət üçündür" və ya "sənət – sənət üçündür" tezisi ilə ifadə edirlər. Onlar mədəniyyət və incəsənəti "yalnız bir qrup insanın malı" sayır, xalq kütlələrinin bu zəngin mənəvi sərvətdən məhrum olduqlarını, onu başa düşmədiklərini bildirirlər. Bu konsepsiyanın müəlliflərinin fikrincə, mədəniyyəti yaradan da, istiqamətləndirən də elitar təbəqənin nümayəndələridir. Xalq isə nə onun yaradılmasında, nə də bu sərvətlərdən bəhrələnməkdə iştirak edir.

Göründüyü kimi, cəmiyyətin təbəqələşməsi kimi, mədəniyyətin də təbəqələşməsi məsələsini üzə çıxaran nəzəriyyəçilər elitar mədəniyyəti elitarizmin əsas tərkib hissələrindən biri kimi qiymətləndirirlər. Cəmiyyətin elitasını bəziləri hakim təbəqədə görürsə, digərləri onu idrak ilə əlaqələndirərək bu təbəqəyə yalnız düşünən beyinləri aid edir və onları ictimai tərəqqinin təminatçısı kimi görürlər.

Elitarizmin əsas ideya istiqamətlərindən birini də cəmiyyətdə elitanın mövcudluğunun zərurəti haqqındakı tezis təşkil edir. Həmin tezisə görə, cəmiyyətdə elitanın varlığı ona görə vacibdir ki, o, mədəniyyətin yaradıcısı və sivilizasiyanın təminatçısıdır.

Elitarizmdə olduğu kimi, elitar mədəniyyət haqqındakı konsepsiyaların bir çoxunda elita sinfi mənsubiyyətə görə deyil, əqli və yaradıcı fəaliyyətə əsasən təhlil olunur. Kulturologiyada bu istiqamətin nümayəndələri elitar mədəniyyətin həm istehsalçı, həm də istehlakçılarını elə elitanın özündə təsəvvür edirlər [2].

### *Müqayisəli təhlil*

Elitar mədəniyyətdə yüksək estetik zövqün, ali ideyaların ünsürlərinin mövcud olmasına baxmayaraq, kütləvi mədəniyyət kütlə içərisində populyar xarakter kəsb edir və öz populyarlığına görə elitar mədəniyyətlə rəqabət apara biləcək səviyyəyə çatır. Məsələn, bəstəkar Tofiq Quliyev tərəfindən bəstələnmiş musiqi əsərləri kütləviləşərək populyar olur, illərlə

yaşayır. Bu əsərlər bir tərəfdən milli musiqinin dünya musiqisinə inteqrasiyasını həyata keçirir, dünyəvi xarakter alır, eyni zamanda dünya musiqisini və mədəniyyətini məhz kütləvilik vasitəsi ilə zənginləşdirir. Digər tərəfdən isə Azərbaycan mədəniyyətinin dünya mədəniyyətindəki mövqeyinin dəyərləndirilməsinə imkan yaradır. Beləliklə, Tofiq Quliyev yaradıcılığı vasitəsi ilə həm Azərbaycanda, həm də beynəlxalq aləmdə "kütləvilik estetikası" öz inkişaf xəttini tutur və formalaşır. Eyni zamanda digər yaradıcıların elit təbəqə nümayəndələrinin tanınması, populyarlaşması zəminində Azərbaycan xalqının əsərlərinin, mədəniyyətinin kütləviləşməsi baş verir ki, bununla da fərdin yaradıcılığının həmin xalq tərəfindən kütləviləşməsi, sonuncunun isə dünyəviləşməsi prosesi baş verir. Beləliklə, fərddən xalqa, xalqdan dünyaya "təsir" prosesi baş verir və tarixiləşir. Təbii ki, yaradıcılıq nümunələrinin hamısı kütləviləşə bilməz. Çünki əksəriyyət tərəfindən sevilən və sonralar mərhələlərlə seçilən, qiymətləndirilən yaradıcılıq nümunələri kütləviləşir. Yəni bəsit və bayağı xarakterli əsərlər qısamüddətli olmaqla kütləviləşməyə məruz qalmır. Belə əsərlərin müəllifləri isə tarixiləşmir.

Kütləvi mədəniyyətlə elitar mədəniyyətin təsisçiləri, istehsalçıları və istehlakçıları mənsub olduqları sosial qruplara görə bir-birindən fərqlənirlər. Mədəniyyətin tərkibi təşkil edilən elementlərdən, onun milli və ya bəşəri məzmun kəsb etməsindən asılı olmayaraq, elitar və kütləvi formada sosial qrupların marağına səbəb olur. Kütləvi mədəniyyət nümunələri geniş ölçüdə fəaliyyət göstərdiyindən kütlənin şüuruna təsir etmək məsələsində böyük rol oynayır və önəmli amil kimi çıxış edir. Həm kütləvi, həm də elitar mədəniyyət nümunələri milli məzmunda təzahür edə bilər və bəşəri çalarlarla yüklənmiş milli mədəniyyət milli məzmunlu olmaqla yanaşı, dünya mədəniyyətinin də mühüm elementlərini özündə ehtiva edir.

### *Fərdin elitar mədəniyyətdəki mövqeyi*

Apardığımız müqayisələrdən məlum olur ki, insanın elit fərd kimi formalaşması üçün aşağıdakı məsələlər vacibdir:

1. Mövcud təbii imkanlardan və məlumatlardan, nümunələrdən, materiallardan istifadə etmək bacarığına malik olmaq;
2. Müxtəlif baxışları, əqidələri, həyat tərzlərini müqayisə etməyi, ümumi nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı bacarmaq;
3. Dövrün üzləşdiyi ən aktual problemləri dərk edərək onları dəyərləndirmək, qiymətləndirmək, bir sözlə, obyektiv yanaşma qabiliyyətinə malik olmaq;
4. Zamanın, dövrün ritmini tuta bilmək, baş verəcək hadisələri qabaqcadan sezmək üçün müvafiq nəticələrə nail olmaq bacarığı;
5. İnkişafda olan fərdi şüurla kütləvi şüurun fərqli cəhətlərini təyin etməyi bacarmaq;
6. İntellektual elitanı formalaşdıran şəxsiyyətin yetişməsi üçün lazımi mühiti yaratma mexanizminə nail olmağın yollarını və vasitələrini bilmək;
7. Mövcud adət-ənənə, mənəvi və maddi dəyərlər zəminində fərdin inkişafı istiqamətlərinin təyini.

Beləliklə, fərdin intellektual elitanın üzvü olanadək keçdiyi yol mühitdən, şəraitdən və baş verən hadisələrdən asılı olaraq mürəkkəbliyi ilə fərqlənir.

Ümummili Lider Heydər Əliyev və milli mədəniyyətin tərəqqisi

Tarixilik və varisilik prinsipini özündə bərqərar edən milli mədəniyyət xalqın genetik yaddaşını ehtiva edir. Bu baxımdan da milli mədəniyyət milli özünüdərk prosesinin reallaşmasında, milli kimlik probleminin həll edilməsində mühüm rol oynayır. Tarix boyu Şərqlə Qərbin qovuşduğu ərazidə yaşayan xalqımızın milli-mənəvi dəyərlərinin zənginliyini özündə saxlayan milli mədəniyyətimiz müasir qloballaşma prosesində böyük əhəmiyyət kəsb edir. “Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mənəvi dəyərlərə müəyyən təhlükə meyilləri özünü qabarıq göstərir. Şərq-Qərb sivilizasiyasının bir-birinə yaxınlaşdığı, bəzən də gizli və açıq mübarizələrin getdiyi bir zamanda soy-kökə qayıdışın, milli özünüdərkin böyük əhəmiyyəti vardır. Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiyanın həyata keçirilməsi zərurəti bizim üzərimizə böyük məsuliyyət qoyur” [3, s.54].

Xalqımızın milli mədəniyyətinin tərəqqisində və inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük rol oynadığını qeyd etmək olar. Ulu Öndər həm sovet hakimiyyəti dövründə, həm də müstəqilliyin bərpasından sonrakı dövrdə mədəniyyətə, xüsusilə də milli mədəniyyətə böyük dəyər verirdi. Milli mədəniyyətimizə böyük sevgi və qayğı ilə yanaşan Ümummilli Liderin səyləri nəticəsində həm sovet hakimiyyəti, həm də müstəqillik illərində mədəniyyət xadimlərimiz yüksək fəxri adlara layiq görülür, orden və medallarla təltif olunurdu. “Musiqi sənətimizin inkişafına xüsusi qayğı ilə yanaşan Ulu Öndərin Sərəncamı ilə 24 bəstəkar və musiqişünasa Prezident təqaüdü verilib. Onların bir çoxu “Şöhrət” ordeninə layiq görülüb. Arif Məlikov, Müslüm Maqomayev, Zeynəb Xanlarova, Habil Əliyev, Arif Babayev kimi musiqi xadimləri “İstiqlal” ordeni ilə təltif olunublar.

Azərbaycan kinosunun böyük bir inkişaf dövrü Heydər Əliyevin adı ilə bağlıdır, desək, yanılmarıq. Çünki bir sıra filmlərimizin yaranmasında Ulu Öndərin şəxsi təşəbbüsü olmuşdur. “Uzaq sahillərdə”, “İstintaq”, “Bir cənub şəhərində”, “Nəsimi”, “Babək” filmlərinin yaranmasında və sovet senzurasından keçməsində Heydər Əliyevin səyləri danılmazdır” [4, s.5].

Bu ənənəni Ulu Öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Hazırda ölkəmizdə mədəniyyətə həsr olunmuş beynəlxalq əhəmiyyətli tədbirlər keçirilir, həmçinin milli mədəniyyətimiz dünya arenasında təbliğ olunur. Milli mədəniyyətimizin dünya arenasında yüksək səviyyədə təmsil olunmasında və təbliği sahəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın oynadığı rol da diqqətəlayiqdir. Milli mədəniyyətimizin dünya arenasında təbliğ edilməsi olduqca zəruri və mühümdür. Milli mədəniyyətimizin bu gün həm elitar, həm də kütləvi mədəniyyət formasında öz varlığını davam etdirməsi milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından aktualdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun yaradılmasında əsas məqsəd də elə milli mədəniyyətimizin dünya arenasında təbliğ edilməsidir.

## *Nəticə*

Ölkəmizdə ənənəvi olaraq milli mədəniyyətimizin dünya mədəniyyətinə inteqrasiyası prosesində milli-mənəvi dəyərlərimizin də təbliği və yüksək şəkildə təmsil edilməsində dövlətimiz tərəfindən göstərilən diqqət və qayğı gənclərimizi də ürəkdən sevindirir. Bundan bəhrələnən gənc nəslimizin milli mədəniyyətimizin daha dərindən öyrənilməsi və təbliği sahəsindəki fəaliyyət arenası daha da genişlənməkdədir. Ümumiyyətlə, cəmiyyətimizdə elitar və kütləvi şüurun qarşılıqlı fəaliyyəti məqsədyönlü şəkil alır.

Beləliklə, elitar və kütləvi mədəniyyətlərin tədqiqində sosioloji, sosial-psixoloji və estetik yanaşmaların müqayisəsində elitar və kütləvi mədəniyyətin aparıcı gücü olan elitar və kütləvi şüurun qarşılıqlı fəaliyyətləri məzmununda yaranan ziddiyyətlər vasitəsilə müxtəlif mərhələlər tədqiq edilir. Bu prosesdə həm nəzəri, həm də təcrübi qarşılıqlı əlaqə ümumiləşdirilir.

## ƏDƏBİYYAT

1. Вадим Руднев. Энциклопедический словарь культуры XX века. Санкт-Петербург, издательство АЗБУКА, стр. 859.
2. https://kayzen.az/blog/kulturologiya/9169/elitar-v%C9%99-k%C3%BCtl%C9%99vi-m%C9%99d%C9%99niyy%C9%99t.html
3. Əsədli Minaxanım. Kulturoloji irsin mühafizəsi problerminə dair// “Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf” adlı beynəlxalq konfransın materialları. Bakı: 2012.
4. Əliyev Əlikram. Milli mədəniyyətimiz Heydər Əliyev ideyalarından güc alır // Xalq qəzeti // 2010, 6 may.

Мехсети Джафарова

## ЭЛИТАРНАЯ И МАССОВАЯ КУЛЬТУРА:СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ

### РЕЗЮМЕ

Национальная элита также должна быть заинтересована в развитии политической жизни, науки и экономики и процессе управления ею. Наша национальная культура, наша национальная политика была основана на идеологии азербайджанства. В нынешних условиях стремительного развития мы должны, прежде всего, обратить внимание на формирование национального характера. Существование национальной культуры в чистой форме в рамках движения глобализации является серьезной проблемой. Несмотря на высокое эстетическое удовлетворение и элементы высших идей, массовая культура популярна среди масс и, таким образом, достигает уровня, когда может конкурировать с элитарной культурой. В то же время нельзя также забывать, что история и наследственный фактор играют важную роль в создании национальной культуры. Принимая во внимание этот факт, мы должны осуществить правильную передачу имеющей древнюю историю национальной культуры будущим поколениям.

Mahsati Jafarova

## ELITE AND MASS CULTURES:  COMPARATIVE ANALYSIS

### SUMMARY

The national elite should be involved in the development and management of political life, science and economy. Nowadays our national culture and policy are based on the principle of Azerbaijanism. In the current period of rapid development we should focus on the formation of national character. The issue of the endurance of the national culture in a pure way poses great problems in the context of the movement of globalization. While there exist the components of higher aesthetic pleasure and ideas, the mass culture becomes more popular among the people and therefore, is capable to compete with the elite culture. At the same time, we should bear in mind the fact that the factors of historicity and inheritance play an important role in the formation of the national culture. Considering this fact we have to properly realize the transmission of the ancient national culture to future generations.

# AZƏRBAYCANDA MULTİKULTURALİZM SİYASƏTİ

**_Elbrus SADIQOV,_**
_Azərbaycan Tibb Universitetinin İctimai fənlər kafedrasının dosenti._
**_Nihad ASLANZADƏ,_**
_Azərbaycan Tibb Universitetinin əməkdaşı_

**_AÇAR SÖZLƏR:_** _multikulturalizm, tolerantlıq, din, fəlsəfə, mədəniyyət, tarix._
**_КЛЮЧЕВЫЕ СЛОВА:_** _мультикультурализм, толерантность, религия, философия, культура, история._
**_KEY WORDS:_** _multiculturalism, tolerance, religion, philosophy, culture, history._

Azərbaycan əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm adlandırdığımız sosial münasibətin mövcudluğu və davamlılığını şərtləndirən dinc birgəyaşayış ənənəsini, tolerantlıq, qarşılıqlı hörmət və ehtirama söykənən köklü münasibətləri bütün dövrlərdə görə bilərik. Xalqımızın zəngin multikultural keçmişi təkcə onun bugünkü tolerant yaşam tərzində deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır.

Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində təbliğinin əsaslarını ölkənin dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. İstər Səfəvilər dövləti, istər XIX-XX əsrlərdəki maarifçilik hərəkatı, istərsə də Xalq Cümhuriyyəti dövründə ölkə ərazisində yaşayan müxtəlif etnosların və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyasına çevrilmişdir. O, Azərbaycanda tolerantlıq mədəniyyətinin qorunmasında və ümumilikdə bu sahədə böyük islahatların aparılmasında əvəzsiz rol oynamışdır. Heydər Əliyev deyirdi: "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir". Hakimiyyətə qayıtdığı ilk günlərdən Ulu Öndər bütün dinlərə dövlət tərəfindən bərabər diqqət və qayğı göstərilməsini dövlət siyasətinin prioriteti kimi müəyyən etmişdir. Azərbaycan multikulturalizminin siyasi əsasları onun Konstitusiyasında, fərman və sərəncamlarda, habelə digər qanunvericilik aktlarında öz əksini tapmışdır [1, s.213].

Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti Azərbaycanı çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirmişdir. Ölkəmizin zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması

artıq beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Odur ki, bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin daha da gücləndirilməsini zəruri edir [2, s.75].

Ümummilli Lider Heydər Əliyevin söylədiyi "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, azərbaycanlıyam!" ifadəsi bu gün hər bir ləyaqətli ölkə vətəndaşının həyat düsturuna çevrilmişdir. Onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt isə hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir.

Ölkəmizdə mədəniyyətlərarası dialoqun formalaşmasını şərtləndirən əsas amillərdən biri Azərbaycanın coğrafi baxımdan qərarlaşdığı məkanın Şərqlə Qərbin qovşağında yerləşməsidir. Bu gün iki fərqli sivilizasiya arasında körpü rolunu oynamaqla ölkəmiz bütün dünyada öz nüfuzunu gücləndirməkdədir. Bu ideya dövlətin xarici siyasət kursunda da kifayət qədər öz əksini tapmaqdadır. Belə ki, Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, GUAM kimi mötəbər təşkilatların tamhüquqlu üzvüdür və Avropa İttifaqının həyata keçirdiyi "Şərq tərəfdaşlığı" layihəsi çərçivəsində Avropaya inteqrasiya prosesini uğurla davam etdirir. Bunlarla yanaşı, burada millətlər və dinlər arasındakı münasibətlərə, dialoqa və multikulturalizmə həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbir, elmi konfrans keçirilir. Məsələn, 2010-cu ilin aprelində dünyanın müxtəlif ölkələrini təmsil edən 200-dən çox nümayəndənin iştirakı ilə Bakıda "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda tədbir baş tutmuşdur. Bu qəbildən olan tədbirlər Azərbaycanın beynəlxalq aləmdə tanınması, tolerantlıq mühitinin genişlənməsi və inkişafının nəticəsidir. 2011-ci ildən başlayaraq isə cənab Prezidentin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bu Forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, ISESCO və BMT-nin Dünya Turizm Təşkilatının tərəfdaşlığı ilə reallaşdırılır [3, s.25]. Bundan başqa, BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna da Azərbaycan ev sahibliyi etmişdir.

26 noyabr 2015-ci ildə Bakıda keçirilən İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş Konfransının XII sessiyasında çıxış edən Prezident İlham Əliyev demişdir: "Biz tam əminik ki, multikulturalizmin gözəl gələcəyi var. Sadəcə olaraq bəzi siyasətçilər, ictimai xadimlər öz çıxışlarında daha da diqqətli olmalıdırlar. Çünki multikulturalizmin alternativi yoxdur. Alternativ ayrı-seçkilikdir, diskriminasiyadır, islamofobiyadır, ksenofobiyadır. Bu, gələcəyə aparan yol sayıla bilməz. Ona görə, biz bu bölgədə öz siyasətimizlə və təşəbbüslərimizlə dinlərarası münasibətlərin gücləndirilməsi üçün çalışırıq və çalışacağıq" [4].

Ölkə başçımızın dediyi kimi, "Bu gün multikulturalizmin alternativi yoxdur" və mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə liderə çevrilməsi, dünya xalqları üçün əvəzsiz nümunə kimi qəbul olunması qürurvericidir. Multikulturalizm dövlət siyasəti olmaqla yanaşı, müasir Azərbaycan cəmiyyətində dəyişməz həyat tərzi kimi təzahür edir. Fəxrlə qeyd edə bilərik ki, müxtəlif mədəniyyətlərə və milli-dini azlıqlara hörmət öz milli-mənəvi dəyərlərinə bağlı olan Azərbaycan xalqının milli xüsusiyyətidir.

Respublikamızın tolerant və multikultural gerçəkliyinin təkcə azərbaycanlıların deyil, xarici ölkə alimlərinin, görkəmli elm xadimlərinin, siyasət nümayəndələrinin, həmçinin tələbələrin gözü ilə dünyaya təqdim edilməsi də müsbət ənənəyə çevrilməkdədir. Bu məqsədlə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi tərəfindən indiyədək 4 virtual "dəyirmi masa" təşkil olunmuşdur. "Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası", "Multikultural təhlükəsizlik", "Xarici ölkə universitetlərində "Azərbaycan multikkulturalizmi" fənninin tədrisi: problemlər və perspektivlər", "Azərbaycana maraq Azərbaycana məhəbbətə çevrilir (Azərbaycan multikulturalizmi yerli və əcnəbi tələbələrin gözü ilə)" mövzusunda olan bu "dəyirmi masa"ların materialları Azərbaycan, rus və ingilis dillərində dərc edilərək ölkə daxilində və xaricində paylanmışdır [3, s.25]. Virtual "dəyirmi masa"larda Braziliya, Amerika, İtaliya, Litva, Bolqarıstan, Türkiyə, Rusiya, Gürcüstan, Misir, İordaniya və başqa ölkələrdən tanınmış alimlər, ictimai xadimlər, tələbələr iştirak etmişlər.

Hazırda dünyanın 13, Azərbaycanın 28 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmi tədris edilir [5]. Həmçinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə qış və yay məktəbləri təşkil olunur. Qış və yay məktəblərinin məqsədi xarici ölkə gənclərinin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

2016-cı ildə "Azərbaycan multikkulturalizminin qaynaqları" seriyasından "Azərbaycan multikkulturalizminin ədəbi-bədii qaynaqları" kitabı işıq üzü görmüşdür. Nəşrdə görkəmli Azərbaycan ədiblərinin əsərlərində bədii ifadəsini tapan çoxəsrlik multikultural dəyərlər və tolerantlıq ənənələri öz əksini tapmışdır.

Ümumiyyətlə, bu bir həqiqətdir ki, mövqe baxımından Azərbaycanda hazırkı siyasi situasiya bütün müstəvilərdə tolerantlıq prinsipləri ilə idarə olunur, siyasi qərarların istiqamətlərindən asılı olaraq tolerantlıq daha dərin və konkret qata - multikulturalizmə qədər irəliləyir. Siyasi tolerantlıq bir tərəfdən dözümlülük, dinləmək mədəniyyətini, digər tərəfdən isə səsləndirilən fikirlərə, ortaya qoyulan mövqelərə və verilən suallara münasibəti özündə ehtiva edir. Daxili siyasətdə tolerantlığın, daha dəqiq desək, multikulturalizmin əsas istiqaməti ölkəmizdə yaşayan müxtəlif xalqların, millətlərin, din və dil daşıyıcılarının hüquq və azadlıqlarına bərabər münasibət göstərilməsi, onların hər birinin özlərini tamhüquqlu Azərbaycan vətəndaşı kimi hiss etmələrinin təmin olunmasıdır. Bu, həm Azərbaycan qanunvericiliyinin, Konstitusiyasının əsası, həm də Prezident İlham Əliyevin ortaya qoyduğu siyasi iradənin nəticəsidir.

Bu gün Azərbaycanda yaşayan müsəlman, xristian və yəhudilər, eyni zamanda digər dini inanclara sahib insanlar öz ibadətlərini sərbəst şəkildə həyata keçirirlər, tolerant və multikultural cəmiyyətin imkanlarından yararlanırlar. Azərbaycanda heç bir dini konfessiyanın birinin digərindən üstünlüyü yoxdur.

Bir çox xalqlarla müqayisədə Azərbaycan identikliyi multikulturalizm, tolerantlıq üçün həm əlverişli, həm də müasir dövr üçün olduqca aktualdır. Avropa tolerantlığı bizim milli xüsusiyyətə çevrilmiş tolerantlıqdan fərqlənir. Belə ki, tolerantlıq Avropada daha çox hüquq müstəvisində qabarıq şəkildə özünü göstərir. Azərbaycanda isə bu, həm qanunlar çərçivəsində işləyir, həm də artıq bizim milli xarakterimizdə oturuşmuşdur. Avropada, ola bilər ki, gəlmələrin

hüququ qorunur, ancaq ona yad olduğu hər addımında hiss etdirilir. Halbuki tolerantlıq, multikulturalizm artıq bizim milli identikliyin elementidir və bu, milli birliyi təmin edir. Milli birliyin əsasını isə bütövlükdə Azərbaycançılıq məfkurəsi təşkil edir. Həm milli, həm də dini birliyi qoruyaraq inkişaf etdirmək üçün bizim şüurlu, dünyagörüşü geniş olan, özünü inkişaf etdirən, dərk edən, mütaliə ilə məşğul olan, öyrənən, müşahidə aparmağı və bunların əsasında təhlil etməyi bacaran gələcək nəslə ehtiyacımız var. Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ili ölkəmizdə “Multikulturalizm ili” elan etdikdən sonra insanlarımız nəinki öz daxilinə nəzər saldı, həmçinin keçmişinə bir daha diqqət yetirdi, dünyada hökm sürən müxtəlif prosesləri dəyərləndirdi və bir daha əmin oldu ki, vaxtilə multikulturalizm siyasi xəttinin sistemliliyini təmin edən Ulu Öndər Heydər Əliyev uzaqgörənliyi ilə Azərbaycanın uğurlu gələcəyi üçün çox möhtəşəm, işıqlı siyasi platforma qurmuşdur.

## ƏDƏBİYYAT


1. Seyidov M., Rzayev M., Zamanı qabaqlayan dahi. Bakı: 2008, 315 s.
2. Vahabov T. //Multikulturalizm təhlükəsizliyin və inkişafın mühüm dayaqlarından biridir// http://www.anl.az/down/meqale/azerbaycan/2015/mart/424755.htm
3. Abdullayev M. History of Azerbaijan. Baku: 2018.
4. https://azertag.az/xeber/france-905539
5. Abdullayev Kamal. Azərbaycanda Multikulturalizm. Bakı, “APOSTROFF”: 2016, 504 s.

Эльбрус Садыгов, Нихад Асланзаде

## ПОЛИТИКА МУЛЬТКУЛЬТУРАЛИЗМА В АЗЕРБАЙДЖАНЕ


РЕЗЮМЕ

В статье повествуется о том, что существующие национально-культурное многообразие и атмосфера религиозно-этнической терпимости превратили Азербайджан, как многонациональную и многоконфессиональную страну, в мировой центр межкультурного диалога. Отмечается, что богатое культурно-нравственное наследие и традиции толерантности Азербайджана признаны на международной арене. Сообщается, что политический курс под руководством Гейдара Алиева в области защиты мультикультуральных традиций азербайджанского народа сегодня успешно продолжается и развивается президентом Ильхамом Алиевым.


Elbrus Sadigov, Nihad Aslanzade

## MULTICULTURALISM POLICY IN AZERBAIJAN


SUMMARY

The article tells that the existing national-cultural diversity and the atmosphere of ethnic and religious tolerance have turned Azerbaijan, as a multinational and multi-religious country, into the world center of intercultural dialogue. It is noted that the rich cultural and moral heritage and traditions of tolerance of Azerbaijan are recognized in the international arena. It is emphasized that the political course under the leadership of Heydar Aliyev in the field of protection of the multicultural traditions of the Azerbaijani people today is being successfully continued and developed by President Ilham Aliyev.

# LƏTİFƏLƏRDƏ İSLAM İNANCININ KANONİK PROYEKSİYALARI

***Qalib SAYILOV,***
*AMEA Folklor İnstitutunun Mərasim folkloru şöbəsinin aparıcı elmi işçisi*
*qalibsayilov@mail.ru*

***AÇAR SÖZLƏR:*** *folklor, ədəbiyyat, lətifə, etnik, milli, dini.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *фольклор, литература, анекдот, этнический, национальный, религиозный.*
***KEYWORDS:*** *folklore, literature, anecdote, ethnic, national, religious.*

Azərbaycan folklorunun janrlar üzrə öyrənilməsində lətifə janrını da tədqiq etmək tələbatı meydana çıxır. Əlbəttə, araşdırmanın başlığından aydın göründüyü kimi, mövzumuz lətifələrin araşdırılması tarixi ilə bağlı deyil, ancaq lətifələrin təsnifatına qısa şəkildə diqqət yetirmək mövzuya giriş baxımından ehtiyac doğurur. Öncə onu qeyd edək ki, lətifələr xalq yaradıcılığı nümunəsi olaraq epik folklora daxildir. Bütün hallarda bu janr epik növə aid edilir [1, s.143, 2, s.138, 3, s.300]. Lətifələr xalq gülüşünün dinamik növü kimi çox qədim tarixə malikdir [2, s.139]. A.Nəbiyevin qeyd etdiyinə görə lətifələr hələ də tam şəkildə öyrənilməmişdir [3, s.302].

Azərbaycan folklorunda lətifələrin əsas ağırlığı “Molla Nəsrəddin” və “Bəhlul Danəndə” adları üzərindədir. Hətta xalq yaradıcılığının spesifikasından asılı olaraq, bir çox şəxsiyyətin adı ilə bağlı olan bəzi lətifələr də Molla Nəsrəddin və Bəhlul Danəndə obrazlarının adlarından söyləndikdə daha çox yayılır [2, s.139].

A.Nəbiyev lətifələrin təsnifatı sahəsində müəyyən fikir yürüdən alimlərdən H.Zeynallının, M.H.Təhmasibin, N.Seyidovun, T.Fərzəliyevin adlarını qeyd etməklə lətifələri şərti olaraq aşağıdakı kimi təsnif etmişdir:

a) Bəhlul Danəndə lətifələri;
b) Molla Nəsrəddin lətifələri;
c) Regional lətifələr [3, s.302].

Alim regional lətifələri Şəki lətifələri, Qarabağ və Abdal Qasım lətifələri, ayrım lətifələri, ləzgi lətifələri, müxtəlif məzmunlu lətifələr şəklində qruplaşdırır [3, s.302]. Təbii ki, bu siyahını xeyli uzatmaq olar. Çünki lətifələrin regional əhatəsi kifayət qədər genişdir.

P.Əfəndiyevin göstərdiyi kimi, lətifələr “yığcam, sadə, lakonik, yumoristik janrdır” [2, s.138]. Ancaq bu fikri qəbul etməklə bərabər, A.Nəbiyev qeyd edir ki, lakonik olmayan, nağıla bənzər lətifələr də az deyildir [3, s.300, 301]

Ağız ədəbiyyatının bütün janrlarında olduğu kimi, lətifələrdə də toplumun təbii-genetik xüsusiyyətləri, etnik-milli, ictimai-sosial, dini-ruhani görüşləri təhkiyə formasında bədii-təsviri, məcazi-semantik səviyyələrdə təzahür edir. Bu baxımdan fərdin və cəmiyyətin onu əhatə edən təbiətdə formalaşan dünyagörüşünün maddi-real, eyni zamanda mənəvi-ideal

substratları lətifələrdə də proyeksiyalanır. Təbii ki, lətifələrdə inancların araşdırılması ehtiyacı doğuran ümdə səbəblərdən biri də ondan ibarətdir ki, bu janrda da əhəmiyyətli inanclar sistemi özünü göstərir. Bu dünyagörüşü formasının epik səviyyələrdə əks olunması insanın özünü ifadə etməsindən qaynaqlanır. Hər fərdin müxtəlif fiziki-bioloji xüsusiyyətləri ilə bərabər, özündə daşıdığı mənəvi-psixoloji amillər hansısa situasiyada onun dünyagörüşünü aşkara çıxarır. Nəzərə alınsa ki, lətifələr ünsiyyət vasitəsilə gülüş əsasında müəyyən situasiyada müəyyən ovqatdan doğur, deməli, o zaman fərdlər öz görüşlərini bu zəmində mexaniki olaraq göstərəcək. Ancaq fərdi görüşlər digər janrlarda olduğu kimi, bu janrda da etalon təşkil etmir, cəmiyyətin ümumi mənəvi-ideoloji məfkurə və inancları lətifələrdə də səciyyələnir. Lətifələrdə dini-ruhani baxışlar baxımından İslam dininə məxsus dünyagörüşü özünü göstərir. Əlbəttə, biz iddia etmirik ki, bütün lətifələr bu görüşləri ifadə edir. Bu, heç mətni doğuran hadisə və məzmun baxımından da mümkün deyil. Ancaq mətnə yanaşma tərzindən də çox şey asılıdır. Biz dini-teoloji baxımdan yaranışa və yaranışın şüurlu hissəsi olan insana Yaradanın - Uca Allahın məhsulu baxdıqda insanın bütün fəaliyyət sferası bu görüşlərə daxil olur, hətta hər hansısa bir situasiyada islami və yaxud İslamdan əvvəl gələn dinlərə məxsus əlamətlər bu mətnlərdə birbaşa, yaxud dolayısı ilə iştirak edir. Ola bilsin, hansısa lətifə nümunəsində mövzu baxımından adi məişət hadisəsi, gündəlik münasibətlərdən doğan davranışlar təsvir olunsun. Ancaq nəzərə almaq lazımdır ki, bütün hadisələrin əsasında insan, bütün münasibətlərin kökündə insan təbiəti dayanır - bu da davranış və söyləmlərdə üzə çıxır. İnsan təbiəti isə hansısa dini-ruhani görüşləri açıq və qapalı şəkildə özündə daşıyır. Dini-teoloji istiqamətdə götürdükdə insan da, təbiət də bir-biri ilə harmoniya təşkil edərək Ali Qüvvənin yaratdığı vahid aləmin tərkib hissəsi kimi birbaşa Yaradanı özündə əks etdirir. Ünsür və cismlərlə bağlı inanclar üzdə fərqli görünsələr də, mahiyyətdə yaradan inancının tərkib hissələridir. Yəni Günəş, Ay, ulduz, od, su, dağ və s. ilə bağlı inanclar yalnız adi ünsür təəssüratı yaratmır, Allahın yaratdığı vahid bir məkanın nümunələri kimi nitqə gəlir və özlüyündə yenə də kökündə yaradan konsepsiyasını ifadə edir. Mətndə daşınan bu ünsürlərə pərəstiş obyekti olan kult kimi baxmaq da özünü doğrultmur. A.İslamzadə qeyd edir ki, “mətnlərdə diqqət çəkən totemist, fetişist və bu kimi baxışlar “İnsan aktının başlanğıc nöqtəsinin və sonuc fəlsəfəsinin ana xətti olan nübüvvət silsiləsinin (peyğəmbərlər cərgəsinin) yeganə gerçəkliyini inkar edə biməz. Belə ki, ta qədimdən insanlar vasitədən (peyğəmbərlərin qəbulundan) kulta doğru uzun bir yol keçmiş, fetişləşdirməyə gəlib çıxmış, sonrakı dövrlərdə isə tədricən yenidən kultdan vasitəyə qayıtmışlar [4, s.503]. Deməli, digər janrlarda olduğu kimi, lətifə janrında da insanların eyni sistemdən gələn baxışları öz əksini tapır. Bu, iki şəkildə təzahür edir. Birincisi, açıq-aşkar səviyyədə məzmun və mövzu dini görüşlər üzərində qurulur, ikinci halda isə ya mətn gizlinləri daxilində daşınır, ya da təbiətə münasibətə kompleks səviyyədə yanaşdıqda obrazlaşmanın mahiyyəti əsasında üzə çıxır.

Biz lətifələrdə inancları və dini görüşləri araşdırarkən bu qənaətə gəlirik ki, diqqət çəkdiyimiz məsələlər lətifələrdə əsaslı dünyagörüşü forması kimi özünü göstərir. Ancaq bu mülahizəni iddia etmək yetərli olmadığı üçün tətbiqi əsaslar ehtiyacı meydana çıxır. Bu səbəbdən də yuxarıda göstərdiyimiz təsnifat əsasında konkret örnəklərlə bu müddəaları əsaslandırmağa çalışacağıq. Öncə təsnif edilib qruplaşdırılan lətifələri ardıcıllıqla izləmək üçün Bəhlul Danəndə lətifələrinə diqqət çəkək. Bəhlul Danəndə lətifələrinin folklor ərazilərinin əhatə dairəsi çox böyükdür. Bu

lətifələr yalnız Azərbaycanda deyil, eyni zamanda bütün Şərqdə geniş yayılmışdır [3, s.304]. Fikrimizcə, ərəb mənşəli Bəhlul Danəndə lətifələrinin Azərbaycanda müxtəlif variantlarla formalaşması məhz bu ərazilərdə məskunlaşan toplumun İslam inancına sahib olmasından irəli gəlir. Elə bu lətifələrin kökündə mövcud olan islami görüşlərin müxtəlif epik səviyyələrlə səciyyələnməsi bu mülahizənin doğruluğunu məntiqi cəhətdən təsdiq edir. Bəhlul Danəndənin tarixi şəxsiyyət olduğu fikrini irəli sürən Ə.Yusifpur bu müdrik insanın prototipini araşdırarkən qeyd edir ki, "Bəhlul Divanə kimi məşhur olan Vəhəb ibn Əmr həzrət İmam Cəfər əs-Sadiqin xüsusi şagirdlərindən idi" [5, s.140].

Bizə belə gəlir ki, Bəhlul Danəndə lətifələrində İslam istilahlarının, qayda-qanununun, Allah kəlamlarına söykənən örnəklərin zənginliyi məhz ondan irəli gəlir ki, o, tarixi şəxsiyyət kimi böyük İslam alimi olmuş, VI imam Əbu Əbdullah Cəfər bin Muhammməd əs-Sadiqin sevimli tələbələrindən sayılmış, ondan İslam elmlərini öyrənib nüfuz sahibinə çevrilmişdir. Bu mübarək şəxsiyyətin dini görüşləri ilə əksər hissəsi müsəlman olan Azərbaycan ərazisində yerləşən əhalinin baxışları eyni əsas üzərində kökləndiyi üçün Bəhlul Danənə lətifələri bu dərəcədə geniş yayılmışdır.

Bəhlul Danəndə lətifələri adı altında yayğınlaşmış "Bəhlul nə üçün gülürmüş?", "Torpağın sözü", "Məbadə, qatırçının qatırını hürküdəsən!", "Daha mənə ehtiyac yoxdur", "Şah və Bəhlul", "Heç ölü də dirilərmi?!", "Gör səni nə qədər döyəcəklər", "Mollanın tamahı", "Səndən Bəhlul olmaz", "Xeyir verənə xeyir, zərər verənə zərər", "Bəhlul və Həllac", "Heç nə apara bilməyəcəksiniz", "Haqq gəlməsəydi", "Bəhlul mollanı pərt eləyir", "Qazının fətvası", "Padşah və balıqçı", "Nə müsəlmandır, nə xaçpərəst", "Xəlifə və Bəhlul", "Məgər bundan da böyük yalan olar?", "Bəhlulun xalqa köməyi", "Rəhmətlik və nəhmətlik", "Hər gələn atəşini dünyadan gətirir", "Hələ düzəlməyib" [6] və s. bu mövzulu lətifələr İslam dünyagörüşünün qiymətli nümunələridir. Nəzərə alsaq ki, Azərbaycan folklorunun sərhədləri daxilində formalaşan Bəhlul Danəndə lətifələrinin toplanması və nəşri əsasən sovet hakimiyyəti dövrünə düşmüşdür, bu totalitar rejimin ideoloji əsaslarında materialist-ateist nəzəri görüşləri etolon təşkil etmişdir, İslama və din anlayışına inkarçı yanaşılmışdır, o zaman heyrətlənməmək olmur ki, Bəhlul Danəndə lətifələrində sistemli şəkildə daşınan İslam düşüncəsi necə yer ala bilmişdir? Əlbəttə, bu ondan irəli gəlir ki, həmin lətifələr quruluş etibarilə İslam mahiyyətinə elə sıx şəkildə bağlıdır ki, lətifələrdən islami məfkurəni təmizləmək mümkünsüz olmuş, bu lətifələrin yalnız dini istiqamətdə izahatsız çapına icazə verilmişdir. Şərqdə geniş yayılmış Bəhlul Danəndə lətifələri isə İslam dünyagörüşünü özündə daha geniş səviyyədə daşıyır. Ancaq Azərbaycanda da, yuxarıda qeyd etdiyimiz kimi, bu lətifələr kifayət qədər çoxdur. Bu da onu göstərir ki, Bəhlul Danəndə lətifələrində islami görüşlər struktur təşkil edir. Daha dəqiq desək, dini inanc sisteminin epik ifadəsi olan bu lətifələr İslam dininin əsaslarını müxtəlif ifadə formaları ilə özündə əks etdirir. Bu səbəbdən, həmin lətifələrdə təbiətin müxtəlif ünsürləri əski inanc sistemi kimi hansısa pərəstiş obyekti kimi görünmür, İslam inancının tərkib hissəsi şəklində təzahür edir. Allah-Təalanın birliyi - tövhid, Uca Allahın əmrləri, axirətə inam, saleh əməllər, ədalət və məhəbbət və s. bu kimi mövzular İslamın mahiyyətindən irəli gələn məzmun əsasında hikmətli kəlamlarla tərbiyəedici-öyrədici gülüş vasitəsilə bu lətifələrdə proyeksiyalanır. Ümumi icmal olaraq lətifələrdən bir neçəsinə diqqət çəkək. "Hər gələn odu dünyadan gətirir" lətifəsi dünya və

axirət, məmur və təbəə, ədalət və həqiqət mövzusunu bir neçə kəlmədə ifadə etməsi baxımından çox maraqlıdır:

"Ehlullahtan Behlül Dana, bir gün halife Harun Reşit ile karşılaşır. Kendisini tanıyan hükümdar bu zata:

– Ey Behlül! Nereden geliyorsun böyle?" diye sorar. O, hiç düşünmeden:

– Cehennemden geliyorum,- cevabını verir.

Harun Reşit, şaşırarak tekrar sorar:

– Ne işin vardı orada?

Behlül Dana anlatır:

– Efendim, ateş lazım olmuştu. Cehenneme gideyim de bir az isteyim dedim. Fakat oradaki memur bana: "Burada ateş yoktur" dedi.

– Nasıl olur, Cehennem ateş yeri değilmi?- diye sorunca:

– Evet, gerçekten burada ateş yoktur. Her gelen, ateşini Dünyadan getirir,- cevabını verdi.

Dehşete kapılan Harun Reşit büyük bir üzüntüyle sordu:

– Behlül! Ne yapayım ki, oraya ateş götürmeyeyim?" Behlül Dana, hızla uzaklaşırken haykırdı:

– Adalet! Adalet! Adalet!" [7].

Bu mətn Türkiyə türklərinin "fıkra"sı olaraq meydana çıxmaqla, eyni zamanda Azərbaycan türklərinin folklor nümunəsi kimi Azərbaycan-türk folklorunun müştərək örnəyidir. Ümumiyyətlə, türksoylu xalqların folklor nümunələri müxtəlif variasiya və paralellərlə müştərək mədəniyyət nümunələri kimi diqqət çəkir ki, tədqiqatçılar da bu nümunələri məhz tipoloji baxımdan araşdırmaq ehtiyacı hiss edirlər. Onu da unutmaq olmaz ki, dini inancı İslam olan xalqlar arasında türk xalqlarının böyük hissəsi əsas yer tutur ki, bu da qeyd etdiyimiz nümunələrin müştərəkləşməsində əhəmiyyətli rol oynayır.

Bəhlul Danəndə lətifələrinin eyni məzmun daşıyan digər bir örnəyi də "Hələ düzəlməyib" adlanır. Bu lətifədə deyilir: "Bir gün Bəhlul Danəndə qardaşı xəlifə ilə gedirdi. Gördülər ki, göydən bir əl uzandı. Bəhlul onu görən kimi barmağını qaldırdı, əl o saat yox oldu. Xəlifə bu işə təəccüb eləyib Bəhluldan soruşdu:

– Qardaş, bu sirdən məni agah elə görüm, o əl nə idi? Nə üçün sən barmağını qaldırdın, o yox oldu?

Bəhlul dedi:

– O, Sahibi-Zamanın əli idi. Dedi ki, dünya düzəlibsə, gəlim, mən də barmağımı qaldırıb ona dedim ki, zəhmət çəkib gəlmə, hələ beşdəbiri də düzəlməyib. O da çıxıb getdi [8, s.429].

Göründüyü kimi, bu lətifə də qeyd etdiyimiz məzmun baxımından zəngindir. Bu misalların sayını nümunələr əsasında dəfələrlə artırmaq olar. Beləliklə, qeyd etdiyimiz kimi, Bəhlul Danəndə lətifələrində inanc anlayışı İslam inancı əsasında qurulur və konkret örnəklərlə öz təsdiqini tapır.

Təsnifat bölgüsü əsasında qruplaşdırılan lətifələr arasında yuxarıda göstərdiyimiz kimi, **"Molla Nəsrəddin lətifələri"** əhəmiyyətli yer tutur. Molla Nəsrəddin obrazı gülüş ustası kimi bir çox xalqda məşhurdur. P.Əfəndiyev V.A.Qordlevskidən sitat gətirərək bu lətifələrin yayılma arealını göstərərkən qeyd edir ki, Türkiyədə, Aralıq dənizi sahilləri ölkələrində, Ruminiyada,

Serbiyada, Krımda, Qafqazda bu adı tanıyırlar [2, s.139]. A.Nəbiyev isə yuxarıdakı fikirlərlə razılaşmaqla bərabər, qeyd edir ki, Qordlevski "...belə bir qənaətə gəlmişdir ki, Molla Nəsrəddin Şərq xalqlarının gülüş ustasıdır" [3, s.306].

Molla Nəsrəddin lətifələrinin yayıldığı ərazilərdə bu müdrik gülüş ustasının adı müxtəlif şəkillərdə intişar tapmışdır "Xoca Nəsrəddin, Xacə Nəsrəddin, Molla Nəsrəddin, bəzən isə sadəcə olaraq Xoca, Xacə, Molla, Əfəndi və s. deyilmişdir" [2, s.139]. Azərbaycan sərhədləri daxilində isə təbii ki, Molla Nəsrəddin kimi şöhrətlənmişdir [9, s.5].

Molla Nəsrəddin lətifələrində inancları araşdırarkən yekun qənaət olaraq onu söyləmək olar ki, bu lətifələr də yuxarıda göstərdiyimiz Bəhlul Danəndə lətifələri ilə eyni sistemə malikdir. Bu səbəbdən də Bəhlul Danəndə lətifələri kimi Molla Nəsrəddin lətifələrində də bütün təbiət Allah-Təalanın yaratdığı materiya kimi qavranılır, baş verən hadisələrdə İslamdan və Vahid Allah inancından kənar hansısa inanc ünsürü axtarmaq mətni inkar etməyə gətirib çıxara bilər. Elə buna görə də Molla Nəsrəddin lətifələrinə də yuxarıda apardığımız təhlillə yanaşmaq daha məqsədyönlü olar. Molla Nəsrəddin lətifələri arasında Bəhlul Danəndə lətifələri ilə eyni inanc üzərində ifadələnən bir çox lətifə vardır. Bunlardan "Göyə niyə dırmaşmısan?", "Dalı bundan da pis gələcək!", "Teymurun havaölçəni", "Kimdir", "Teymurun adı", "Kasıb çoxdur", "Orada sən qonaqsan", "Biz də kiçiyik", "Ya eşşək ölər, ya Teymur", "Hamınızın dərdini çəkirəm", "Qurtaran deyildi", "Baş-göz qalmazdı", "Mollanın vəsiyyəti (I variant)", "Sən geyin, keyfini çək", "Qorxuram, ayaqlayam", "Arvadını boşayan kişi", "Bilmək və bilməmək", "Samanlı palçıq", "Bizim ömrümüz qurtarar ki?", "Qaytarım özünə", "Molla tayfası", "Üzünə tüpürmək istəyib", "İt duası", "Hamısı yatır", "Acından öləcək", "Kosa qalmağı məsləhət bildim", "Günahdan silkinmək üçün qırxdırdım", "Şeytan yuvası olub", "Canımı qurtaram", "Yüz iyirmi ikisidir", "Günaha bata bilmərəm", "Haqq-hesabımız qurtarsın", "İynə kimi axtarırlar", "Molla azan verir", "Bilənlər bilməyənlərə öyrətsin", "Behişt əhlinin kəlləsindən", "Qoy başına, oxu görək", "Vərəsələr bilər", "İnşəallah", "Görəsən kimin ürəyi yanır?", "Qiblənüma", "Mollanın vəsiyyəti (II variant) ", "Baxarsan mənim qarğışımın gücünə", "Axırda bura gələcək", "Atanın duası", "Neyləyirsiz paltarı?" [9] və s. bu kimi lətifələr mövzumuz lazımi qədər diqqətə layiqdir. Eyni zamanda onu da qeyd edək ki, tədqiqatın həcmi baxımından eyni məzmunlu bir çox lətifənin hətta adını da bu ardıcıllığa əlavə edə bilməmişik. Əks təqdirdə, bir neçə səhifəni yalnız bu lətifələrin ad tutumuna həsr etmək məcburiyyətində qalarıq. Çünki Molla Nəsrəddinlə bağlı olan lətifələrin əksəriyyətində birbaşa, yaxud dolayısı ilə islami görüşlər, islami həyat tərzi, eyni zamanda İslam istilahları geniş yer alır. Təbii ki, bu lətifələrdə lətifə strukturuna məxsus sözün gülüş donunda bəzən tərsinə deyilməsi də diqqət çəkir. Ancaq bütün hallarda İslam inancı yaşayan bir toplumun bu sistemə məxsus baxışları müxtəlif situasiyalarda müxtəlif davranış modelləri əsasında özünü göstərir. Bu lətifələrin məzmununu aşağıdakı örnəklər vasitəsilə ümumi şəkildə səciyyələndirərək Molla Nəsrəddin lətifələrində də eyni inancların mövcudluğuna nəzər yetirək. "Göyə niyə dırmaşmısan?" lətifəsində deyilir: "Molla Nəsrəddinin Teymurlənglə ilk görüşü haqqında belə bir rəvayət də vardır:

Teymur mollanı saraya çağırtdırır. Molla içəriyə girib görür ki, otaq adamla doludur. Amma hamı dövrə vurub yerdə oturub, təkcə Teymur əyləşib uca bir taxtın üstündə. Tez baş əyib deyir:

– Salaməleyküm, ya Allah!

Teymur deyir:

– Mən Allah deyiləm, ay kişi! Mən...

Molla onun sözünü ağzında qoyub deyir:

– Qurban olum sənə, ya cənab Cəbrayıl!

Teymur deyir:

– A kişi, nə danışırsan? Mən niyə Cəbrayıl oluram?

Molla deyir:

– Başa düşmürəm. İndi ki, nə Allahsan, nə də Mələk, düş adam kimi otur adamların içində də, daha göyə niyə dırmaşmısan?" [9, s.11].

"Axırda bura gələcək" lətifəsi də səciyyə baxımından bir çox lətifə üçün örnək ola bilər: " Molla küçə ilə gedərkən bir nəfər onun börkünü başından götürüb qaçır. Molla baxır ki, ona çata bilməyəcək. Qayıdır birbaş yüyürür qəbiristana. Bir daşın üstündə oturub başlayır gözləməyə. Bir nəfər ondan soruşur:

– Molla, sənin börkünü götürən bazara tərəf qaçdı, bəs sən buraya niyə gəlibsən?

Molla deyir:

– Sən işində ol! Bazara getməsin, lap göyə çıxsın, hara getsə, axırda bura gələcək" [9, s.231].

Yuxarıda qeyd etdiyimiz kimi, "Bəhlul Danəndə lətifələri"ndə olduğu kimi, "Molla Nəsrəddin lətifələri" də İslam inancları əhatəsində müxtəlif hadisə və əhvalatlardan ibarətdir. Diqqət çəkdiyimiz bu nümunələr bu fikri əyani şəkildə təsdiq etmiş olur.

Lətifələrin təsnifatında "regional lətifələr" müxtəlif tanınmış bölgə, tayfa və şəxsiyyətlərin - Şəki lətifələri, Qarabağ və Abdal Qasım lətifələri, Ayrım lətifələri, ləzgi lətifələri - adı altında qruplaşdırılır. Eyni zamanda "Müxtəlif məzmunlu lətifələr" də bu qrupa təkrar daxil edilir [2, s.302]. Təbiidir ki, bu da ondan irəli gəlir ki, lətifələr zaman-zaman müxtəlif vəziyyətlərdə müəyyən şəxslər tərəfindən həyat davam etdikcə elə bir şəkildə yaranır ki, bu lətifələri konkret ərazi və topluma aid etmək iddiası mənasız görünür. Hətta biz deyərdik ki, elə Bəhlul Danəndə və Molla Nəsrəddin lətifələri də öncə lokal səviyyədə yaranmış, daha sonra yayılma arealı genişləndikcə qloballaşmışdır. Onu da xüsusilə qeyd etmək yerinə düşər ki, regional lətifələri araşdırdıqda, onların bütünlüklə eyni sistem daxilində formalaşıb yayıldığını açıq-aydın müşahidə edirik. Əlbəttə, müxtəlif səviyyələri əhatə edən mətnlər tamamilə sabit formada olmasa da, İslam inancı ilə yaşayan toplumun, bu dünyagörüşünə aid istilahların regional lətifələrdə də qabarıq olduğunu görə bilirik. Elə buna görə də bu lətifələri bu qısa araşdırmaya cəlb etmədən yuxarıdakı qənaətlərimizin regional lətifələrə də aid olduğunu işarələməklə kifayətlənirik.

Beləliklə, lətifələrdə inancların izlənilməsi baxımından ortaya çıxan nəticə bundan ibarətdir ki, Azərbaycan folklorunda lətifələr İslam inancı daxilində həyat tərzi keçirən insanların ünsiyyətləri əsasında meydana gələn mütəhərrik folklor nümunələridir. Elə bu səbəbdən də bu lətifələrdə diqqət çəkən inanclar İslam inancından kənarda mövcud ola bilmir, öz strukturuna uyğun şəkildə bu inancların daşınmasında xüsusi rol oynayır. Əgər nəzərə alınsa ki lətifə xalq arasında çox sürətlə yayılan janrdır, o zaman lətifələrin məzmun müxtəlifliyi daxilində olsa da, əhəmiyyətini nəzərə almaq məqsədyönlü olmalı, bu sahədə daha geniş araşdırmalar aparılmalıdır.

# ƏDƏBİYYAT


1. Mir Cəlal, Xəlilov Pənah. Ədəbiyyatşünaslığın əsasları (Ali məktəblər üçün dərslik). Bakı: Maarif nəşr, 1972, 279 s.
2. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif nəşr, 1981, 401 s.
3. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı: Elm, 2006, 648 s.
4. İslamzadə A. Mif: araşdırmalar, müddəalar / Ortaq türk keçmişindən ortaq türk gələcəyinə // IV uluslararası Folklor konfransının materialları// Bakı: Səda, 2006. s. 500-504.
5. Yusifpur Ə. İnsan nə üçün günah edir?. Əlhadi nəşr. Nəşr ili məlum deyil.
6. Tərtib edən İsmayılov R. Bəhlul Danəndə lətifələri. Bakı: Altunkitab, 2005, 96 s.
7. http://tr.wikipedia.org/wiki/Harun_Reşid.
8. Xalq ədəbiyyatı. Azərbaycan klassik ədəbiyyatı kitabxanası, XX cilddə, I cild. Cildi tərtib edənlər: Fərzəliyev T. Abbasov İ. Bakı: Elm, 1981. 510 s.
9. Molla Nəsrəddin lətifələri. Tərtib edən: Təhmasib M.H. Bakı: Öndərnəşr, 2004, 304 s.

Галиб Саилов

## КАНОНИЧЕСКИЕ ПРОЕКЦИИ ПОВЕРИЙ ИСЛАМА В АНЕКДОТАХ

### РЕЗЮМЕ

Как и во всех жанрах устной литературы, так и в анекдотах природно-генетические особенности, этническо-национальные, общественно-социальные, религиозные воззрения общества выражаются в форме нарратива на художественно-описательных и метафорическо-семантических уровнях. С этой точки зрения, материально-реальные, в то же время морально-идеальные субстраты мировоззрения, сформированные в природе, окружающей индивида и все общество, проецируются также в анекдотах. Естественно, главная причина актуальности и важности изучения верований в анекдотах состоит в том, что в этом жанре также существует значимая система верований. Отражение на эпических уровнях этой формы мировоззрения исходит от желания самовыражения человека.

Galib Sayilov

## CANONICAL PROJECTIONS OF ISLAMIC BELIEFS IN ANECDOTES

### SUMMARY

As in all genres of oral literature, so in anecdotes, natural-genetic features, ethnic-national, public-social, religious views of society are expressed in the form of a narrative on artistic-descriptive and metaphorical-semantic levels. From this point of view, the material-real, at the same time moral-ideal substrates of the world outlook, formed in nature, surrounding the individual and the whole society, are also projected in anecdotes. Naturally, the main reason for the relevance and importance of studying beliefs in anecdotes is that there is also a significant belief system in this genre. The reflection on the epic levels of this form of worldview comes from the desire for human self-expression.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QADIN SİYASƏTİ

***Turan NƏSİROVA,***
*BDU-nun Tarix fakültəsinin*
*Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat*
*üsulları kafedrasının doktorantı*

***AÇAR SÖZLƏR:*** *Azərbaycan Xalq Cümhuriyyəti, qadın siyasəti, seçki hüququ, ziyalı qadınlar.*
***KAY WORDS:*** *Azerbaijan Democratic Republic, women's politics, electoral right, intelligent women.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Азербайджанская Демократическая Республика, женская политика, избирательное право, интеллигентные женщины.*

XX əsrin əvvəllərində Azərbaycan qadınlarının savadsızlıq və fanatik ənənələr səbəbindən ictimai-siyasi həyatdan təcrid olunmuş şəkildə yaşamaları şəxsi həyatlarında da çətinliklər yaratmışdı. Bu dövrdə "Qadın bir şəxsiyyət kimi azad olmayınca xalqın problemləri həllolunmaz qalacaq!" ideyasını irəli sürən Azərbaycanın ziyalı elitası xalqı maariflənməyə səsləyir, onlara hüquq və vəzifələrini çatdırmağa çalışdılar. Bu mövzuya daha çox diqqət ayırmış M.Şahtaxtlı, H.Zərdabi, M.Ə.Rəsulzadə, Ə.Ağayev, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ə.Nəzmi, M.Ə.Sabir, F.Köçərli, C.Cabbarlı və başqaları fanatik dindarların təzyiqlərinə məruz qalsalar da, xalqın diqqətini qadın problemlərinə yönəldərək erkən nikaha və qadın zorakılığına qarşı çıxırdılar.

Azərbaycan qadınının azadlıq problemi ilk dəfə 1903-cü il martın 30-da Tiflisdə nəşrə başlayan "Şərqi-Rus" qəzetində qaldırılmışdı. Qəzetin təsisçisi, Azərbaycan maarifçiliyinin görkəmli nümayəndəsi Məhəmməd ağa Şahtaxtlı müsəlman aləmində qadın azadlığı məsələsindən bəhs edən məqalələr çap edirdi. Onun bu mövzudakı yazıları əsasən qadın azadlığını məhdudlaşdıran və ictimai həyatdan təcrid edən problemlərə həsr olunurdu [1].

XX əsrin ilk illərində Azərbaycan qadınlarının təhsil almaq imkanının məhdudluğuna qarşı atılmış mühüm addımlardan biri də H.Z.Tağıyevin 1901-ci ilin oktyabr ayında Bakı Qız Məktəbini təsis etməsi oldu. Məktəbin təntənəli açılışı günü – 1901-ci il oktyabrın 7-də "Kaspi" qəzeti Qafqaz müsəlmanlarının şeyxülislamı Axund Əbdüssəlam Axundzadənin məsələ ilə bağlı xeyir-duasını da dərc etmişdi. O, Məhəmməd peyğəmbərin "Elm öyrənmək həm müsəlman kişiyə, həm də müsəlman qadına vacibdir" sözlərini xüsusi vurğulamış, İslam tarixində həkim, alim kimi şöhrət tapmış müsəlman qadınlarının həyatından misallar və sitatlar gətirərək demişdir: "Bu tarixi sitatlardan məqsədim budur ki, nə din, nə şəriət təhsil və tərbiyə sahəsində qadınların hüquqlarını məhdudlaşdırmır. Belə olsaydı, İslamda bu qədər şöhrətli müsəlman qadını yetişməzdi. Əgər bu vaxta qədər Zaqafqaziyada qızlara təhsil verilməyibsə,

bunun səbəbi təkcə məktəbin yoxluğu deyil, həm də kök atmış ziyanlı adətlərdir" [2]. Həmçinin XIX əsrin sonları və XX əsrin əvvəllərində yaşayıb-yaratmış Qafqaz şeyxülislamı Axund Əhməd Hüseynzadə, Qafqaz müftisi Mirzə Hüseyn Əfəndi Qayıbov, görkəmli Azərbaycan maarifçisi Mirzə Əbdürrəhim Talıbzadə, Mir Məhəmməd Kərim Mircəfərzadə, Mirzə Əbu Turab Axundzadə kimi onlarla din xadimi və din alimlərimiz qadın azadlığı problemi ilə mübarizə aparmışlar.

XX əsrin ikinci onilliyindən etibarən maarifçi ziyalılarımızın gərgin səyləri nəticəsində Azərbaycan qadınları ictimai-siyasi həyatda görünməyə başladılar. Hətta onlar öz problemlərini ictimaiyyətə çatdırmaq üçün 1911-ci ilin yanvarın 22-də Xədicə Əlibəyovanın redaktorluğu ilə "İşıq" adlı qadın qəzetinin ərsəyə gəlməsinə nail oldular. Maarifçi ideyalarla gündəmə gələrək o dövrün ziyalı qadınlarını öz ətrafına toplamış bu qəzetin 1912-ci ilədək 68 nömrəsi işıq üzü görmüşdür. Artıq bu, Azərbaycan qadınının ciddi ictimai qüvvəyə çevrilməsini təsdiq edən amillərdən biri idi. Həmin dövrdə mətbuatda qadın müəlliflərinin çıxışlarının getdikcə intensiv hal alması, öz mövqelərini daha inamla ortaya qoymaları və s. Azərbaycan ziyalılarının qadın azadlığı uğrunda apardığı çətin mübarizənin nəticəsiz qalmadığını göstərirdi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra qadın hüquqlarının, o cümlədən ictimai həyatda fəaliyyətinin artırılması istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, Avropa və Amerika ölkələrindən xeyli əvvəl qadınlara seçki hüququnun verilməsi, qadınların təhsil və mədəni səviyyələrinin inkişafına xüsusi diqqət göstərilməsi və s. AXC-nin yürütdüyü dövlət siyasətinin mahiyyətini əyani şəkildə səciyyələndirirdi. Ölkə Parlamenti tərəfindən qəbul edilmiş qanunlar, xüsusilə 16 yaşınadək uşaqların işləməsinə qadağa qoyulması, qadınların səhhətinə və fiziki imkanlarına uyğun olmayan işlərə götürülməməsi, hamilə qadınlara güzəştlər edilməsi, müəssisələrdə işləyən qadınların südəmər uşaqları üçün xüsusi yerlərin ayrılması, uşaq bağçalarının açılması, məktəblərin sayının artırılması və bu kimi qərarlar Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlar üçün yaradılan imkanların parlaq nümunəsidir.

### *Azərbaycan qadınlarına bəxş olunmuş siyasi hüquqlar – seçki hüququ*

1917-ci il mayın 1-dən 11-dək Moskvada keçirilmiş Ümumrusiya Müsəlmanları qurultayında Məhəmməd Əmin Rəsulzadə müsəlman qadınının azad edilməsini müsəlman xalqlarının milli-azadlıq mübarizəsinin ən mühüm məsələlərindən biri kimi qiymətləndirərək demişdir: "Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadın dustaqlıqda qala bilməz və qalmamalıdır" [3]. Bu fikirlər 1918-ci il mayın 28-də AXC-nin qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV bəndində bərabərhüquqluluq prinsipinin, seçmək və seçilmək hüququnun təsbit edilməsi ilə öz qanuni təsdiqini tapmış oldu: "Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir" [4, s.5-7].

Hüquqi və siyasi baxımdan Azərbaycan qadınını tam hürriyyətə və insan haqlarına qovuşduran bu qərarın türk və müsəlman aləmində qüvvətli bir inqilabi əhəmiyyəti oldu. İstiqlal Bəyannaməsinin digər maddələri kimi bu maddə də Azərbaycan xalqının tarixi təkamülünün məntiqi nəticəsi idi.

Bununla da Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkə oldu. Müsəlman dünyasında ilk dəfə olaraq kişilərlə bərabər, qadınlara seçki hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Çünki həmin dövrdə seçki sistemində gender bərabərliyi prinsipi nəinki müsəlman Şərqində, hətta Avropa dövlətlərinin böyük əksəriyyətində öz həllini tapmamışdır. Hələ XVIII əsrin sonlarında seçki hüququ uğrunda mübarizəyə başlamış ABŞ qadınları bu hüquqlarına yalnız 1920-ci ildə senat tərəfindən Konstitusiyaya edilmiş qadınlara səs hüququ verən 19-cu düzəlişlə qovuşdular. Bundan əlavə, 1919-cu ildə Avstriyada, Almaniyada, Niderlandda, Polşada, İsveçdə, Lüksemburqda, 1918-ci ildə İngiltərədə yalnız ərli qadınlar üçün (tam şəkildə isə 1928-ci ildə), 1931-ci ildə İspaniya və Portuqaliyada, 1946-cı ildə Fransada, 1970-ci ildə İsveçrədə qadınlara seçki hüququ verilmişdir [5, s.11]. Göründüyü kimi, nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadınlara siyasi proseslərə qoşulmaq hüququ Azərbaycanda verilmişdir.

1918-ci il dekabrın 7-də fəaliyyətə başlayan Azərbaycan Parlamentinə keçirilmiş seçkilərdə qadınlar da iştirak etdi. Qadın problemi Parlamentin diqqətdə saxladığı əsas məsələlərdən idi. AXC Parlamentinin 10 dekabr 1918-ci il tarixində keçirilmiş II iclasında Azərbaycan qadınlarına İslam aləmində ilk dəfə olaraq seçilmək hüququ rəsmi dövlət səviyyəsində verildi.

Azərbaycanlı qadınların seçki hüquqlarının möhkəmləndirilməsi istiqamətində atılan növbəti addım bu hüquqların AXC-nin "Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə"də öz əksini tapdı. AXC-nin Müəssislər Məclisinə seçkilər çox vaxt və ciddi hazırlıq tələb edirdi, mürəkkəb siyasi vəziyyət isə hər gün yeni məsələlərin həllini irəli sürürdü. Mövcud çətinliklərə rəğmən Parlament bir sıra hüquqi aktlar, o cümlədən "Müəssislər Məclisinə seçkilər haqqında" Qanun qəbul etdi. 1919-cu il iyulun 21-də qəbul edilən qanunda dövlətin hakimiyyət orqanlarına qadınların seçmək və seçilmək hüquqları bir daha öz təsdiqini tapdı. Cümhuriyyət hökumətinin qadınlara seçki hüququ vermək niyyətini bir daha əyani şəkildə sübut edən, 4 fəsildən və 116 bənddən ibarət olan həmin əsasnamədə deyilirdi:

- I fəsil: "Müəssislər Məclisi əhali tərəfindən cinsindən asılı olmayaraq və bərabər seçki hüququ əsasında, birbaşa və gizli səsvermə vasitəsi ilə, mütənasib nümayəndəlik əsasları təmin edilərək seçilən üzvlərdən ibarətdir".
- II fəsil: "Müəssislər Məclisinə seçkilərdə səsvermə gününədək 20 yaşı tamam olmuş hər iki cinsdən olan respublika vətəndaşları iştirak hüququna malikdirlər".

Cümhuriyyətin ictimai xadimlərindən olmuş Mirzə Bala Məmmədzadə bu barədə yazmışdı: "Qadınlar sair vətəndaşlarla bərabər vətəni və siyasi hüquq kəsb edirdilər ki, bu hal bütün Şərqdə deyil, Avropada belə tamamilə tətbiq edilmiş deyildi. Azərbaycan milli xartiyası bu qərar ilə nə qədər ülvi, bəşəri və mədəni qayələrlə doymuş olduğunu isbat etməkdədir" [6, s.142].

### *Azərbaycan qadınlarının təhsil hüququ*

Çar Rusiyası dövründə müstəmləkə xalqların milli-siyasi mənlik şüurunun oyanmasına mane olmaq məqsədilə xalq maarifi işi məhdud çərçivədə saxlanılırdı. Ucqarlarda, o cümlədən Azərbaycanda vəziyyət daha acınacaqlı idi: zorla ruslaşdırma siyasəti yeridilir, təhsil əsasən, rus dilində aparılır, milli dil və mədəniyyətin inkişafına hər cür maneələr yaradılırdı. Bu səbəbdən də AXC yarandığı gündən xalqın savadlanması, maariflənməsi işinə xüsusi diqqət ayırdı. Fətəli xan Xoyskinin sədirliyi ilə yaradılmış birinci hökumət kabinetində Xalq Maarif Nazirliyi də təsis olundu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi nazirlik öz işinə Azərbaycandakı xalq maarifinin mövcud vəziyyətinin təhlili və həyata keçiriləcək tədbirlərin müəyyənləşdirilməsi ilə başladı. Qadınların təhsilinə, savadlanmasına da xüsusi diqqət yetirildi. Orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artırıldı. Əgər 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmisi 4 azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatdırılmışdı [7, s.396].

1919-cu ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai, 23 orta, 33 ixtisas təhsil məktəbləri fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi.

1919-cu ilin iyulundan Lənkəran kişi və qadın gimnaziyaları da Xalq Maarifi Nazirliyinin sərəncamına keçirildi.

1919-cu ilin 11 avqustunda Xalq Maarif Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı (Şəki) Müqəddəs Nina qız tədris müəssisələrinin adları dəyişdirilərək, Bakıda birinci Azərbaycan qız gimnaziyası, Gəncə və Nuxadakılar isə qız gimnaziyaları adlandırıldı. Hazırlıq sinifləri də olan bu təhsil ocaqları səkkizillik idi. Sonuncu sinif pedaqoji təhsil hüququ verirdi [8, s.79].

1919-cu ildə Xalq Maarifi Nazirliyi Göyçay şəhərində realnı məktəb, Bakıda qız, Nuxada kişi və qız, Şuşada kişi məktəb və seminariyaları açmaq barədə Azərbaycan Parlamentinə qərar layihələri təqdim etdi. Parlament respublikanın imkanlarını nəzərə alaraq, onlardan ancaq birini həyata keçirdi. 1919-cu ildə Göyçayda realnı məktəb açmaq haqqında qanun layihəsi təsdiq olundu. Bakıda qızlar üçün 25 nəfərlik pansionatın təşkili, Xalq Maarifi Nazirliyi nəzdində pedaqoji və elmi-bədii jurnalların nəşr edilməsi, Gəncə, Qazax, Şuşa və Nuxada kişi, Bakı, Nuxa və Gəncədə isə iki illik qadın kurslarının açılması və s. nəzərdə tutulmuşdu.

Azərbaycan gəncliyinin ali təhsil alması üçün 1919-cu ildə Bakı Dövlət Üniversiteti yaradıldı. Önəmli məqamlardan biri də ondan ibarətdir ki, Azərbaycan Respublikası tarixində ilk ali təhsil ocağı olan bu universitetin tələbələrin 8,3 faizi qızlar idi.

Qadın müəllimlərə olan ehtiyacı qismən ödəmək üçün əvvəllər rus qız gimnaziyalarını, Tiflis Nücabə Qızlar İnstitutunu, hətta H.Z.Tağıyevin qız məktəbini və ikiillik pedaqoji kursları bitirmiş qızlar ibtidai məktəblərdə dərs deməyə cəlb olunmuşdular. Bu dövrdə Azərbaycanın tərəqqipərvər qadınları – Məryəm xanım Bayraməlibəyova Lənkəranda, Gövhər Şövqiyyə Şamaxıda, Nazlı Tahirova Naxçıvanda, Maral Nəbizadə Şəkidə, Bülbül Kazımova Gədəbəydə, T.Ağayeva, Yaqut Ağayeva, Fərdmuş Paşayeva Gəncədə, Səidə Şeyxzadə, Sara Vəzirova,

Hənifə Məlikova, Qərib Soltan, Zərri Şahtaxtinskaya, Rəhilə Hacıbababəyova və başqaları Bakıda xalq maarifinin inkişafına çalışırdılar.

Hökumət yaşlı qadınların da savad almasına xüsusi əhəmiyyət verirdi. 24 oktyabr 1919-cu il tarixində Xalq Maarifi Nazirliyi Azərbaycan milli gimnaziyasının nəzdində yetkin türk qadınları üçün kursların təntənəli açılışı oldu. Kurslara Şəfiqə xanım Yusifbəyli rəhbərlik edirdi.

Sinif müəllimlərinin hazırlanması üçün Nazirlik 17 iyul 1919-cu il tarixində qəbul edilmiş qanuna əsasən Bakıda və Gəncədə ikiaylıq qadın pedaqoji kurslar açmışdı. 1919-cu ilin sentyabrında Bakıda, Gəncə və Şəkidə ikiillik qadın pedaqoji kurslarının açılması haqqında qanun layihəsi hazırlanmışdı. Həmin il Bakıda Müfti Hüseyn Əfəndinin qızı Gövhər xanım Qayıbova öz mənzilində 80 nəfərdən çox dinləyici üçün pedaqoji kurs təşkil etmişdi. O dövrün tanınmış maarifpərvər ziyalıları Hüseyn Cavid, Abdulla Şaiq, Camo Cəbrayılbəyli, Xudaverdi Kələntərli, Səriyyə xanım Əhmədova, Nəimə xanım Qazıyeva burada məşğələlər aparırdılar.

1920-ci ildə Qazax seminariyasının yanında qızlar üçün şöbə açıldı. Həmin dövrdə qızları məktəbə cəlb etmək çox çətin iş idi. Qabaqcıl, mütərəqqi adamlar bu çətinliyin öhdəsindən gəlməyə çalışırdılar. Həmin il qızlar şöbəsinə Dilrubə, Dürrə, Validə və Həbibə Mustafayevalar, Dilşad Şıxlinskaya, Səlimə Əfəndiyeva, Kövsər Qayıbova qəbul oldular. Qeyd etmək lazımdır ki, bu qızların əksəriyyətinin seminariyaya daxil olmasının əsas səbəbi onların Qori Seminariyasının məzunu və Qazax Müəllimlər Seminariyasının direktoru, xalq maarifinin görkəmli nümayəndəsi Əhmədağa Mustafayev ilə qohumluq əlaqəsinin olması idi. Qapalı fəaliyyət göstərən şöbədə qızlar məktəb binasında yaşayır, orada oxuyur və dərslərinə hazırlaşırdılar. Seminariyada tərbiyəçi qadın müəllimləri var idi. Onlar qızlarla bir yerdə qalır, yeməklərinə, dərslərinə və otaqlarının səliqə-səhmanına nəzarət edirdilər. Cümə günlərindən başqa qızlara həftə ərzində pansiondan kənara çıxmağa icazə verilmirdi. Cümə axşamları isə valideynlər xüsusi icazə ilə qızlarını evlərinə apara bilərdilər [9].

### *Cümhuriyyət dövründə qadınların əmək hüququ*

Qadınların siyasi, təhsil və digər hüquqları ilə yanaşı əmək hüquqları və sosial təminatları məsələsi də Cümhuriyyət parlamentinin diqqətdə saxladığı aktual mövzulardan idi. AXC Parlamentinin 10 dekabr 1918-ci il tarixində keçirilmiş ikinci iclasında qadınların kişilərlə bərabər bütün hüquq və azadlıqlarını təmin etmək üçün qəbul olunmuş "İşçi məsələsi" adlı qanunda, həmçinin onların əmək hüquqları göstərilmişdir:

- Hər iki cins üçün 8 saatlıq iş günü (maddə 28);
- Həftədə bir dəfə istirahət günü (maddə 29);
- 16 yaşına qədər olan məktəb yaşlı uşaqların işlədilməsinin qadağan edilməsi və 16 yaşından 18 yaşına qədər olan cavanların iş gününün 6 saatdan artıq olmaması (maddə 32);
- Qadınları səhhət və vücudlarına zərərli olan işlərdə çalışdırmaq qadağandır. Hamilə olan qadınlar doğuşdan 4 həftə əvvəl və 6 həftə sonra əmək haqları tam ödənməklə xidmətdən azad edilir (maddə 33);

- Qadınların işlədiyi hər bir fabrik və zavodda südəmər uşaqlar üçün tərbiyəxanalar təsis olunmalıdır (maddə 34);
- Qadınların çalışdığı yerlərə qadın müfəttişlər təyin olunmalıdır (maddə 38);
- Sahibkarların hesabına xəstələnmiş fəhlələrə müftə dərman verilməli və xəstə olduqları müddətdə əmək haqları onlara çatdırılmalıdır (maddə 40);
- Bu qanunlara əməl etməyən sahibkarlar cinayət məsuliyyətinə cəlb ediləcəklər [10, s.25].

Parlamentin ikinci iclasında "Hümmət" fraksiyasından Əkbər ağa Şeyxülislamov qadın hüquqlarından bəhs edərək deyirdi: "Millətimizin yarısını təşkil edən qadınlar qul sifətindədirlər. Biz onlara insan surətində baxmalıyıq. Millətin yarısı işləyib, yarısı işləməsə o millət çolaqdır. Üzərinə heç bir xeyir yetirə bilməz. Bu gün qadınlarımız gələcək övladlarımıza tərbiyə verməkdədirlər. Əgər onlar azadə olmasalar, dövlət və vətənimizi müdafiə edən azad fikirli övlad dəxi yetirə bilməyib, özləri qul və əsir yaradarlar". O, nitqinin sonunda təknikahlılığın – bir kişinin yalnız bir qadınla evlənməsinin qanuniləşdirilməsi prinsipini də irəli sürmüşdür [10, s.28-29].

Demokratik müzakirələr və məqsədyönlü siyasət nəticəsində qadınların məşğulluq imkanlarının artırılması üçün Cümhuriyyət Parlamentində qanun qəbul olunmuş, qadınların daha çox məşğul olduğu kustar sənayenin inkişafı və genişləndirilməsi məqsədilə yerli sahələrə kömək göstərən kustar sənaye kursları təşkil etmək üçün vəsait ayrılmışdı. İşsizliyin aradan qaldırılması və iqtisadiyyatın gücləndirilməsi məqsədilə bir sıra bölgələrdə toxuculuq və tikiş emalatxanası açılmasına dair müxtəlif layihələr də müzakirəyə çıxarılırdı.

Sözügedən qanun layihələrinin hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak etmiş, eləcə də Cümhuriyyət dövrünün ictimai, siyasi, publisistik və digər sahələrində əvəzolunmaz xidmətləri ilə seçilmiş məhşur ziyalı qadınlarımız – Şəfiqə xanım Əfəndizadə, Nigar xanım Şıxlinskaya, Xədicə Ağayeva, Sara Talışinskaya, Badusəba Köçərli, Fatma Topçubaşova, Mədinə xanım Qiyasbəyli, İsmət Aşurbəyova, Pəri Topçubaşova, Sürəyya Axundova, Hənifə Zərdabi, Liza xanım Muxtarova, Əminə xanım Ağayeva, Mina xanım Aslanova, Nigar xanım Vəlibəyova, Gövhər xanım Vəlibəyova, Gövhər xanım Qayıbova və digərləri öz adlarını tarixə yazdırdılar. Lakin 1920-ci il aprel işğalı nəticəsində müstəqilliyinə son qoyulmuş AXC-nin digər sahələrdə həyata keçirdiyi siyasətlərilə yanaşı, qadınlar, onların azadlıqları, hüquqları və rifahı ilə bağlı gördüyü işlər də yarımçıq qaldı. 1937-1938-ci illərdə Sovet rejiminin amansız təqiblərinə və təzyiqlərinə məruz qalanlar arasında dövrün ziyalıları, dövlət xadimləri ilə birgə çiyin-çiyinə çalışmış xanımları, ziyalı, maarifpərvər qadınlar da az olmadı. Onların bəziləri "xalq düşməni" adı ilə güllələndi, Uzaq Sibirə sürgünə göndərildi, fəaliyyətləri yasaqlandı. Sovet dövrünün sonrakı illərində Azərbaycan qadını müəyyən qədər azadlıq qazanmasa da, bu milli müstəqilliyin və demokratiyanın verdiyi azadlıqları əvəz edə bilmirdi.

### *Azərbaycan Respublikasının qadın siyasəti – AXC-nin varislik ənənəsinin davamı kimi*

Azərbaycan xalqının Ümumilli Lideri Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən mütərəqqi siyasət nəticəsində bu gün ölkəmiz Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi olaraq bir çox demokratik dövlət quruculuğu sahələrində olduğu kimi qadın siyasətində də uğurlara imza atmışdır.

Azərbaycan 1995-ci il iyunun 30-da Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" konvensiyasına qoşularaq öz üzərinə müvafiq öhdəliklər götürmüşdür.

Ulu Öndərin müəllifi olduğu müstəqil Azərbaycanın 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının ali hüquqi zəminini yaratdı. Heydər Əliyevin 1998-ci il yanvarın 14-də imzaladığı "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncamı, daha sonra "Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında", "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanları qadınların ictimai-siyasi həyatda iştirak və imkanlarının genişləndirilməsi sahəsində dövlət strategiyasının əsaslarının yaradılmasında mühüm rol oynadı.

Azərbaycan Respublikası tarixində qadın, gender siyasətinin banisi olmuş Ümummilli Lider Heydər Əliyev cəmiyyətdə qadınların roluna daim yüksək qiymət verərək demişdir: "Zahiri gözəlliyi ilə daxili aləminin paklığının vəhdət təşkil etdiyi, öz səbri, təmkini ilə səciyyələnən Azərbaycan qadını dəyanət və sədaqət rəmzinə çevrilmişdir. Onun şəninə dastanlar qoşulmuş, ona dahilər və qəhrəmanlar anası deyilmişdir. Tariximizin keşməkeşli səhifələrinə Azərbaycan qadını qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir kimi öz adını həkk etdirmişdir".

Prezident İlham Əliyev qadınların cəmiyyətdə daha fəal iştirakına dair bir çox addımlar ataraq, bu istiqamətdə hüquqi bazanı zamanın tələblərinə uyğunlaşdırmaqda və zənginləşdirməkdədir. 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanun, Qadın Problemləri üzrə Dövlət Komitəsinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılması ilə bağlı müvafiq sərəncam və s. buna bariz nümunədir.

Beləliklə, Aazərbaycan dövləti tərəfindən həyata keçirilən gender siyasətinin mahiyyətində qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılması dayanır. Bu səbəbdəndir ki, günümüzdə onlar iş dünyasında, dövlət idarəçiliyində, mədəniyyət sahəsində, səhiyyədə, təhsildə, elmdə və digər ölkə əhəmiyyətli sahələrdə öz sözünü deməkdədir.

### *Nəticə*

Çarizm dövründə savadsızlıq və fanatik ənənələr səbəbindən ictimai və siyasi həyatdan təcrid olunmuş şəraitdə yaşayan Azərbaycan qadınları təhsil, siyasi, seçki kimi bir çox hüquqlardan məhrum edilmişdi. Onların çətin həyat şəraiti bir çox ziyalıları və savadlı, maarifpərvər din xadimlərimizi narahat edir, onları çıxış yolu axtarmağa vadar edirdi. Nəhayət, 1918-ci ildə öz müstəqilliyinə qovuşan Azərbaycanda bu məsələ öz həllini tapmış oldu.

Müsəlman Şərqində ilk respublika, ilk parlament, demokratik idarəçilik sistemi, hakimiyyət bölgüsü, hüquqi dövlət, gömrük, hüquq-mühafizə orqanları, ordu quruculuğu və sahələrində ilklərə imza atmış AXC-nin əsas dövlətçilik prinsiplərindən biri də irqindən, milliyatindən, dinindən, məzhəbindən, eyni zamanda cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi məsələsi olmuşdur. Beləliklə, bu hüquqi dövlətdə cinsiyyət fərqi aradan qaldırılaraq, bütün hüquqlar kimi qadın hüquqları da dövlət tərəfindən tanınmış və qorunmuşdur. Avropa və Amerika ölkəsindən xeyli əvvəl qadınlara seçki hüququnun verilməsi, qadınların təhsil və mədəni sahələrdə inkişafına xüsusi diqqət göstərilməsi və s. cümhuriyyətin qadınlara dair yürütdüyü siyasətin əsasını təşkil etmişdir.

## ƏDƏBİYYAT


1. Qasımova. A.// Qadın azadlığının carçısı // "Azərbaycan", 2015, 9 iyul, s. 2.
2. "Kaspi" qəzeti, 7 oktyabr 1901.
3. "Баку", 23 апреля 1917 г.
4. Azərbaycan Cümhuriyyəti Hökumət qanun və binagüzarlıqları məcmuəsi // 1919, №1.
5. Qadın hüquqlarının müdafiəsi: beynəlxalq və milli aspektlər. Bakı: 2018.
6. Məmmədzadə M.B. // Azərbaycan Milli Xartiyası (28 mayis, İstiqlal Bəyannaməsi) // "Azərbaycan" jurnalı. Bakı: 1991, № 4, s. 132-149.
7. Azərbaycan tarixi. Yeddi clddə. V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, 696 s.
8. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı: 2004.
9. Mərdanov Misir. İlk milli seminariya: Qazax Müəllimlər Seminariyası // 525-ci qəzet, 8 dekabr 2018-ci il.
10. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar). I cild.

Туран Насирова

## ЖЕНСКАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

РЕЗЮМЕ

В статье рассказывается о женщинах, занимающих особое место в национально-нравственных ценностях азербайджанского народа, семье, обществе, государственном управлении, а также о приобретении ими свобод и прав в период существующей в 1918-1920 годах Азербайджанской Демократической Республики. Также в статье описывается деятельность женщин в общественно-политической сфере, в борьбе с неграмотностью и невежеством.

Turan Nasirova

## WOMEN'S POLICY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

SUMMARY

The article describes women who occupy a special place in the national-moral values of the Azerbaijani people, family, society, government, as well as their acquisition of freedoms and rights during the period of the Azerbaijan Democratic Republic in 1918-1920. The article also emphasizes activities of women in the socio-political sphere, fight against illiteracy and ignorance.

# “NAXÇIVANQALA” TARİX-MEMARLIQ MUZEY KOMPLEKSİNDƏ NÜMAYİŞ ETDİRİLƏN DAŞ QOÇ HEYKƏLLƏRİNİN KİTABƏLƏRİ

***Fəxrəddin SƏFƏRLİ,***
*AMEA-nın müxbir üzvü, AMEA*
*Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya*
*və Arxeologiya İnstitutunun direktoru, professor*
*hacifexreddin@yahoo.com.tr*

***AÇAR SÖZLƏR:*** *Naxçıvan, Naxçıvanqala, Badamlı, muzey, qoç heykəli.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Нахчыван, Нахчывангала, Бадамлы, музей, изваяние барана.*
***KEY WORDS:*** *Nakhchivan, Nakhchivanqala, Badamli, museum, statue of ram.*

Naxçıvan Muxtar Respublikası əhalisi arasında “Naxçıvanqala”, “Köhnəqala”, “Torpaqqala” adı ilə tanınan qala orta əsrlərdə Naxçıvanın ictimai-siyasi, mədəni, xüsusilə hərbi həyatında mühüm rol oynamışdır. Məhz bu cəhətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun tapşırığı ilə Naxçıvanqalada 2010-cu ildən başlayaraq təbiilik və orijinallıq saxlanmaqla bərpa işləri aparılmış, onun əvvəlki görkəmi özünə qaytarılmışdır. Bərpa işləri başa çatdıqdan sonra Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədi ilə Ali Məclis Sədrinin 5 iyun 2013-cü ildə imzaladığı “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqındakı Sərəncamı əsasında “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır [1]. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə bağlı tədbirlərdə iştirak etmək üçün Naxçıvana gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 aprel 2014-cü ildə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuş, bununla əlaqədar tapşırıq və tövsiyələrini vermişdir [2, s.23-24].

Muzey qurularkən onun geniş sahəyə malik qala divarları içərisindəki həyəti də nəzərə alınmış, buraya gələn insanların seyr etməsi üçün muxtar respublikanın müxtəlif yaşayış məskənlərindən gətirilmiş maddi-mədəniyyət abidələri, o cümlədən bədii daşyonma sənəti nümunələri də qoyulmuşdur. Bu nümunələr içərisində daşdan hazırlanmış qoç və qoyun heykəli tipli qəbirüstü xatirə abidələri özünəməxsus yer tutur.

Qoç və qoyun heykəlləri, həmçinin onların qəbirlərin üstünə qoyulması adəti çox qədim tarixə malikdir. Qəbirüstü daş qoç və qoyun heykəllərinin yayılma arealını nəzərimizdə canlandırsaq, belə bir mənzərə aydın görünür ki, qəbirlərin üstünə bu tip abidələrin qoyulması adəti türk xalqlarına, xüsusilə oğuz türklərinə məxsusdur. Tədqiqatçıların fikrincə, bu adət oğuz türklərinin qədim dəfn adətləri ilə əlaqədar yaranmışdır [3, s.188]. Ədəbiyyat materiallarından məlum olur ki, Xakasiyada və Qazaxıstanda e.ə. II minillikdən [4, s.23], Cənubi Azərbaycanda

e.ə. I minillikdən [5, s.68], Monqolustanda eramızın VIII əsrindən türk xalqlarına məxsus mərhumların qəbirlərinin üstündə belə heykəllər qoyulmuşdur [4, s.23-24; 6, s.18]. Şimali Azərbaycanda da belə bir adət mövcud olmuş, ancaq İslamın qəbulundan sonra, xüsusilə İslamın intibah dövründə müəyyən müddət unudulmuşdur. Ona görə də Azərbaycanda, o cümlədən onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan bölgəsində həmin dövrə aid bu tip qəbirüstü abidələrə rast gəlinmir. Naxçıvan Muxtar Respublikasında apardığımız tədqiqatlara əsaslanaraq deyə bilərik ki, qəbirlərin üstünə qoç və qoyun heykəllərinin qoyulması adəti təxminən XIV əsrdən başlayaraq tədricən dirçəlməyə başlamış, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hakimiyyəti dövründə genişlənmişdir. Məhz buna görə də Naxçıvan ərazisində indiyədək gəlib çatan qəbirüstü qoç və qoyun heykəllərindən az bir qismi XV əsrə, böyük əksəriyyəti XV əsrdən sonrakı dövrlərə, xüsusilə XVI-XVII əsrlərə aiddir.

Muzeyin ətrafında nümayiş etdirilən bu heykəllərdən bəzilərinin üstündə xalqımızın tarixinə, mədəniyyətinə, etnoqrafiyasına aid müxtəlif təsvirlər həkk olunmuşdur. Burada nümayiş etdirilən beş ədəd qoç heykəlinin üzərində ərəb əlifbası ilə müxtəlif məzmunlu kitabələr yazılmışdır.

1. Muzey binasının şimal-qərb hissəsində, həyətdə nümayiş etdirilən sarımtıl rəngli dağ daşından hazırlanmış bir ədəd qoç heykəli tipli qəbirüstü xatirə abidəsi (106x45x28sm) üzərində kitabə vardır (şəkil 1). Üzbəüz dayandıqda fiqurun sağ yanında “Mərhəmətli və bağışlayan Allahın adı ilə!”, arxa ayağı üzərində “Subhan Allah” (“Allaha eşq olsun!”), qabaq ayağı üzərində isə “və əl-Həmdu Lillah” (“və Allaha həmd olsun!”) kimi dini kəlamlar həkk edilmişdir. Buna oxşar kitabə mətninə Ordubad rayonunun Düylün kənd qəbiristanında qeydə aldığımız və tədqiq etdiyimiz bir ədəd daş qoç heykəli üzərində də rast gəlinmişdir [6, s.62; 8, s.83].

Qoç heykəlinin digər yanında yazılan kitabə müəyyən qədər aşındığı üçün yazını tam oxumaq mümkün olmamışdır. Kitabənin əvvəlində Qurani-Kərimin 55-ci (“ər-Rahmən”) surəsinin 26-cı ayəsi yazılmışdır: “(Yer) üzündə olan hər kəs (hər canlı) fanidir (ölümə məhkumdur)” [7, s.531].

Qurani-Kərimin bu ayəsindən sonra mərhum haqqında məlumat verən sözlər yazılmışdır. Ancaq orada həkk edilən sözlər aşınmaya məruz qaldığı üçün onlardan hələlik yalnız mərhumun vəfat tarixini oxumaq mümkün olmuşdur: “... 970-ci il” (miladi 1562-1563-cü il).

Heykəl ortadan sınaraq iki yerə bölünmüşdür.

2. Muzeyin həyətində nümayiş etdirilən başqa bir qoç heykəli qırmızımtıl rəngli daşdan hazırlanmışdır (105x20x60 sm). Heykəlin ayaqları zaman keçdikcə sınıb məhv olmuşdur. Qoç heykəlinin sol yanında oyma üsulu ilə ərəb dilində dörd sətirdə kitabə həkk edilmişdir (şəkil 2). Kitabənin mətninin tərcüməsi belədir:

“Onun sahibi Zeynal Bəkiridir. 1078-ci il”.

Kitabədən aydın olur ki, qoç heykəli hicri-qəməri təqvimi ilə 1078-ci ildə (1667-1668-ci il) vəfat etmiş Zeynal Bəkiri adlı adamın xatirəsinə hazırlanmışdır. Kitabədə mərhumun vəfat tarixi “sənə” (il) sözünün üstündə və altında yazılmaqla iki dəfə həkk edilmişdir.

Qoç heykəli muzeyə Ordubad rayonunun Biləv kənd qəbiristanından gətirilmişdir. Ötən əsrin 80-ci illərinin əvvəlində Biləv kənd qəbiristanında bu və digər qoç heykəlləri tərəfimizdən qeydə alınmış, tədqiq olunmuş və 1984-cü ildə nəşr etdirilən məqalədə onlar haqqında məlumat verilmişdir [8, s.49-55]. Sonradan Zeynal Bəkiriyə məxsus qoç heykəlinin üzərində həkk edilən kitabə də daxil olmaqla həmin məsələlər haqqında fəlsəfə doktoru dissertasiyasında bəhs olunmuşdur [6, s.64; 8, s.85-86].

3. Muzeyin arxa tərəfində qırmızımtıl rəngli daşdan hazırlanmış başqa bir qoç heykəli (şəkil 3) də nümayiş etdirilir. Heykəlin (107x48x28 sm) sol yanında iki sətirdə ərəb dilində kitabə həkk edilmişdir. Kitabənin mətninin tərcüməsi belədir: “Onun sahibi Cəbrailin oğlu Əlidir. 1086-cı il” (miladi 1675-1676-cı il).

4. Qalanın şərq tərəfdəki əsas giriş qapısından girərkən sol tərəfdə nümayiş etdirilən və günümüzədək əsasən salamat vəziyyətdə gəlib çatan heykəl diqqəti xüsusilə cəlb edir. Qoç heykəli muzeyə Şahbuz rayonunun Türkeş kənd qəbiristanından gətirilmişdir. Biz 1990-cı ilin yayında epiqrafik material toplamaq məqsədilə Türkeş kəndinə səfərimiz zamanı kəndin mərkəzində, Türkeş çayının sağ sahilində təpənin yamacında yerləşən və təxminən 2 hektar sahəni əhatə edən qəbiristanda tədqiqat aparmışdıq. Həmin vaxt bu qoç heykəli qeydə alınaraq üzərində həkk olunan kitabə tədqiq olunsa da, indiyədək nəşr etdirilməmişdir.

Boz rəngli sərt dağ daşından hazırlanmış bu qoç heykəli ilə (150x60x45 sm) üzbəüz dayandıqda sol yanında xatirəsinə hazırlandığı mərhumun haqqında ətraflı məlumat verən kitabə həkk edilmişdir (şəkil 4). Dörd sətirdə, ərəb dilində oyma üsulu ilə həkk olunmuş kitabənin mətninin tərcüməsi belədir: “1101-ci il. Məhəmmədqulunun Muradxan adlı oğlu. Əslən Badamlı sakini. Allahım, əgər bu şəxs günahkarlardandırsa, onu bağışla!” (miladi 1689-1690-cı il).

Kitabənin məzmunundan aydın olur ki, mərhum Muradxan Məhəmmədqulu oğlu əslən indiki Şahbuz bölgəsinin Badamlı kəndindən olmuşdur. Görünür, Badamlı kəndində doğulub boya-başa çatan Muradxan hansı səbəbdənsə sonralar təxminən 7-8 km cənubda yerləşən Türkeş kəndinə köçmüş, həmin yerdə yaşamış, vəfat etdikdən sonra orada da dəfn edilmişdir. Qəbirin üstündə belə gözəl və möhtəşəm xatirə abidəsinin qoyulması onun zəmanəsinin sayılıb-seçilən və imkanlı şəxsiyyətlərindən olduğunu sübut edir. Onun xatirəsinə tərtib olunan belə məzmunda kitabəyə Naxçıvan Muxtar Respublikasının epiqrafik abidələri içərisində, demək olar ki, indiyədək rast gəlinməmişdir. Ancaq Ordubad şəhərinin “Malik İbrahim qəbiristanlığı”nda buna oxşar mətnli qəbirüstü xatirə abidəsinə, yəni Əlincəli Molla Həsənəlinin məzar kitabəsinə rast gəlinmişdir [9, s.108, 136].

Kitabənin sonunda qeyd olunan “Allahım, əgər bu şəxs günahkarlardandırsa onu bağışla!” fikri mərhumlar üçün qılınan cənazə namazının duasından bir parçadır [10, s.148].

Fiqurun o biri yanında isə qılınc təsviri həkk olunmuşdur.

Kitabənin məlumatından aydın olur ki, Şahbuz rayonunun Badamlı kəndi indi olduğu kimi XVII yüzillikdə də belə adlandırılmışdır.

5. Muzey binasının qərb tərəfində boz rəngli daşdan yonulmuş başqa bir qoç heykəli (şəkil

5) də nümayiş etdirilir. Heykəlin (97x48x38 sm) belindən başlayaraq sağ tərəfində oyma üsulu ilə kitabə yazılmışdır. Ancaq zaman keçdikcə daşın üstünü basan mamır kitabənin oxunuşunu çətinləşdirmişdir. Ona görə də kitabədən hələlik "Onun sahibi ... Məhəmməd ... oğlu ..." sözləri oxunmuşdur.

Qoç heykəlinin sol yanında isə İslamın doktrinası – "Lə iləhə illəllah, Muhəmmədən rəsul Allah" ("Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın  elçisidir") sözləri həkk edilmişdir.

Qoç heykəlinin üzərində tarix olmasa da, oxşar abidələr ilə müqayisə edərək onu XVII əsrə aid etmək olar.

Muzey kompleksinin həyətində üzərində kitabə olan bu qoç heykəllərindən başqa bu tipli digər abidələr də mövcuddur. Həmin abidələrdən bəzisinin üzərində təsvirlər vardır. Məsələn, giriş qapısından daxil olarkən sağ tərəfdə qoyulan qoç heykəlinin (şəkil 6) sağ yanında kaman və qılınc, belində isə qabartma üsulu ilə günəş təsviri həkk edilmişdir.

Bu və digər qoç heykəllərinin üzərində həkk olunan təsvirlər xalqımızın mədəniyyətini, etnoqrafiyasını, insanların peşəsini, məşğuliyyətini və s. öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. Çox sərt və digər daş növlərindən müxtəlif formada hazırlanan bu qoç və qoyun heykəllərinin hamısı naxçıvanlı ustalar tərəfindən hazırlanmışdır. Orta əsrlər zamanı bölgənin bir sıra yerlərində (Culfa, Kırna, Biləv, Tivi və s.) fəaliyyət göstərən daş üzərində işləmə mərkəzlərində hazırlanan bu abidələr və onların üzərində salınan təsvirlər təsdiq edir ki, keçmişdə Naxçıvan ərazisində bədii daşyonma sənəti yüksək inkişaf səviyyəsinə çatmışdır. Həmçinin bu abidələr üzərində ərəb əlifbasının müxtəlif xətləri ilə həkk edilmiş kitabələr orta əsrlər zamanı Naxçıvanda xəttatlıq sənətinin də inkişaf etdiyini göstərir.

## ƏDƏBİYYAT


1. "Şərq qapısı" qəzeti, 6 iyun 2013-cü il.
2. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: "Əcəmi" NPB, 2014, 104 s.
3. Рзаев Н.И. Исскуство Кавказской Албании IV в. до н.э. – VII в.н.э. Баку: Элм, 1976, 255 с.
4. Əfəndiyev R. Daşlar danışır... Neolit Dövründən-XIX yüzilliyədək. Bakı: Gənclik, 1980, 31 s.
5. Rzayev N. Əsrlərin səsi. Bakı: Azərnəşr, 1974, 86 s.
6. Сафарли Г. Эпиграфичиские памятники Нахчывана. Нахчыван: ИПО «Аджеми», 2017, 200 с.
7. Qurani-Kərim (Tərcümə: Z.Bünyadov, V.Məmmədəliyev). Bakı, "Azərnəşr", 1991.
8. Səfərov F. Ordubad rayonunun epiqrafik abidələrindən (XV-XX əsrin əvvəlləri). Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1984, № 1, s. 49-55.
9. Səfərli H. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, 192 s.
10. Seyfeddin Yazıcı. Temel dini bilgiler (İtikat, ibadet, ahlak, siyer). Ankara: Türk Tarih Kurumu Basımevi, 1999, 336 s.

Фахраддин Сафарли

## НАДПИСИ КАМЕННЫХ ИЗВАЯНИЙ БАРАНОВ ДЕМОНСТРИРОВАННЫХ В ИСТОРИКО-АРХИТЕКТУРНОМ МУЗЕЙНОМ КОМПЛЕКСЕ «НАХЧЫВАНГАЛА»

РЕЗЮМЕ

В статье рассказывается о каменных изваяных баранов, демонстрированных во дворе историко-архитектурного комплекса «Нахчывангала». Пять изваяний в музее, привезенных из различных поселений автономной республики каменных изваяний баранов имеют надписи. А также на нескольких изваяниях выгравированы различные изображения. Эти надписи и изображения представляют сведения, относящиеся к средневековый истории и культуре Азербайджана. Также эти памятники доказывают, что в период средних веков в Нахчыване профессия художественной резьбы на камне и каллиграфия были на высоком уровне развития.

Fakhraddin Safarli

## THE INSCRIPTIONS OF STONE RAM SCULPTURE DEMONSTRATED IN HISTORICAL-ARCHITECTURAL MUSEUM COMPLEX “NAKHCHIVANQALA”

SUMMARY

The article deals with sculptures are exhibited in the courtyard of the Historical-Architectural Museum Complex of “Nakhchivanqala”. There are inscriptions over 5 units of ram statues which are brought from the various settlements of the republic to the museum. Also, some of these ram sculptures are engraved on different drawings. These inscriptions and illustrations provide information about the history and culture of medieval period of Azerbaijan. Also, these monuments prove that the art of artistic stone chipped and calligraphy in the Middle Ages in Nakhchivan was at a high level of development.

***Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.***
***Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5***



Şəkil 1.



Şəkil 2.



Şəkil 3.



Şəkil 4.



Şəkil 5.



Şəkil 6.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# ÖMƏR İBN XƏTTABIN QURAN HÖKMLƏRİNİN TƏTBİQİNDƏ ZAMAN-MƏKAN FAKTORUNU NƏZƏRƏ ALMASI VƏ HÖKMLƏRİN TARİXİLİYİ PROBLEMİ

**_Dilavər MƏMMƏDOV,_**
*AMEA-nın akademik Ziya Bünyadov*
*adına Şərqşünaslıq İnstitutunun*
*Din və ictimai fikir tarixi şöbəsinin dissertantı*
*dilaver.mamedov6@gmail.com*

***AÇAR SÖZLƏR***: *xəlifə Ömər, hədd cəzaları, hökmlərin dəyişməsi, əhli-kitab qadınlar, cizyə.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *халиф Омар, штраф, изменчивность вердиктов, джизья, женшины из людей Писания.*

***KEYWORDS:*** *caliph Omar, punishment, change of sentence, Women of people of the Scripture, jizyah.*

## Giriş

Quran hökmlərinin reallıq və zaman-məkan çərçivəsində dəyərləndirilməsi uzun müddətdir ki, müzakirə predmetidir. Məhəmməd Peyğəmbərin (s) vəfatından sonra İslam coğrafiyasının genişlənməsi bir çox problemin ortaya çıxmasına zəmin yaratmışdır. Həzrət Məhəmmədin (s) peyğəmbərliyi dövründə müəyyən hadisələr zəminində Allah tərəfindən endirilən Quran İslam peyğəmbərinin vəfatından sonra kitab halına salınmışdır. Həyatda ikən nazil olunan ayələri izah edən Həzrət Məhəmmədin (s) vəfatı ilə vəhy pəncərəsinin bağlanması gələcək nəsillərin Quran ayələrini mövcud reallığa və zamana uyğunlaşdırmaq problemini ortaya çıxarmışdır.

Məqalədə İslam xəlifələrinin, xüsusilə də xəlifə Ömərin hakimiyyəti illərində onun bəzi Quran ayələrinə yanaşma tərzinə toxunulmuşdur. Eyni zamanda, İslam mədəniyyətinin formalaşmasında böyük xidməti olan xəlifə Ömərin istər oğurluq zamanı hədd cəzasının tətbiqi, istər qəlbləri İslama isinişdirilən (müəlləfeyi-qülub) təbəqəyə zəkatdan pay verilməməsi və kitab əhli olan qadınlarla evliliyi məsləhət nöqteyi-nəzərindən dəyərləndirməsi kimi məsələlər öz əksini tapmışdır.

## *Quran hökmlərinin tətbiqində zaman-məkan faktorunun nəzərə alınması*

İslam dininə görə, Allah insanın həm bu dünya, həm də axirət həyatını faydalı etməsi üçün Qurani-Kərimi nazil etmişdir. Quran həm də insanın yaradıcı fəaliyyəti üçün lazım olan bütün

əxlaq normalarını ehtiva edən kitabdır. Belə ki, Kitabın əsas mərkəzi insan, ilahi təlimlərin əsas qayəsi isə insanın islah edilməsidir [1, s.83].

Bir halda ki, vəhyin müraciət obyekti insandır, deməli, onun izahı və insanlara çatdırılması da bəşər övladı tərəfindən reallaşdırılmalıdır. Allah tərəfindən seçilmiş bu insanlar mənsub olduqları cəmiyyətin sosial-psixoloji amillərini nəzərə almış, ilahi təlimləri onların düşüncə və adət-ənənələrinə müvafiq şəkildə izah etmişlər. Hər bir peyğəmbərin başlıca missiyası insanlara tövhid əqidəsini aşılamaq olmuş, daha sonra cəmiyyətdə bu prinsip əsas götürülərək, ədalət və rifahın bərqərar olunmasına səy göstərilmişdir. Bu baxımdan, son peyğəmbər sayılan Həzrət Məhəmməd (s) missiyasını yerinə yetirmək üçün müəyyən vaxta ehtiyac duymuşdur. Uca Allah vəhyi insanlara çatdırmaq üçün seçdiyi hər elçisini əvvəlcə mənsub olduğu cəmiyyətdə püxtələşdirmiş, toplumu onun düşüncə tərzi ilə tanış etmiş, bundan sonra öz peyğəmbərinə göndərdiyi vəhyi həmin cəmiyyətə təbliğ etmək kimi ağır vəzifə vermişdir. İyirmi üç il davam edən bu çətin və məsuliyyətli missiya boyu Məhəmməd Peyğəmbər (s) vəhyin bilavasitə açıqlayıcısı, izah edicisi, onları insanlara münasib və anlaşıqlı formada şərh edən rəhbər olmuşdur.

Həzrət Peyğəmbərin (s) həyatına nəzər saldıqda vəhyin təbliği prosesinin əsasən iki mərhələdən ibarət olduğu görünür. Belə ki, vəhyin əsas ideoloji yönü Məkkədə, praktik və dövlət quruculuğununun əsaslarının qoyulduğu dövr isə Mədinədə olmuş, cəmiyyətin böyük hədəflər və məqsədyönlü həyat tərzi yaşamağa əqli və mənəvi baxımdan hazırlanması prosesi təqribən 13 il davam etmişdir. Məkkədə nazil olan əksər ayələr pxisoloji və sosial baxımdan kamil insanın formalaşmasına yönəlmişdir. Mədinə dövründə enən ayələr isə daha çox insanların gündəlik həyatda qarışlaşdıqları problemlər və hüququn müxtəlif sahələri ilə bağlı olmuşdur. Qeyd olunmalıdır ki, Qurani-Kərimdə heç bir dövlət forması təqdim edilməmişdir. Məhəmməd peyğəmbərin (s) də Mədinəyə dövlət qurmaq məqsədilə getdiyini iddia etmək doğru olmazdı. İslamın və onun peyğəmbərinin əsas missiyası yer üzündə haqsızlığın qarşısını almaq, ədaləti bərpa etmək, bir sözlə, insanın nə üçün yaradıldığını nəzəri və praktiki şəkildə çatdırmaq idi. Şübhəsiz ki, Həzrət Məhəmməd (s) bu missiyanın yalnız sözlə həyata keçəcəyinə inanacaq qədər sadəlövh deyildi və haqq uğrunda apardığı mübarizədə hər baxımdan güclü olmağın əhəmiyyətinin fərqində idi. Bu səbəbdən o təbliğ etdiyi dinin yayılmaması üçün hər fürsəti dəyərləndirməyə çalışan düşmənləri ilə mübarizəyə ciddi yanaşmışdır. Bədir, Uhud və Xəndək döyüşləri, Xeybərin fəthi, Mutə və Huneyn qəzavatları, həmçinin Taif səfəri artıq müsəlman cəmiyyətinin özünü bir güc kimi sübut etməsinin başlanğıcı idi. Hüdeybiyyə sülh müqaviləsi isə məkkəlilərin müsəlmanların siyasi mövcudluqlarının rəsmi şəkildə tanınmasının əsasını təşkil etmişdir [2].

İstər yaşadığı dövrdə, istərsə də vəfatından sonra haqq mübarizəsinin yarımçıq qalmaması üçün sağlam nəsil və ardıcılların yetişdirilməsi Peyğəmbərin (s) vəzifələrindən olmuşdur.

O, həyatda ikən ilahi təlimin yeganə şərhçisi, başqa sözlə, İslamın hökm və qanunlarını bəyan edən şəxs idi. İslamı hər kəsə anlaya biləcəyi formada, hər insanın düşüncə tərzinə müvafiq şəkildə izah etmişdir. Lakin hər bir bəşər övladı kimi Məhəmməd Peyğəmbər (s) də

müəyyən zaman kəsiyində ömür sürmüş və ilahi vəhyi təbliğ etmişdir. Onun vəfatından sonra İslam geniş coğrafiyaya yayılmışdır.

Qeyd etdiyimiz kimi, İslam zaman və məkan faktorunu nəzərə alan dindir. Reallığın nəzərə alınması ilahi təlimləri insanlara çatdıran bütün peyğəmbərlərin, o cümlədən sonuncu peyğəmbər Həzrət Məhəmmədin (s) əhəmiyyət verdiyi xüsuslardan idi. Həmçinin Qurani-Kərim də insanın sözügedən məsələ ilə bağlı psixoloji hazırlığını, yaşadığı dövrün reallığını, bəzi hökmlərin tətbiqində zaman amilini nəzərə almış, qərarların icrasında tədricilik metoduna üstünlük vermişdir. İslam coğrafiyasının genişlənməsi nəticəsində ortaya çıxan yeni problemlərin çoxluğu hökmlərin sabit qalmamasını zəruri etmişdir. Belə olduğu təqdirdə şəriətin məqsədləri nəzərə alınmalı, fayda əvəzinə, fəsad meydana gəlməməlidir. Hazırda hökmlərin zaman və məkana tabeliyi, dövrün və reallığın dəyişməsi ilə hökmlərin dəyişib-dəyişməyəcəyi mövzusu müsəlmanlar tərəfindən ciddi müzakirə olunur. İslam tarixinə nəzər saldıqda Həzrət Peyğəmbərin (s) vəfatından sonra xəlifələrin bir çox məsələdə Quranın prinsiplərini əsas götürərək mühüm problemlərin həllində öz ictihadları ilə qərar verdiklərinin şahidi oluruq. Bu baxımdan, xüsusilə raşidi xəlifələrdən Həzrət Ömərin qərar və ictihadları diqqəti cəlb edir [3, s.74].

İslam tarixinə nəzər saldıqda Məhəmməd peyğəmbərin (s) vəfatından sonra İslam coğrafiyasının genişlənməsi ilə paralel olaraq, bir çox problemin də meydana gəldiyi görünür. Belə ki, müsəlmanlar yeni mədəniyyətlərlə tanış olarkən Quranın hökmləri yeni problemlərin həllinə kifayət etmirdi. Şafeyi alimlərindən Əbdülməlik ibn Abdullah əl-Cüveyni özünün “Əl-Bürhan fi Üsul əl-Fiqh” adlı əsərində yazırdı: “Səhabənin hər hansı bir məsələ ilə bağlı fətvası Quranın nə zahiri, nə də batini ilə əlaqədar idi. Belə ki, fikir yürütmə və ictihad bu fəaliyyətin əsasını təşkil edirdi [4, s.15].

Xəlifə Əbu Bəkrin hakimiyyətinin ilk illərində zəkat verməkdən imtina edən bir sıra qəbilələrlə mübarizəsi, heç şübhəsiz ki, ictihad təşəbbüsünün nəticəsi idi. Çünki Quranın mahiyyətini yaxşı qavramış xəlifə zəkatın yeni qoyulan İslam dövlətinin başlıca iqtisadi bazası olduğunu görürdü. Burada xüsusi qeyd olunmaladır ki, xəlifənin bu qərarı qəbul edərkən heç bir Quran ayəsinə və ya Peyğəmbərin (s) hədisinə istinad etməməsidir. Belə ki, Quranda zəkat verməyənlərlə müharibə aparılmasını əmr edən ayə mövcud deyildir. Sərbəst ictihad edən ilk raşidi xəlifə sosial balansın qorunmasına, cəmiyyətdə hərc-mərcliyin baş almamasına, dövlət başçısının nüfuzunun itirilməməsinə əhəmiyyət verərək belə bir addım atmış və bu zaman dini mətnlərə müraciət etmək əvəzinə, dövrün reallıqlarını nəzərə almış, dinin təməl özəyini ön plana çıxarmışdır.

Bu xüsusları qeyd etdikdən sonra müsəlmanların ikinci xəlifəsi Ömər ibn Xəttabın hakimiyyəti illərinə təsadüf edən bəzi ictihadlarına və bu ictihadların zəruriliyi məsələsinə toxunmaq istərdik.

### *Oğurluq edənin əlinin kəsilməsinə dair ayə və xəlifə Ömərin mövqeyi*

Mənbələrdə bildirildiyinə görə, xəlifə Ömərin hakimiyyəti zamanı bir neçə il quraqlıq olmuş müsəlmanlar həmin illərdə yağış duası etmişlər [5, s.15-16]. Bu səbəbdən də o, həmin

müddətdə oğurluq zamanı əlin kəsilməsinə dair ayənin hökmünü icra etməmişdir. Belə ki: "Biz quraqlığın hökm sürdüyü ildə hədd cəzasını tətbiq etmirik" – məşhur sözü də ona məxsusdur [6, s.140].

Digər rəvayət isə Xatib ibn Əbu Baltanın kölələrinin Müzeynə qəbiləsindən bir nəfərin dəvəsini oğurlayıb kəsmələri ilə bağlıdır. Cinayət sübuta yetirildiyi üçün hədd cəzası tətbiq olunsa da, sonradan xəlifə ac saxlandığına görə oğurluq etdikləri ortaya çıxmış kölələri cəzalandırmaqdan imtina etmişdir [7, s.238-239].

Belə bir sual yaranır ki, oğrunun əlinin kəsilməsi ilə bağlı qəti əmr olduğu halda Həzrət Ömər nə üçün bu cəzanın icrasından imtina etmişdir? Axı Quranın sözügedən ayəsində zərurət, aclıq və ehtiyac kimi hallar qeyd edilməmiş, birbaşa cəzanın icrası əmr edilmişdir! Fikrimizcə, xəlifə ayədəki hökmün tətbiqi zamanı mövcud şəraiti, reallığın tələblərini nəzərə almışdır. Burada diqqəti cəlb edən məqam xəlifənin məsələyə şəriətin məqsədləri nöqteyi-nəzərindən yanaşmasıdır. Belə ki, verilən cəzadan məqsədin insanları pis işlərdən uzaqlaşdırmaq olduğunu yaxşı bilən xəlifə şəriətin əsas məqsədlərindən birini - insan həyatının qorunması prinsipini əsas tutmuşdur. Başqa sözlə, cəza ayələrinin hökmlərinin tətbiqində xəlifə Ömərin yanaşması dövrün tələb və reallıqlarını nəzərə almaq olmuş, məhz zaman və məkan faktoru müvafiq qərarın qəbulunu tələb etdiyi üçün sözügedən metod seçilmişdir.

### *"Tövbə" surəsinin 60-cı ayəsi və xəlifə Ömərin qanunvericiliyə dair ictihad*

Xəlifə Ömərin ictihadlarına dair digər məsələ qəlbləri islama isinişdirilən insanlar haqqında ayənin icrası ilə bağlıdır. Hadisə bilavasitə Ömərin xəlifəliyi dövründə baş verməsə də, ayənin tətbiqi və reallıq amilinin nəzərə alınması məhz onun ictihadının bəhrəsi idi. Ayədə buyurulur: "Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri (İslam dininə) isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah Biləndir, Müdrikdir" [8, s.60].

Əbu Bəkrin xilafəti dövründə bir çox insan İslam dinini qəbul etmişdir. Belələrinin arasında münafiqlər də vardı və onların bəziləri ilə sülh bağlanmışdı. Həzrət (s) həmin kəslərin qəlblərini İslama isinişdirmək və qohumlarının da Allahın dininə gəlmələri üçün onlara zəkatdan pay verərdi. Ancaq Məhəmməd Peyğəmbərin (s) vəfatından sonra onlara zəkatdan verilən payın miqdarı ilə bağlı fikir ayrılıqları yaranmışdır. Əbu Bəkrin xilafəti dövründə həmin şəxslər xəlifəyə müraciət edərək alacaqları zəkat payını təsdiqləmək üçün sənəd istəmiş, daha sonra bu sənədi Ömərə təqdim etmişdilər. Həzrət Ömər isə onların əllərindəki sənədləri cıraraq: "Artıq İslam güclənmişdir və o, sizin dəstəyinizə ehtiyac duymur. Buna görə də sizin zəkatdan pay almaq haqqınız yoxdur", - deyə bildirmişdir. Daha sonra həmin şəxslər Əbu Bəkrin yanına gəlib şikayətlənir: "Xəlifə sənsən, yoxsa Ömər?" – deyə soruşduqda Əbu Bəkir: "Əgər Allah istəyərsə, o" – deyərək, Ömərin qərarını təsdiqləyir. Bu hadisə səhabələrin gözü qarşısında baş vermiş və heç kim Ömərin qərarına etiraz etməmiş, nəticədə Quranın sözügedən ayəsi əshabın icması ilə nəsx olunmuşdur [9, s.44].

Böyük müsəlman alimlərdən İmam Maturidi özünün "Təvilat" adlı təfsir kitabında ayənin

izahı ilə bağlı bu nəzərəçarpan fikri bildirmişdir: "Ayədə ictihadla nəsxə icazə verilməsinə və onun mənasının qaldırılmasına dəlil vardır" [10, s.407].

Nəsxdə deyildiyi zaman Quran ayələrinin tamamilə qüvvədən salınması və tarixin arxivinə atılması nəzərdə tutulmur. Məlumdur ki, İslam ictimai fikrində ayələrin nəsxi problemi ciddi müzakirələrin meydana gəlməsinə zəmin yaratmışdır. Ehtimal olunur ki, İmam Maturidi sözügedən əsərdə İslam düşüncəsində mövcud nəsxi deyil, hökmlərin tətbiqinin müəyyən tarixi zəmində təxirə salınmasını, şəraitin ehtiyaca daha uyğun həll yolunu tələb etməsini və zəmin yaranarsa, hökümlərə bir daha müraciət etmə ehtiyacının ola biləcəyini nəzərdə tutmuşdur.

Rəvayətdən aydın olur ki, Ömər bu qərarı illət/səbəb kontekstində dəyərləndirmişdir. Rəvayətdə xəlifənin yanına gəlib zəkat tələb edənlər, çox ehtimal ki, Həzrət Peyğəmbərin (s) dövründə bu haqqa sahib olan insanlar idilər. Həmin vaxt müsəlmanların zəif olması bu zümrəyə zəkat verilməsini zəruri qılmış, zəkatdan verilən pay müsəlmanları onların şərindən qoruma xarakteri daşımışdır. Ancaq sonradan müsəlmanların güclənməsi Ömərin "İllət aradan qalxarsa, hökm də aradan qalxar" qaydasını tətbiq etməsinə zəmin yaratmışdır. Çünki mövcud vəziyyət dəyişmiş, müsəlmanların güclənməsi hökmün də dəyişməsini labüd etmişdir.

Yuxarıda da vurğuladığımız kimi, ayələr çox açıq və konkret əmrlər ehtiva edir. İlk baxışda ayələrdəki hökmlərin olduğu kimi tətbiqinin vacibliyi qənaəti hasil olmasına baxmayaraq, reallıq və zaman-məkan amili dini mətnlərin tətbiqində mühüm rol oynamışdır. Ömərin sözügedən icraatları da bunun bariz nümunəsidir.

### *Qənimətlərdən xüms vergisinin ayrılması və uzaqgörənlik*

Ayələrin tətbiqində mövcud şəraitin və zaman-məkan amilinin nəzərə alınmasını əks etdirən digər məsələ isə "Ənfal" surəsinin 41-ci ayəsi ilə bağlıdır. Ayədə buyurulur: "Əgər siz Allaha və (haqla batilin) ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdəbiri Allaha, Onun Elçisinə, onun qohum-əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur. Allah hər şeyə qadirdir". Ayədə qənimətlərin kimlər arasında bölüşdürülləcəyi açıq-aydın göstərilir. Belə ki, Səvad bölgəsinin təqsimi ilə bağlı döyüşçülər şəhər valisi Əbu Ubeyd ibn Cərraha şikayətlənərək, fəth olunan ərazilərin aralarında bölünməsini tələb etmişlər. Vəziyyətin gərgin olduğunu görən vali xəlifə Ömərə məktub yazmışdır. Xəlifə Əli ibn Əbu Talib, Talha, Osman, Muaz ibn Cəbəl və Abdullah ibn Ömərin də iştirak etdiyi məşvərət qrupunun fikrini əsas tutaraq, torpaqların döyüşçülər arasında paylanılmayıb fey hökmünə bağlanmasına qərar vermişdir [11, s.25]. Xəlifə Əbu Übeydəyə yazdığı cavab məktubunda: "Allah özlərindən sonra gələcək nəsilləri qiyamət gününədək bu feyə ortaq etmişdir. Allahın fəthini sənə bəxş etdiyi bu torpaqları öz əhalisinə həvalə et və onlardan xərac al. Onlar əkin-biçin işlərini də çox gözəl bacarırlar. Gücləri çatdığı qədər cizyə versinlər. Əgər biz bu əraziləri əhalisi ilə birgə müsəlmanlar arasında paylasaq, bizdən sonra gələcək müsəlmanlara heç bir şey qalmayacaqdır [12, s.372]. Əraziləri ilə birlikdə müsəlmanlara verilən bu insanlar istismara məruz qalacaq, övladlarımız onların uşaqlarını kölə edəcək, beləcə köləlik İslam dini hakim olduğu müddət

ərzində nəsildən- nəslə keçəcəkdir. Onlarla əsir kimi davranılmasına, müsəlmanların onlara zərər verməsinə, halal yollar istisna olmaqla, onların mallarına sahib çıxmalarına əngəl ol. Onlarla bağladığın müqavilənin şərtlərinə sadiq qal" [13, s.140-142].

Bu addım bəzi səhabələr tərəfindən etirazla qarşılansa da, sonradan hər kəs Ömərin bu mövqeyi ilə həmfikir olmuşdur. Xəlifə Ömər isə bu qərarı ilə həmin ərazilərin gələcəkdə İslam iqtisadiyyatının ən mühüm mərkəzlərindən birinə çevrilməsinə imkan yaratmış, münasiblik (məsləhət) prinsipini önə çəkərək, bu ərazilərin torpaq sahibləri arasında bölünməsinə, sosial stabilliyin pozulmamasına və gələcəkdə ciddi problemlərin yaranmamasına nail olmuşdur. Əslində bu addım dinin mahiyyətini və prinsiplərini zamanın və reallığın tələblərinə uyğunlaşdırmaqdır.

### *Əhli-kitabdan olan qadınlarla evliliyə icazə verilməsinə baxmayaraq, xəlifə Ömərin qərarı*

"Əl-Maidə" surəsinin 5-ci ayəsində buyurulur: "Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli mömin qadınlar da, sizdən əvvəl Kitab verilənlərin ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır. İmanı inkar edənin əməlləri boşa çıxar və o, axirətdə ziyana uğrayanlardan olar" [14, s.5].

Qurani-Kərimdə "kitab verilənlərin ismətli qadınları" ilə evlənməyə icazə verilməsinə baxmayaraq, xəlifə Ömər buna qadağa qoymuşdur. Belə ki, Həzrət Ömər Hüzeyfədən xanımını boşamasını tələb etmişdir. Rəvayətlərdə kitab əhli olan qadınlarla təkcə Hüzeyfə deyil, bir çox səhabənin evli olduğu bildirilir. Hüzeyfə boşanma tələbinin belə bir evliliyin haram olub-olmamasından qaynaqlandığını soruşduqda xəlifə haram olmadığını,lakin həmin qadınların əxlaqsızlığa meyil edə biləcəyindən ehtiyatlandığını vurğulamışdır  [15].

Tarixi faktlardan məlum olur ki, başda raşidi xəlifə Ömər olmaqla səhabələr dövlət idarəçiliyində problemlərin həllinə məsləhət və ümumi rifah prizmasından yanaşmışlar. Fikrimcə, kitab əhli olan qadınlarla evlilik xüsusunda İslam coğrafiyasında müsəlman qadınların vəziyyəti də diqqət mərkəzində olmuş, əcnəbi qadınlara meyillilik faktları müsəlman qadınların evdə qalmasına və bundan qaynaqlanan sosial problemlərin vüsət tapmasına zəmin yaratdığı üçün ictihada müraciət edilmişdir.

### *Nəticə*

Qurani-Kərim Məhəmməd peyğəmbərə (s) 23 il ərzində müəyyən hadisələr və problemlər üzərinə tədricən nazil olmuş və bilavasitə hadisələrə "müdaxilə" etmişdir. Müxtəlif zaman və məkanlarda fərqli problemlərin həlli üçün nazil olan ayələr kitab şəklində toplanmışdır. Digər tərəfdən, İslam coğrafiyasının genişlənməsi, müsəlmanların fəthləri özü ilə bərabər, bir çox problem də gətirmişdir. Bir sözlə, vaxtilə spesifik hadisələr üçün enən ayələr zaman keçdikcə genişmiqyaslı problemlərin həllinə çarə tapa bilməmişdir. Məhz xəlifə Ömərin və digər

səhabələrin sosial problemlərin həllində öz rəylərinə və ictihadlarına müraciət etmələri bunun bariz nümunəsidir. Bu hal Quranı tarixin müəyyən dövrünə aid edilməsi iddiasının əksinə olaraq, onun insanlığa təqdim etdiyi prinsiplər nöqteyi-nəzərindən dəyərləndirilməsinin göstəricisidir. Xəlifə Ömər öz hakimiyyəti illərində Allahın kitabındakı hökmləri insanlar arasında tətbiq etmiş, müqəddəs kitabın ağıla və düşüncəyə verdiyi dəyəri praktiki qaydada həyata keçirmişdir. O, qəbul etdiyi bütün qərarları İslamın buyurduğu və ən ümdə dəyər saydığı ədalət prinsipinə əsaslandırmış, praktik ümmətin formalaşmasına zəmin hazırlamışdır.

## ƏDƏBİYYAT


1. Fazlur Rahman. İslam (çev. Mehmet Dağ – Mehmet Aydın) // Ankara Okulu Yayınları // Ankara, 2016.
2. http://www.duasureayet.com/category/hudeybiye-baris-antlasmasi-sartlari-onemi/)
3. http://isamveri.org/pdfdrg/D02917/2006_I_2/2006_I_2_OZTURKM.pdf)
4. Qürtubi Əbu Abdullah Məhəmməd bin Əhməd bin Əbu Bəkir bin Fərh əl-Ənsari əl-Xəzrəci. Əl-Came li əhkam əl-Quran. Təhqiq edən: Əhməd Bərduni və İbrahim Ətfiş. Qahirə. Darül-Kutub əl-Misriyyə, 1964.
5. Ən-Nəvəvi Əbu Zəkəriyyə Muhiddin bin Şərəf. Əl-Məcmu. Darül-Fikir.
6. Əbu Bəkir Əbdürrəzzaq İbn Həmmam İbn Nafe əl-Hümeyri əl-Yəmani əl-Sənani. Əl-Müsənnəf. Təhqiq edən: Həbib Rəhman əl-Əzəmi. Beyrut. əl-Məktəb əl-İslami, 1403.
7. Əhməd əl-Kəsani, Əla əd-Din Əbu Bəkir bin Məsud. Bədai əs-Sənai fi Tərtib əş-Şərae. Darül-Kutub əl-Elmiyyə, 1986.
8. Əs-Sərəxsi, Məhəmməd bin Əhməd bin Əbi Səhl. Beyrut: Darül-Mərifət, 1993.
9. Əbu Mənsur əl-Matrudi, Məhəməd bin Məhəmməd bin Mahmud. Təfsir əl-Matridi. Təhqiq edən: Məcdi Bəslum. Beyrut: Darül-Kutub əl-Elmiyyə, 2005.
10. Əbu Yusif, Yaqub bin İbrahim bin Həbib bin Səd bin Hibtə əl-Ənsari. əl-Xərac. Təhqiq edən: Taha Abdurrauf Səd. Qahirə: əl-Məktəbə əl-Əzhəriyyə li ət-Turas.
11. Əl-Bələzuri Əhməd bin Yəhya bin Cabir. Fütuh əl-Buldən. Beyrut: Dar Məktəbə əl-Hilal, 1988.
12. Əbu Yusif Yaqub bin İbrahim bin Həbib bin Səd bin Hibtə əl-Ənsari. Əl-Xərac. Təhqiq edən: Taha Abdurrauf Səd. Qahirə: əl-Məktəbə əl-Əzhəriyyə li ət-Turas.
13. Zuhayli Vəhbə bin Mustafa.  Fiqh əl-İslami və Ədillatuhu. Dəməşq: Dar əl-Fikir əs-Suriyyə.
14. Əl-Cəssas Əbu Bəkr Əhməd ibn Əli. Əhkam əl-Quran. Tədqiq edən: Əbdüssəlam Məhəmməd Əli Şahin. Beyrut: 1994.
15. İbn əl-Ərəbi Məhəmməd İbni Abdullah. Əhkam əl-Quran. Beyrut: Dar əl-Kutub əl-Elmiyyə, 2003.

Дилавар Мамедов

## ИСТОРИЧНОСТЬ ВЕЛЕНИЙ КОРАНА И УЧИТЫВАНИЕ МЕСТНЫХ И ВРЕМЕННЫХ ФАКТОРОВ В ИХ ПРИМЕНЕНИИ ОМАР ИБН ХАТТАБ

### РЕЗЮМЕ

Оценка вердиктов Корана в контексте реальности, мест и времени является одной из тем, обсуждаемых в течение длительного времени. После смерти Пророка расширение исламской географии также привело к возникновению многих проблем. А также в период откровения Коран, посланный Богом, на основе определенных событий, был выпущен книгой после смерти исламского пророка. После смерти Пророка, обяснившим аяты ниспосланные при жизни, закрытие откровения у будущих поколений выявило проблему адаптации аятов Корана к реальности и времени. В статье коснулись подходам исламских халифов, особенно во время правительства халифа Омара, его подход к некоторым из стихов Корана. Коснулись оценкам халифы Омара, услуги которого в формировании исламской культуры бесценны, на счёт проблем будь то штраф введённый во время кражи, будь то отказ платить зекаты утеплившим сердца исламом и следует ли входить в брак с женщинами, читающими книги.

Dilavar Mammadov

## TAKING INTO CONSIDERATION TIME-SPATIAL FACTOR DURING APPLYING QURANIC VERSES BY OMAR IBN KHATTAB AND PROBLEM OF HISTORICITY OF THE RULES

### SUMMARY

Appreciation the verdicts of the Quran in the context of reality, places and time is one of the topics discussed in a long time. The expansion of the Islamic geography after the death of the Prophet (pbuh) led to the emergence of many problems. Sent down by God during the prophethood of Mohammad, on the basis of certain events, a book was released after the death of the Islamic prophet. The closure of the revelation window after the death of prophet which described the verses revealed in life led to the problem of adaptation the verses of Quran to the reality and time for future generations. The article touched on the approaches of the Islamic Caliphs, especially during the Government of Caliph Omar, his approach to some of the verses of the Koran. The article touched on application of punishment during the theft, not to pay anything whose hearts warmed up to Islam and marriage with the women of people of the Scripture in the point of view of expediency by caliph Omar who played indispensable role in the formation of Islamic culture.

# NAXÇIVAN ABİDƏLƏRİNDƏ YAŞAYAN TARİXİMİZ

***Toğrul XƏLİLOV,***
*AMEA-nın Naxçıvan Bölməsinin dossenti,*
*tarix üzrə fəlsəfə doktoru,*
*x.toqrul@gmail.com*

***AÇAR SÖZLƏR:*** *Naxçıvan, arxeoloji materiallar, abidəllər.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Нахчыван, археологические материалы, памятники.*
***KEY WORDS****: Nakhchivan, archaeological materials, monuments.*

Qədim tariximizin, maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində arxeoloji abidələrimiz özünəməxsus yer tutur. Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikası da qədim və zəngin tarixə malikdir. Muxtar respublikanın ərazisində olan abidələrin tədqiqi tariximizin, maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində olduqca əhəmiyyətlidir. Buna görə də Naxçıvan abidələrinin daha dərindən öyrənilməsi hər zaman diqqət mərkəzində olmuş, bununla bağlı bir çox tövsiyə və tapşırıqlar verilmişdir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə çıxış edərkən demişdir: "Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi - həm təbiətinin, həm adət ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür". Ulu Önədrin bu sözləri Naxçıvan tarixinin öyrənilməsi sahəsində fəaliyyət istiqaməti kimi qarşıya qoyulmuşdur.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxış və sərəncamlarında da Naxçıvan tarixinin öyrənilməsi hər zaman prioritet məsələ olmuşdur. "Naxçıvan qədim Azərbaycan torpağıdır, qədim tarixə və mədəniyyətə malikdir" - deyən Prezident cənab İlham Əliyev tərəfindən Naxçıvan tarixinin dərindən öyrənilməsi sahəsində bir çox tövsiyə və tapşırıqlar verilmişdir. Bu sahədəki tövsiyə və tapşırıqların yerinə yetirilməsi üçün Naxçıvan abidələrində aparılan hər bir uğurlu tədqiqat Azərbaycan arxeologiyasında özünəməxsus yer tutur. Naxçıvanın ilk insan məskənlərindən biri olduğunu sübuta yetirən Qazma, Kilid, Daşqala mağaraları və digər qədim daş dövrünə aid arxeoloji abidələrimiz aparılan tədqiqatlara nümunədir. Həmin abidələrdən tapılan fauna və flora qalıqları, müxtəlif formalı əmək alətləri və digər arxeoloji materiallar Naxçıvanda Daş dövrünün bitki və heyvanat aləmi ilə yanaşı, insanların həyat tərzi, məşğuliyyət sahələri haqqında da məlumat verir [1, s.105-108; 2, s.108-116]. Qazma mağarasından tapılan sümük qalıqlarının əksəriyyətinin iri heyvanlara məxsus

olması göstərir ki, “Müstye mədəniyyəti” dövründə (120-100-40-35 min il bundan əvvəl) bu yerlərdə məskunlaşmış insanların həyatında ovçuluq xüsusi yer tutmuşdur. Oradan tapılmış daş və sümüklər Naxçıvanda daşişləmə və sümükişləmə sahələrinin tarixinin qədim olduğunu sübut edir. Ovçular təpəsi abidəsindən son dövrlərdə tapılan 500-300 min il bundan əvvələ - Alt Paleolit dövrünə aid yeni əmək alətləri sübut edir ki, Naxçıvanda ilkin məskunlaşmanın, insanların bu ərazidə yaşamasının tarixi həmin dövrdən başlanır [3]. Naxçıvandakı aparılan arxeoloji tədqiqatlar zamanı yalnız Azərbaycanın deyil, həmçinin Cənubi Qafqazın Neolit, Eneolit, Tunc və Erkən Dəmir dövrü abidələrinin dövrləşdirilməsi üçün mühüm elmi nəticələr əldə olunmuşdur.

Gəmiqayadakı qayaüstü təsvirlər, piktoqrafik işarələr tarixi baxımdan böyük elmi əhəmiyyət daşıyır və Anadolunun qədim incəsənət abidələri ilə sıx bağlılıq təşkil edərək tarixən bu ərazidə qədim türk etnoslarının yaşadığını sübuta yetirir. Bu abidədəki qayaüstü təsvirlər Kür-Araz, Boyalı qablar, Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən tapılan arxeoloji materiallarla bağlılıq təşkil edərək Naxçıvanın qədim və zəngin tarixinin müxtəlif dövrlərini əks etdirir.

I Kültəpə arxeoloji abidəsində aparılan tədqiqatlar zamanı aşkarlanmış tikili qalıqları və arxeoloji materiallar e.ə. VI-I minillikdə Naxçıvanın qədim sakinlərinin mədəni həyat səviyyəsindən xəbər verir. Tikililər sadə daxili interyerə malikdir. Evlərin içərisində və onların ətrafında təsərrüfat məqsədilə istifadə olunan müxtəlif qurğular düzəldilmişdir. Ərzaq ehtiyatı taxıl quyularında, yaxud təsərrüfat küplərində saxlanılmışdır. Evlərin həyətində və təsərrüfat tikililərinin ətrafında daş döşəmələrdən istifadə və onların qızdırılmasında dördkünc və dairəvi formalı gil ocaqlardan istifadə edilmişdir. Yaşayış yerinin e.ə. VI minilliyə aid təbəqəsindən həm yabanı, həm də mədəni taxıl bitkilərinin, yumşaq buğda (Triticum sativum), şarşəkilli buğda (Triticum steriococum), cırtdan buğda (Triticum kompactum Hest), qılcıqsız arpa (Hordeum Sativum), butulkaşəkilli arpa (Hordenm Lagun culiforme) növlərinin tapılması Eneolit dövründə Naxçıvanda əkinçilik mədəniyyətinin inkişaf etdiyini, buranın Cənubi Qafqazda dənli bitkilərin becərildiyi ilk ocaqlardan biri olduğunu sübut edir [4, s.211]. E.ə. VI-I minilliklərdə I Kültəpə yaşayış yerində əkinçiliklə bağlı tapılan əmək alətləri (toxalar, dən daşları, sürtkəclər, həvəngdəstələr) burada yaşayan insanların əkinçilik məhsullarını emal etmək sahəsində yüksək mədəniyyətə sahib olduğunu göstərir. Abidədən tapılan bəzək əşyalarının, gil heyvan fiqurlarının, keramika və metal məmulatların hər biri mühüm elmi əhəmiyyət daşıyır. Çoxçeşidli olan bəzək əşyaları qədim Kültəpə sakinlərinin yüksək geyim mədəniyyətinə sahib olduğunu qeyd etməyə əsas verir.

Dini rituallarda istifadə olunmuş gil heyvan fiqurları Naxçıvanda heykəltəraşlığın tarixinin qədim olduğunu qeyd etməyə əsas verir. Yaşayış yerindən tapılan arxeoloji materialların kompleks şəkildə öyrənilməsi nəticəsində I Kültəpə sakinlərinin qədim sənətkarlıq sahələri sayılan daşişləmə, sümükişləmə, dulusçuluq və digər sahələrdə yüksək bacarığa sahib olduğunu göstərir. Abidənin Erkən Tunc dövrü təbəqəsindən tapılmış gil qabların Eneolit dövrünün qabları ilə müqayisədə yaxşı yoğrulması, keyfiyyətlə bişirilməsi, simmetrik olması, anqoblanması Kür-Araz mədəniyyətinin ilk mərhələsindən etibarən Naxçıvanda dulusçuluğun ev sənəti

çərçivəsindən çıxaraq ixtisaslaşmış istehsal sahəsinə çevrildiyini göstərir. Naxçıvanda Eneolit dövrünə aid maraqlı arxeoloji materiallar I Kültəpə ilə yanaşı, ətraf ərazilərdə olan Ovçular təpəsi, Xələc, I Maxta, Sədərək, Zirincli və digər abidələrin tədqiqi zamanı da aşkar edilmişdir [5, s.15-25; 6, s.25-36]. I Kültəpə abidəsində Eneolit dövrünün müxtəlif mərhələlərinə aid arxeoloji materiallar tapılmışdır [4, s.36-38]. Ovçular təpəsindən körük ucluğunun, Zirinclidən yastı baltalar tökmək üçün qəlibin, I Kültəpə abidəsindən müxtəlif metal əşyaların tapılması [7, s.47] Eneolit dövründə Naxçıvanda metallurgiya və metalişləmə sahəsində yerli istehsalın formalaşmağa başladığını sübut edir. I Kültəpə abidəsinin VIII tikinti qatından aşkarlanmış rituallarda istifadə olunmuş ocaq yerlərinin bənzərləri Şərqi Anadolunun Neolit və Eneolit abidələrindən tapılmışdır. I Kültəpə abidəsinin Eneolit dövrünə aid təbəqəsindən aşkarlanmış sağ və ya sol böyrü üstə, uzadılmış vəziyyətdə dəfnetmə [4, s.39-42] qədim Şumer, Ubeyd mədəniyyətində geniş yayılmışdır. Dəfn zamanı insanların başının altına daş qoyulması türk xalqları içərisində geniş yayılan daşa sitayişlə bağlıdır. İstər dəfnetmə adətində, istərsə də əldə edilmiş arxeoloji materialların üzərindəki ornamentasiyalarda prototürk elementlərinin olması e.ə. VI-I minilliklərdə Naxçıvan Muxtar Respublikasının bütün bölgələrində olduğu kimi, I Kültəpə ətrafındakı torpaqlarda da qədim türk etnoslarının-prototürklərin yaşadığını bir daha təsdiqləyir. Yaşayış yerinin Eneolit dövrü təbəqəsindən tapılmış Xələf tipli keramika və firuzə bəzək əşyaları bilavasitə həmin dövrdə Naxçıvanla İkiçayarası arasında əlaqələrdən xəbər verir.

I Kültəpə və II Kültəpə abidələrindəki daş təməl üzərində çiy kərpicdən, yaxud möhrədən (gil palçıqdan tikilmiş divar hasar) olan tikililər Cənubi Qafqazın bir çox abidəsi ilə yanaşı, Urmiya hövzəsinin, Şimali Mesopotamiyanın qədim arxitekturaları ilə bənzərlik təşkil edir. Plovdağda aşkar edilmiş Erkən Tunc dövrünün yaşayış və təsərrüfat tikililəri (19-164-169), Ovçular təpəsi, I Maxta Kültəpəsi, Xələc abidələrindən tapılmış Proto-Kür-Araz keramika mədəniyyətinə aid məmulatlar, Oğlanqaladan əldə olunmuş saray qalıqları, sütun altılıqları və üzərində mixi işarələr olan təsərrüfat küpünün parçası Naxçıvanın qədim və zəngin tarixindən xəbər verir. Ovçular təpəsi, I Maxta Kültəpəsi, Xələc abidələrindən tapılmış Proto-Kür-Araz keramika mədəniyyətinə aid məmulatları [8, s.65-70; 9, s.77, 86; 10, s.32-34] Naxçıvanda Kür-Araz mədəniyyətinin formalaşması tarixinin qədim olduğunu göstərir. Tədqiqatçılar Ovçular təpəsindən götürülən kömür analizinə əsasən abidənin e.ə. 4335-3980-ci illərə aid olduğunu qeyd edirlər [10, s.34]. Xələcin Son Eneolit keramikası e.ə. 4300-3800-cü illərə aid olunur. Oradan əldə olunmuş keramikada Uruk, Xələf, Ubeyd mədəniyyətinin izləri aşkarlanmışdır [11, s.77-86]. Xələf, Ubeyd mədəniyyətinin izlərinə həmçinin Ovçular təpəsi [10, s.11-15], Zirincli yaşayış yerində də rast gəlinmişdir [12, s.21]. Naxçıvandakı arxeoloji abidələrdən Proto-Kür-Araz keramika mədəniyyətinə aid məmulatlarının tapılması faktı sübut edir ki, bu ərazidə Kür-Araz mədəniyyətinin formalaşmasının tarixi qədimdir və Naxçıvan "Kür-Araz mədəniyyətinin əsas mərkəzlərindən biridir. Oğlanqalada aparılan arxeoloji tədqiqatlar zamanı müəyyən edilmişdir ki, bu abidə Şərur düzənliyini əhatə edən, Atropatena dövründə mühüm inzibati mərkəzə çevrilən, özünəməxsus yazı sisteminə malik yerli krallığın mərkəzi olmuşdur [9, s.339-348; 13, s.271-276]. Duzdağda aprılan arxeoloji araşdırmalar zamanı oranın dünyanın

ən qədim duz mədənlərindən biri olduğu, Naxçıvanda mədənçiliyin tarixinin e.ə. V minilliyin ikinci yarısından başlanıldığı müəyyən edilmişdir [14, s.229-244; 15, s.25-26]. Duzdağdan Son Eneolit və Tunc dövrünə aid gil qablar I Kültəpə, II Kültəpə abidələrində olduğu kimi, daş əmək alətləri ilə birlikdə aşkarlanmışdır.

Naxçıvandakı Erkən Tunc dövrünə aid arxeoloji abidələrin tədqiqi zamanı Maxtadan tapılan metal istehsalı ilə bağlı daş qəlib və metalın ilkin əridilməsi üçün istifadə olunan ocaq Naxçıvanın qədim tarixinin öyrənilməsində vacib arxeoloji materiallardandır [8, s.65-70]. Bunun səbəbi ondan ibarətdir ki, həmin tapıntıya qədər Naxçıvandakı Kür-Araz mədəniyyətinə aid abidələrdən daş qəlib aşkar edilməmişdir. Maxta abidəsindən tapılmış Erkən Tunc dövrünə aid metal istehsalı ilə bağlı daş qəlib və metalın ilkin əridilməsi üçün istifadə olunan ocaq həmin dövrdə Naxçıvanda metallurgiyanın inkişafında bu yaşayış yerinin mühüm yer tutduğunu göstərir. Respublikamızın ərazisindəki II Kültəpə, Şahtaxtı, Qızılburun, Nəhəcir, Nuhdaban və digər arxeoloji abidələrin tədqiqi Naxçıvanın “Boyalı qablar mədəniyyəti”nin əsas mərkəzlərindən biri olduğunu, beş min il bundan əvvəl burada şəhər tipli yaşayış yerlərinin salındığını və şəhərsalma mədəniyyətinin formalaşdığını təsdiqləyir. II Kültəpədəki yaşayış yerində küçələrə daş döşənməsi, çirkab sularının şəhərdən çıxarılması üçün müəyyən kanalların olması e.ə. III minillikdə Naxçıvanda şəhərsalma mədəniyyətinin əsas xüsusiyyətlərindən biri sayılan təmizlik sisteminin olduğunu göstərir. Naxçıvandakı şəhər tipli yaşayış yerlərində binaların küçələr boyunca salınması onların bir qayda olaraq müəyyən plan əsasında tikildiyindən xəbər verir. II Kültəpə abidəsindən tapılan dulusçuluq məhəlləsi və mükəmməl quruluşlu dulus kürələri, içərisi boya ilə dolu küplər, bütöv boyalı qablar Orta Tunc dövründə II Kültəpənin Naxçıvanın mühüm dulusçuluq mərkəzi, “Boyalı qablar mədəniyyəti”nin əsas istehsal ocağı olduğunu göstərir [16, s.13-19; 17, s.134].

Beləliklə, Naxçıvan Muxtar Respublikasının ərazisindəki hər bir abidə tariximizin, maddi və mənəvi mədəniyyətimizin dərindən öyrənilməsi üçün əvəzsiz mənbədir. Qədim Daş dövründən başlayaraq bu ərazidə yaşayış məskənlərinin salınması bölgədə zəngin arxeoloji mədəniyyət abidələrinin aşkarlanmasına şərait yaratmışdır. Nəticədə bu gün Azərbaycanın digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikası da qədim sivilizasiyanın mərkəzlərindən biri kimi qəbul olunmaqdadır.

# ƏDƏBİYYAT


1. Cəfərov Əsədulla. Naxçıvanın qədim insan düşərgələri // Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq sempoziumun materialları), Naxçıvan, Əcəmi, 2012, s. 105-108.
2. Zeynalov Azad. Naxçıvan ərazisi Paleolit dövründə // Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq sempoziumun materialları), Naxçıvan, Əcəmi, 2012, s. 108-116.
3. Baxşəliyev Vəli. Naxçıvanda insan yaşayışı nə vaxtdan başlanılıb? // “Şərq qapısı” qəzeti, 2005, 14 yanvar.
4. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
5. Aşurov S., Əliyev O. Naxçıvanın erkən əkinçi maldar tayfalarının mədəniyyəti // Azərbaycan arxeologiyası, cild 13, № 1, s. 15-25.
6. Seyidov A. Naxçıvanın Eneolit abidələriniin Azərbaycan arxeologiyasında yeri // Azərbaycan arxeologiyası, cild 13, № 1, s. 25-36.
7. Naxçıvan tarixi (üç cilddə). I cild (ən qədimdən XVIII əsrin 40-cı illərinədək), Naxçıvan, 2014, 451 s.
8. Aşurov S., Baxşəliyev V., Hüseynova S., Əliyeva F., Əliyev O. I Maxta qədim yaşayış yerində 2010-cu il qazıntıları // Azərbaycanda arxeoloji tədqiqatlar-2010, Bakı: Xəzər Universiteti, 2010, s. 65-70.
9. Baxşəliyev V. B., Ristvet L., Gopnik H., Aşurov S.H. Oğlanqalada 210-cu ildə aparılan arxeoloji tədqiqatların nəticələri // Azərbaycanda arxeoloji tədqiqatlar-210, Bakıı: Xəzər Unversiteti, 2011, s. 3339-348.
10. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi (2006-2008-ci il tədqiqatlarının nəticələri) (Tirst Pre Liminary Report the 2006-2008 seasons). Bakı: Elm, 2010, 156 s.
11. Baxşəliyev V. B. Xələc keramikasının xüsusiyyətləri // AMEA NB Xəbərlər, cild 7, № 3 Naxçıvan: 2011, s. 77-86.
12. Baxşəliyev V.B., Novruzov Z. Sirabda arxeoloji araştırmalar. Bakı: Oskar, 2010, 160 s.
13. Baxşəliyev V.B. Oğlanqala Dəmir dövrünün şəhəri // Naxçıvan: İlk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları), Naxçıvan: 2012,Əcəmi NPB, s. 271-276.
14. Katherina M. Duzdağında Tuz madençiliyinin başlanğıcı hakkında // Naxçıvan: ilkin

şəhər və duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları, Naxçıvan, Əcəmi, 2013, s. 25-28.

15. Katherine M., Bakhshaliyev V., Sanz S (Nizami Aliyev'in işbirliğiyle). Duzdağı tuz madeninde arkeolojik çalışmalar (Nahçivan, Azerbeycan) //Türkiye Bilimler Akademisi Arkeoloji Dergisi (TÜBA-Ar)-13, 2010, s. 229-244.

16. Əliyev Vəli. Naxçıvanın ilkin şəhər mədəniyyəti / Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq sempoziumun materialları), Naxçıvan, Əcəmi, 2012, s. 13-19.

17. Əliyev V., Məmmədova A. II Kültəpədə yeni tədqiqatlar (2010) // Azərbaycanda arxeoloji tədqiqatlar //2010. Bakı: Xəzər Universiteti, 2011, s. 126-135.

Тогрул Халилов

## ЖИВАЯ ИСТОРИЯ НА ПАМЯТНИКАХ НАХЧЫВАНА

### РЕЗЮМЕ

В статье изучается место и значение памятников Нахчывана. Найденные археологические материалы систематизированы и сравнены. Выяснена, что археологические памятники Нахчывана имеют важное научное значение в изучении Азербайджана. Определено, что археологические памятники Нахчывана связаны с культурой Ближнего Востока. В результате культурно-экономических связей в Нахчыване распространилась межплеменная культура Ближнего Востока.

Togrul Khalilov

## LIVING HISTORY ON MONUMENTS OF NAKHCHIVAN

### SUMMARY

The article studies the place and significance of the monuments of Nakhchivan. The archaeological materials found are systematized and compared. It has been found that the archaeological sites of Nakhchivan are of great scientific importance in the study of Azerbaijan. It is determined that the archaeological sites of Nakhchivan are associated with the culture of the Middle East. The tribal culture of the Middle East has been spread in Nakhchivan Aa a result of cultural and economic ties.